RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 101 (10121) 11 iyun 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Cənubi Qafqazda yeni dövr

Azərbaycanın sülh, təhlükəsizlik və regional bağlantılar strategiyası bölgənin inkişafının qarantıdır

Cənubi Qafqaz artıq köhnə status-kvonun, dondurulmuş münaqişələrin təzyiqi altında qalan bölgə deyil. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, güclü diplomatiyası və uzaqgörən siyasəti sayəsində regionda tərəqqi, əməkdaşlıq və sülh prinsiplərinə söykənən tamamilə yeni eranın təməli qoyulub. Dövlətimizin başçısının nümayiş etdirdiyi sarsılmaz iradə kənar güclərin bölgəyə dair riskli təşəbbüslərini iflasa uğratdı, regionun gələcəyini yerli xalqların maraqlarına uyğun formalaşdırdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prinsipial xarici siyasət kursu regionu geopolitik rəqabət meydanı olmaqdan çıxararaq dincyanaşı yaşamaq modelinin tətbiq edildiyi təhlükəsiz bir məkana çevirdi. Bu qətiyyətli addımlar region ölkələri üçün kənar təsirlərdən uzaq, müstəqil inkişaf və iqtisadi tərəqqi imkanları açdı.

Rəsmi Bakının irəli sürdüyü regional bağlantılar strategiyası təkcə ənənəvi yolların açılması ilə məhdudlaşmır, həm də tamamilə yeni istiqamətləri və rəqəmsal hədəfləri əhatə edir. Müasir mərhələdə Azərbaycan nəqliyyat layihələrini ekoloji təmiz və texnoloji infrastrukturla sintez edir. Xəzər dənizindən Avropaya qədər uzanacaq "yaşıl enerji" kabeli və regionu qlobal internet şəbəkəsinə bağlayan fiber-optik magistrallar bunun bariz nümunəsidir. Bu addımlar bağlantı anlayışını fiziki yollardan çıxararaq rəqəmsal və ekoloji müstəviyə daşıyır.

Eyni zamanda Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizində həlledici rol oynayaraq bölgəni fərqli coğrafi ox üzrə birləşdirir. Bağlantıların iqtisadi səmərəsini artırmaq üçün Ələt Azad İqtisadi Zonası kimi yeni logistik qovşaqlar və azad ticarət modelləri formalaşdırılır. Bu isə qonşu dövlətlər üçün tranzit keçid olmaqla yanaşı, birbaşa istehsal və birgə biznes imkanları da deməkdir. Bu qlobal şəbəkəyə azad olunmuş ərazilərimiz də sürətlə inteqrasiya edilir. Qarabağ və Şərqi Zəngəzurda inşa olunan beynəlxalq hava limanları, çoxşaxəli magistrallar və dəmir yolları bütövlükdə regional nəqliyyat sisteminin sürətini və səmərəliliyini artırır.

7

Azərbaycan-Portuqaliya əlaqələrinin inkişafı istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik

Portuqaliya Respublikasının Prezidenti zati-aliləri cənab Antoniu Joze Sequruya

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qarşılıqlı hörmət üzərində qurulmuş Azərbaycan-Portuqaliya əlaqələrinin inkişafı və əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqına daim rifah və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2026-cı il

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə və dost Azərbaycan xalqına Albaniya xalqı adından və öz adımdan ən səmimi təbriklərimi, davamlı sülh, tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan şərəf duyuram.

Albaniya Azərbaycanla dostluq münasibətlərini və ölkələrimiz arasında güclənən tərəfdaşlığı yüksək qiymətləndirir. Qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan münasibətlərimiz əlaqələrin daha da möhkəmlənməsinə sadiqliyimizi əks etdirərək davamlı şəkildə inkişaf edir. Zati-alinizin bu tərəfdaşlığın dərinləşməsində mühüm rol oynayan liderliyini təqdir edirəm.

Əminəm ki, Sizin rəhbərliyinizlə Albaniya ilə Azərbaycan arasındakı dostluq münasibətləri xalqlarımızın rifahı naminə enerji, turizm və infrastruktur da daxil olmaqla qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq üçün yeni yollar açaraq möhkəmlənməkdə davam edəcək.

Zati-aliləri, Sizə və ailənizə ən xoş arzularımı bildirir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Bayram BEQAY,
Albaniya Respublikasının Prezidenti

Rəqəmsal Azərbaycan - yeni dövrün idarəçilik modeli

Azərbaycanın rəqəmsal inkişaf siyasəti uzunmüddətli strateji yanaşmadan qaynaqlanır. Son illər qəbul olunmuş mühüm dövlət sənədləri rəqəmsal transformasiyanın hüquqi və institusional əsaslarını formalaşdırıb. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası", "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" və digər bir çox sənəd bu sahədə vahid dövlət siyasətinin əsas sütunlarını təşkil edir. Bu sənədlər Azərbaycan dövlətinin rəqəmsallaşmanı yalnız texnologiyaların tətbiqindən daha çox iqtisadiyyatın, dövlət idarəçiliyinin və ictimai münasibətlərin yenidən təşkili prosesi kimi qiymətləndirdiyini göstərir.

Mütəxəssislərin hesablamalarına görə, informasiya-kommunikasiya texnologiyaları sektoruna yatırılan hər 1 dollar iqtisadiyyatda təxminən 8 dollar həcmində əlavə dəyər yaradır. Bu sektorda çalışan 1 mütəxəssisin yaratdığı iqtisadi səmərə isə bir çox ənənəvi sahədəki əmək məhsuldarlığından 3-4 dəfə yüksəkdir. Məhz buna görə rəqəmsal inkişaf artıq iqtisadi və strateji təhlükəsizlik məsələsi hesab olunur.

5

Qarabağda bərqərar olan ədalət

Ümummilli Lider Heydər Əliyev kağız üzərindəki müstəqilliyi real dövlətçiliyə çevirərək, sarsılmış cəmiyyətdə milli birlik hissini bərpa etdi. O çətin dövrdə daxili xaosun cilovlanmasından tutmuş qlobal neft strategiyasına qədər atılan hər bir addım parçalanma təhlükəsi yaşayan bir ölkənin qurtuluşu oldu.

Ulu Öndərin siyasi xəttini layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edərək gücünə-güc qatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il Vətən müharibəsində ərazilərimizi işğaldan azad etdi. 2023-cü ildə həyata keçirilən və cəmi 23 saat çəkən antiterror tədbirləri ilə ölkəmizin suverenliyi tam təmin olundu .

6

Ermənistanın qarşısında duran geosiyasi çağırışlar

Bunlar Azərbaycanla sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və yeni konstitusiyanın qəbuludur

Sülh sazişinin imzalanması birbaşa regional kommunikasiyaların açılması perspektivlərinə də təsir göstərə bilər. Əgər sülh müqaviləsi imzalanmırsa və ya bu proses qeyri-müəyyən müddətə uzanırsa, regionda genişmiqyaslı nəqliyyat və iqtisadi layihələrin reallaşması da ciddi şəkildə ləngiyəcək. Xüsusilə Zəngəzur dəhlizi (TRIPP) və digər regional nəqliyyat marşrutlarının tam fəaliyyətə başlaması üçün tərəflər arasında siyasi etimadın formalaşması zəruridir. Belə etimad olmadan kommunikasiyaların açılması yalnız texniki deyil, həm də siyasi baxımdan problemli olaraq qalacaq. Bu vəziyyət ilk növbədə Ermənistanın özünə mənfi təsir göstərə bilər. Çünki Ermənistanın əsas geoiqtisadi problemi regional bağlantıların məhdud olmasıdır. Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı qalması logistika xərclərini artırır, investisiya cəlbediciliyini azaldır, tranzit imkanlarını məhdudlaşdırır və enerji təhlükəsizliyini zəiflədir. Belə şəraitdə Ermənistan, əsasən, Gürcüstan üzərindən keçən marşrutlardan və Rusiya bazarından asılı qalmağa davam edəcək. Bu isə ölkənin həm iqtisadi inkişaf tempini məhdudlaşdıracaq, həm də enerji və ticarət sahələrində mövcud asılılıqları aradan qaldırmasına imkan verməyəcək.

6

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1248 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.0.12-ci maddədə "saytı" sözü "informasiya ehtiyatı" sözləri ilə əvəz edilsin və həmin maddəyə "edilən" sözündən sonra ", yaxud Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) üzərindən təqdim olunan" sözləri əlavə edilsin.

2. 6-cı maddə üzrə:

2.1. 6.3.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.3.4-6.3.6-cı maddələr əlavə edilsin:

"6.3.4. müraciət edən şəxsin müraciətin cavablandırılması üsuluna dair seçimi (elektron və ya poçt ünvanı, yaxud EHİS vasitəsilə);

6.3.5. müraciətin (EHİS üzərindən təqdim olunmuş müraciətlər istisna olmaqla) EHİS üzərindən cavablandırılması istənildiyi halda müraciət edən fiziki şəxsin fərdi identifikasiya nömrəsi (FİN), hüquqi şəxsin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

6.3.6. müraciətin elektron ünvan vasitəsilə cavablandırılması istənildiyi halda cavabın göndəriləcəyi elektron ünvan.";

2.2. 6.4-cü maddədə "6.3-cü maddəsinin" sözləri "6.3.1-6.3.3-cü, 6.5-ci və 6.8-ci maddələrinin" sözləri ilə əvəz edilsin;

2.3. 6.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"6.7. Elektron müraciət həmin müraciətə baxan subyektin rəsmi internet informasiya ehtiyatına daxil edilir, həmin subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir, yaxud EHİS üzərindən təqdim olunur.";

2.4. 6.8-ci maddəyə "müraciət" sözündən sonra "təkmil sertifikatlı gücləndirilmiş" sözləri əlavə edilsin.

3. 7-ci maddə üzrə:

3.1. 7.3-cü maddə ləğv edilsin;

3.2. 7.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"7.6. Elektron müraciətlərə müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi tərəfindən müraciət edən şəxsin seçimi əsasında elektron və ya poçt ünvanı, yaxud EHİS vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə (EHİS üzərindən təqdim olunmuş müraciətlər istisna olmaqla) bu Qanunun 6.3.5-ci və 6.3.6-cı maddələrində nəzərdə tutulan məlumatlar göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilir.".

4. 8.1.2-ci maddədə "6.4-6.9-cu" sözləri "6.6-cı, 6.7-ci və 6.9-cu" sözləri ilə əvəz edilsin.

5. 11.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"11.4. Vətəndaşlar şəxsiyyətini təsdiq edən sənədlə müraciət etmək və ya müraciətə baxan subyektin rəsmi internet informasiya ehtiyatında, yaxud EHİS üzərindən elektron imza vasitəsilə qeydiyyatdan keçmək yolu ilə qəbula yazılırlar. Hər üç qaydada qəbula yazılmış vətəndaş qəbul günü şəxsiyyət vəsiqəsini, müraciət edən vətəndaşın adından qəbula onun nümayəndəsi gəldikdə isə onun səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 may 2026-cı il

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1046 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1.3.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"3.10. Elektron müraciətlərə təşkilatlar tərəfindən, müraciət edən şəxsin seçimi əsasında, elektron və ya poçt ünvanı, yaxud Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə (EHİS-üzərindən təqdim olunmuş müraciətlər istisna olmaqla) elektron ünvan, yaxud müraciət edən fiziki şəxsin fərdi identifikasiya nömrəsi (FİN) və ya hüquqi şəxsin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) göstərilmədikdə, müraciətə poçt vasitəsilə yazılı cavab verilir. Elektron sənəd formasında göndərilən cavab məktubu "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada tərtib edilir və rəsmiləşdirilir.";

1.2. 4.3-cü bənd üzrə:

1.2.1. birinci cümlədə "saytında" sözü "informasiya ehtiyatında, yaxud EHİS üzərindən" sözləri ilə əvəz edilsin və həmin cümlədən "Qanunun 11.4-cü maddəsinə uyğun olaraq" sözləri çıxarılsın;

1.2.2. ikinci cümlədə "iki" sözü "üç" sözü ilə əvəz edilsin;

1.3. həmin Qaydaya 1 nömrəli əlavə - "Qeydiyyat-nəzarət vərəqəsi"nin formasının" Qeydiyyat-nəzarət vərəqəsinin doldurulmasına dair göstərici" hissəsinin "Müraciətin daxilolma yolları" abzasına "qutusundan" sözündən sonra "və ya EHİS üzərindən" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 iyun 2026-cı il

Azərbaycanla Yaponiya arasında əməkdaşlıq dərinləşir

İyunun 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə yaponiyalı həmkarı Toşimitsu Motegi arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Yaponiyada keçirilən görüşdə nazirlər 1992-ci ildə diplomatik münasibətlərin qurulmasından ötən 30 ildən artıq müddətdə ikitərəfli münasibətlərin inkişafını alqışlayıb, yüksəksəviyyəli səfərlər və siyasi məsləhətləşmələr də daxil olmaqla fəal və səmərəli siyasi dialoqun vacibliyini təsdiqləyiblər.

Hər iki nazir bu səfərin iki ölkə arasında diplomatik münasibətlərin daha da möhkəmləndirilməsi üçün imkan yaratdığını vurğulayaraq, diplomatiya və iqtisadiyyat da daxil olmaqla bir sıra sahələr üzrə əməkdaşlığı dərinləşdirmək niyyətlərini təsdiqləyiblər.

Azərbaycan tərəfi Yaponiyanın Rəsmi İnkişaf Yardımını (RİY) təqdir etdiyini və Yaponiya ilə əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu ifadə edib.

Yaponiya tərəfi Azərbaycanın sabitliyinin və rifahının bütövlükdə Qafqaz regionunda sülhün təmin olunması baxımından əhəmiyyətini qəbul edib və hər iki tərəf iqtisadi sahədə əməkdaşlığın daha da gücləndirilməsi barədə razılığa gəlib.

Yaponiya tərəfi Azərbaycan tərəfinin turizmin təşviqi, iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Yaponiya vətəndaşları üçün bir il müddətinə birtərəfli qaydada vizasız rejim tətbiq etmək qərarını alqışlayıb. Tərəflər vətəndaşlarının qarşılıqlı səyahətlərini asanlaşdırmağa davam edəcəklərini təsdiqləyiblər.

Tərəflər iki ölkə arasında ticarət və investisiya əlaqələrinin daha da genişləndirilməsi məqsədilə 2025-ci ilin sentyabr ayında keçirilmiş Azərbaycan-Yaponiya Birgə İqtisadi Komitəsinin 12-ci iclasını məmnunluqla qeyd edib və növbəti iclasın yaxın zamanda keçirilməsinin zəruriliyini təsdiqləyiblər.

Yaponiya-Azərbaycan İnvestisiya Sazişi üzrə 2019-cu ilin fevral ayında başlamış danışıqlarda indiyədək əldə edilmiş irəliləyiş məmnunluqla qeyd edilib və onun yaxın zamanda bağlanması məqsədilə danışıqların sürətləndirilməsi barədə razılığa gəlinib.

Tərəflər dekarbonizasiya sahəsində əməkdaşlığın təşviqi məqsədilə Birgə Kreditləşdirmə Mexanizmindən (BKM) istifadə olunmasına və BKM Birgə Komitəsinin ilk iclasının yaxın zamanda keçirilməsinə razılıqlarını ifadə ediblər. Həmçinin regional və daha geniş əlaqəliliyin gücləndirilməsinə yönəlmiş Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə əməkdaşlığın vacibliyi barədə razılığa gəliblər.

Bundan əlavə, tərəflər yapon şirkətlərinin iştirak etdiyi "Azəri-Çıraq-Günəşli" neft-qaz yataqlarının işlənməsi və Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə iki ölkə arasında uzunmüddətli və sıx əməkdaşlıq münasibətlərinin mövcudluğu faktını yüksək qiymətləndiriblər. Bu, tərəflər arasında səmərəli qarşılıqlı əməkdaşlığın əhəmiyyətli faydalarını və müsbət nəticələrini nümayiş etdirir.

Eyni zamanda tərəflər mövcud beynəlxalq şəraitdə sabit enerji təchizatı baxımından Azərbaycanın mühüm rolunu bir daha təsdiqləyiblər. Azərbaycan mənşəli xam neftin sabit təchizatının qorunması da daxil olmaqla, enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi niyyətlərini ifadə ediblər, dəniz təhlükəsizliyinin vacibliyini vurğulayıblar.

Habelə tərəflər iqtisadi dayanıqlığa, iqtisadi təhlükəsizliyə və daha geniş beynəlxalq mühitə təsir göstərən son inkişaflarla bağlı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoqun və əməkdaşlığın davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

Tərəflər beynəlxalq platformalarda, o cümlədən beynəlxalq təşkilatlarda seçkilər ilə bağlı ikitərəfli əməkdaşlığın davam etdirilməsini təsdiqləyib, həmçinin daimi, eləcə də qeyri-daimi üzvlük kateqoriyalarının genişləndirilməsini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının islahatının tezliklə həyata keçirilməsi istiqamətində birgə fəaliyyət göstərmək əzmlərini ifadə ediblər.

Bundan əlavə, tərəflər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, o cümlədən bütün dövlətlərin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin vacibliyini vurğulayıblar.

Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.8-ci bəndinə uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun optimallaşdırılması və onun fəaliyyətində səmərəliliyin artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763, № 11, maddə 1037, № 12 (I kitab), maddələr 1137, 1147; 2026, № 1, maddə 32) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçıları aparatlarının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı"nın 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

1.	Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının nümunəvi strukturu və ştat vahidlərinin sayı	
1.12.	Yekun	155

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. aşağıdakı büdcə təşkilatlarının yaradılmasını təmin etsin:

2.1.1.1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Mənzil-Kooperativ Təsərrüfatı İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mənzil-Kooperativ Təsərrüfatı İdarəsi;

2.1.1.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Bakı Şəhər Ticarət və Xidmət Departamentinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Bakı Şəhər Ticarət və Xidmət Departamenti;

2.1.1.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan Heydər Məscidi İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Heydər Məscidi İdarəsi;

2.1.2.Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Bakı Şəhər Heyvanat Parkının "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.3-cü bəndinə əsasən yaradılması nəzərdə tutulan Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə birləşmə yolu ilə yenidən təşkilini təmin etsin;

2.1.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Diplomatik korpusa və xarici nümayəndəliklərə xidmət göstərən müdiriyyət "İnterservis"in Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyət istiqamətləri nəzərə alınmaqla yenidən təşkilini təmin etsin;

2.1.4. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Bakımənzilkommunlayihə" Layihə İnstitutunun ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.1.5. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan "Yaşıl Teatr" Bakı Konsert Kompleksinin və Bakı Şəhər Bələdiyyə Teatrının bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsini təmin etsin;

2.1.6.bu Fərmanın 2.1.1 - 2.1.3-cü yarımbəndlərində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi, habelə həmin qurumların maddi-texniki təminatı, əsasnamələrinin (nizamnamələrinin) təsdiqi, işçilərinin əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla işçilərinin say həddinin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bakı Şəhər İcra Hakimiyyəti:

3.1. strukturunun və ştat vahidlərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş nümunəvi struktura və ştat vahidlərinə uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyətinin strukturunun və əməkhaqqı sisteminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla zəruri tədbirlər görsün;

3.3. bu Fərmanın 5-ci hissəsi nəzərə alınmaqla, bu Fərmanın 2.1.1 - 2.1.3-cü yarımbəndlərinə əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun dörd ay müddətində təsdiq olunmasını təmin etsin;

3.4. bu Fərmanın 3.1-ci bəndinin tətbiqi ilə əlaqədar ştatları ixtisar olunan dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"na uyğun olaraq tədbirlər görsün;

3.5. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla, ştatları ixtisar olunan dövlət qulluqçularının analoji dövlət qulluğu vəzifələrinə təyin edilmələri ilə bağlı öz fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmana əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 iyun 2026-cı il

Hikmət HACIYEV: "Regionda sülhün bərqərar olmasından sonra Azərbaycanın xarici siyasətində yeni imkanlar yaranıb"

"Azərbaycan müstəqillik qazandıqdan bəri Orta Dəhliz üzərində işləyir".



AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxışı zamanı deyib.

O bildirib ki, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllindən və regionda sülhün bərqərar olmasından sonra Azərbaycanın xarici siyasətində yeni ölçülər, yeni imkanlar yaranıb və bu yeni coğrafiyalara doğru genişlənib.

"Azərbaycan Cənubi Qafqaz ölkəsidir. Biz, eyni zamanda Mərkəzi Asiya ailəsinə və Xəzər dənizi bölgəsinə mənsubuq. Azərbaycanın Avropa və Yaxın Şərqə dair kimlikləri var. Bütün bu dəyərlər bir-birinə ziddiyyət təşkil etmir, bir-biri ilə uyğun gəlir. Ermənistanla münaqişənin həllindən sonra Azərbaycan orta güc konsepsiyasına keçib. Bizim üçün orta güc konsepsiyası yalnız ölçü, iqtisadiyyat və əhali ilə ölçülmür. Bu, ölkələrin tərəfdaşlıq şəbəkəsidir", - deyə Prezidentin köməkçisi əlavə edib.

❖ ❖ ❖

"Xəzər dənizi Azərbaycan üçün ticarət vasitəsidir və ölkəmizi Mərkəzi Asiya ilə birləşdirir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxışı zamanı deyib.

O bildirib ki, keçən il Azərbaycan region ölkələrinin yekdil dəstəyi və qərarı ilə Mərkəzi Asiya Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilib.

"Mən bunu metaforik olaraq C5+1 adlandırıram. Mərkəzi Asiya və Azərbaycan tarixi, mədəni, dil dəyərlərini və normalarını bölüşür. Azərbaycan həmçinin Qazaxıstan, Özbəkistan və regionun digər ölkələri ilə strateji müttəfiqdir. Türk Dövlətləri Təşkilatı ona başqa bir çərçivə təqdim edir. Gənc demoqrafiya, strateji enerji və vacib mineral ehtiyatları, güclü iqtisadiyyatı ilə türk dünyası yeni siyasi reallığa və geniş Avrasiya qitəsində əməkdaşlıq platformasına çevrilir".

❖ ❖ ❖

"Orta dəhliz nəqliyyat marşrutundan Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və digər ölkələri birləşdirən strateji geoiqtisadi sistemə dərin keçid mərhələsindədir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxışı zamanı deyib.

O bildirib ki, Körfəz bölgəsində və Yaxın Şərqdə münaqişənin kəskinləşməsi şəraitində Orta dəhliz əlavə əhəmiyyət qazanır. "Orta dəhlizin vacib əsas komponentlərindən biri Bakı-Tbilisi-Qars dəmir yoludur. Bağlantı arxitekturasının vacib bir ölçüsü də Azərbaycanın Naxçıvan bölgəsi ilə əlaqəlidir. Yaranmaqda olan Zəngəzur dəhlizi getdikcə Orta dəhlizin strateji seqmenti kimi qəbul edilir. O, Şərq-Qərb əlaqəsini gücləndirməklə yanaşı, Azərbaycanın Türkiyə və daha geniş coğrafiyada Avropa ölkələri ilə birbaşa əlaqəsini gücləndirmək potensialına malikdir", - deyə Prezidentin köməkçisi əlavə edib.

Vaşinqtonda ənənəvi Trans-Xəzər Forumu işə başlayıb

ABŞ-nin paytaxtı Vaşinqtonda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Trans-Xəzər Forumu keçirilir.

AZƏRTAC-ın məlumatına görə, forumda Azərbaycan, ABŞ, Qazaxıstan və digər ölkələrin yüksəkvəzifəli rəsmiləri, regional və qlobal liderlər iştirak edirlər.

Xəzər Siyasət Mərkəzinin 10 illiyinə təsadüf edən forum "Orta dəhliz dönüş nöqtəsində: Trans-Xəzər regionu üçün növbəti nəslin böyüməsi" mövzusuna həsr olunub.

Tədbirdə "Strateji əlaqə və Orta dəhliz", "Enerji və kritik minerallar", "Rəqəmsal transformasiya və sənayeli süni intellekt" mövzularında panellər təşkil olunacaq.

“Xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısı, onlara ayrılan yerlərin sayı və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanı”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 172 **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısı, onlara ayrılan yerlərin sayı və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanı" təsdiq edilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

“Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və “Gran Tierra Energy (Azerbaijan) GmbH” şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi”nə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 174 **Bakı şəhəri, 9 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 899 nömrəli Sərəncamına əsasən 2026-cı il 18 fevral tarixində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü Sazişi"nin 5-ci əlavəsində qeyd olunmuş "Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri" təsdiq edilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 175 **Bakı şəhəri, 10 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxsin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 545 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055 (Cild I); 2025, № 5, maddə 515) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 1-ci hissəsi ləğv edilsin və aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti.".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan uşaqların maraqlarını və təhlükəsizliyini prioritet hesab edən hüquqi mexanizmlər formalaşdırır

"Milli Məclisdə müzakirə olunan uşaqların rəqəmsal mühitdə müdafiəsinə dair qanun layihəsi müasir dövrün çağırışlarından irəli gələn mühüm qanunvericilik təşəbbüsüdür. Son illər Milli Məclis uşaqların hüquqlarının qorunması, onların təhlükəsiz və sağlam mühitdə inkişafının təmin edilməsi istiqamətində ardıcıl və sistemli qanunvericilik fəaliyyəti həyata keçirir. Təqdim olunan qanun layihəsi də məhz bu siyasətin davamı olmaqla, uşaqların rəqəmsal məkanda təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir".

Bunu AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Sevinc HÜSEYNOVA** deyib.

Deputat bildirib ki, müasir dövrdə internet və sosial şəbəkələr uşaqlara geniş imkanlar yaratsa da, onları müxtəlif təhlükələrlə, o cümlədən zorakılığı təbliğ edən məzmunlar, kibertəqib, psixoloji manipulyasiya, dezinformasiya və digər zərərli təsirlərlə qarşı-qarşıya qoyur. Buna görə də uşaqların rəqəmsal mühitdə qorunması artıq yalnız ailələrin deyil, dövlətin və cəmiyyətin də mühüm vəzifəsinə çevrilib.

O qeyd edib ki, rəqəmsal platformalara qoşulmanın yaş həddinin qanunla tənzimlənməsi ilə bağlı dünyanın bir sıra ölkələrində uğurlu təcrübələr mövcuddur. Bir çox dövlət uşaqların sosial media platformalarından istifadəsinə yaş məhdudiyyətləri qoyur, valideyn razılığı və yaşın təsdiqlənməsi mexanizmlərindən istifadə edirlər. Azərbaycan da bu sahədə beynəlxalq təcrübəni nəzərə alaraq uşaqların maraqlarını və təhlükəsizliyini prioritet hesab edən hüquqi mexanizmlər formalaşdırır. Layihəyə əsasən, 16 yaşadək uşaqların fiziki və psixoloji sağlamlığının mühafizəsi, onların müxtəlif sövqedici və təhrikedici çağırışlardan qorunması məqsədilə sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların açılması üçün minimum rəqəmsal yetkinlik dövrü 16 yaş müəyyən edilir. Həmin yanaşma uşaqların yaşlarına uyğun olmayan məzmunlardan və onların inkişafına mənfi təsir göstərə biləcək risklərdən qorunmasına xidmət edir. Eyni zamanda platforma provayderlərinin yaş məhdudiyyətlərinin tətbiqini təmin etmək üçün bank kartı, elektron poçt və mobil nömrə əsaslı yaş doğrulama mexanizmlərini tətbiq etməsi nəzərdə tutulur. Bu mexanizmlər uşaqların yaş məhdudiyyətlərini aşaraq platformalarda nəzarətsiz fəaliyyət göstərməsinin qarşısını almağa yönəlib: "Qanun layihəsində 16-18 yaş qrupu üçün daha çevik, lakin nəzarətli yanaşma müəyyən edilir. Bu yaş kateqoriyasına aid yeniyetmələr valideyn və ya qanuni nümayəndənin razılığı əsasında sosial şəbəkələrdə və digər rəqəmsal platformalarda hesab yarada biləcəklər. Beləliklə, həm yeniyetmələrin rəqəmsal imkanlardan istifadə hüququ təmin olunur, həm də valideyn nəzarəti mexanizmi qorunub saxlanılır".

Sevinc Hüseynovanın sözlərinə görə, layihənin mühüm istiqamətlərindən biri də fərdi məlumatların mühafizəsidir. Belə ki, uşaqlara və yeniyetmələrə aid şəxsi məlumatların kənar şəxslərə ötürülməsi yolverilməz hesab edilir. Bu norma onların şəxsi həyatının toxunulmazlığını, informasiya təhlükəsizliyini və rəqəmsal hüquqlarını daha etibarlı şəkildə qorumağa xidmət edir.

Deputat vurğulayıb ki, qanun layihəsinin aktuallığını təsdiqləyən mühüm göstəricilərdən biri də beynəlxalq statistikadır. "Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, yeniyetmələrin 35 faizi gün ərzində orta hesabla 5 saatdan çox vaxtını telefon və digər rəqəmsal cihazlardan istifadə etməklə keçirir. Bu fakt göstərir ki, rəqəmsal mühit artıq uşaqların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib və onların bu mühitdə təhlükəsizliyinin təmin olunması üçün daha effektiv hüquqi mexanizmlərə ehtiyac var. Odur ki, təqdim olunan qanun layihəsi uşaqların sağlam inkişafının təmin olunmasına, onların rəqəmsal mühitdə hüquq və təhlükəsizliyinin qorunmasına, valideyn məsuliyyətinin gücləndirilməsinə və platforma provayderlərinin məsuliyyətinin artırılmasına mühüm töhfə verəcək. Bu təşəbbüs ölkəmizdə uşaqların müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətinin növbəti mühüm mərhələsi olmaqla yanaşı, beynəlxalq təcrübəyə uyğun müasir və təhlükəsiz rəqəmsal mühitin formalaşdırılmasına xidmət edir", - deyə o bildirib.

Azərbaycanla Almaniya arasında əlaqələrin inkişafı ilə bağlı məsələlər nəzərdən keçirilib

Milli Məclisin Sədri Sahibə Qafarova Almaniyanın ölkəmizdəki səfirini qəbul edib

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda diplomatik fəaliyyəti başa çatan Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannı qəbul edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə diplomatın ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan və Almaniya arasında münasibətlərin inkişafı istiqamətində baş vermiş proseslər nəzərdən keçirilib. Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfərlərinin və Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ölkəmizə səfərinin münasibətlərin inkişafında mühüm rolunu vurğulayıb. Həmçinin ölkələrimiz arasında iqtisadi, ticari və digər sahələrdə əməkdaşlıq məsələləri qeyd olunub.

Söhbət zamanı qanunvericilik orqanları arasında da münasibətlərə diqqət yetirilib. Milli Məclisin Sədri özünün Almaniya Federativ Respublikasına rəsmi səfərini, o cümlədən parlament dostluq qruplarının qarşılıqlı səfərlərini qeyd edib.

Səfir Ralf Horlemann Azərbaycanda alman irsinə olan münasibəti yüksək qiymətləndirib, bunu tolerantlığın göstəricisi kimi qeyd edib. O, fəaliyyəti dövründə ölkəmizi daha yaxından tanımaq imkanı əldə etdiyini bildirib və müsbət təəssüratlarını bölüşüb.

Səfir həmçinin son dövrlər Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunmuş nailiyyətləri qeyd edərək, bu istiqamətdə irəliləyişlərin regiona sülh və sabitlik gətirdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

Parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb

Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziyanın ölkəmizdəki səfirini qəbul edib

Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq, siyasi, iqtisadi, investisiya və digər sahələrdə əməkdaşlığı daha da möhkəmləndirmək üçün imkanların olduğu vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstəyin mövcud olduğu qeyd edilib. Spiker Sahibə Qafarova İndoneziyanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirak etdiyini bildirib.

Görüşdə parlamentlər arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı da fikir mübadiləsi aparılıb. Bu kontekstdə hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin, həmçinin deputatların qarşılıqlı səfərlərinin və sıx təmaslarının münasibətlərin daha da genişlənməsinə xidmət etdiyi bildirilib.

Səfir Berlian Helmi də ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsində parlamentlərin rolunu qeyd edərək, fəaliyyəti dövründə digər sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da əməkdaşlığın inkişafına töhfə verməyə çalışacağını söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

Yeni reallıqlar Azərbaycanın formalaşdırdığı gündəm əsasında inkişaf edir

Erməni diasporunun Azərbaycan, Türkiyə və Gürcüstan XİN başçılarının 10-cu görüşündə imzalanmış İstanbul Bəyannaməsinə qərəzli münasibətinin heç bir əsası yoxdur. Əslində, İstanbul Bəyannaməsinə qərəzli münasibət təkcə konkret sənədə verilən reaksiya deyil. Bu yanaşma son illərdə Cənubi Qafqazda baş verən fundamental geosiyasi dəyişikliklərin erməni siyasi dairələri tərəfindən necə qəbul olunduğunu nümayiş etdirən növbəti nümunədir.

Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA qəzetimizə açıqlamasında deyib ki, erməni diaspor təşkilatları İstanbul Bəyannaməsini Ermənistanın iştirakı olmadan regionun gələcəyi ilə bağlı qərarların verilməsi kimi təqdim etməyə və bundan narahatlıq olduğunu göstərməyə çalışır: "Məsələyə obyektiv yanaşdıqda ortaya tamamilə fərqli mənzərə çıxır. Baş verən proseslər hər hansı dövlətin kənarda saxlanılması deyil, regionda formalaşmış yeni siyasi reallıqların beynəlxalq səviyyədə qəbul edilməsidir. Uzun illər ərzində Ermənistan və onu dəstəkləyən müxtəlif dairələr regional prosesləri keçmiş münaqişənin prizmasından qiymətləndirməyə çalışırdılar. Qarabağ məsələsi həm regional əməkdaşlıq layihələrinin, həm də nəqliyyat-kommunikasiya təşəbbüslərinin qarşısında əsas maneə kimi çıxış edirdi. Lakin Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində əldə etdiyi tarixi qələbə və 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyinin tam bərpa olunması ilə regionda yeni geosiyasi mərhələ başlandı. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, artıq regional gündəliyi münaqişə deyil, əməkdaşlıq, nəqliyyat, enerji təhlükəsizliyi və iqtisadi inteqrasiya məsələləri müəyyən edir. İstanbul Bəyannaməsi də məhz bu yeni konseptual yanaşmanın siyasi ifadələrindən biri kimi çıxış edir".

Deputatın sözlərinə görə, erməni diasporunun narazılığı ilk növbədə sənəddə, ümumilikdə regionla bağlı beynəlxalq müzakirələrdə Azərbaycanın təşəbbüslərinin və irəli sürdüyü strateji konsepsiyaların getdikcə daha geniş dəstək qazanması ilə bağlıdır. Son illərdə Orta dəhliz, "Şərq-Qərb" nəqliyyat marşrutu, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq, qlobal enerji təhlükəsizliyi və regional bağlantılar kimi məsələlər beynəlxalq gündəliyin mühüm hissəsinə çevrilib. Bu tarixi proseslərin mərkəzində isə məhz Azərbaycan dayanır. "Əslində, bu reaksiya Ermənistanın regionda dəyişən roluna verilən cavabdır. Uzun müddət Ermənistan özünü regional proseslərin ayrılmaz iştirakçısı kimi təqdim etməyə çalışsa da, reallıq göstərdi ki, regional layihələrə qoşulmaq üçün ilk növbədə konstruktiv siyasət yürütmək lazımdır. Azərbaycan və Türkiyə tərəfindən irəli sürülən əməkdaşlıq platformaları dəfələrlə Ermənistan üçün də açıq elan olunub. Lakin İrəvan uzun illər bu imkanlardan istifadə etmək əvəzinə qarşıdurma siyasətinə üstünlük verib. Bu gün isə vəziyyət köklü surətdə dəyişib", -deyə Sevinc Fətəliyeva əlavə edib.

O bildirib ki, regionun gələcəyi artıq münaqişələrin dondurulması üzərində deyil, kommunikasiyaların açılması, iqtisadi inteqrasiya və qarşılıqlı faydalı əməkdaşlıq müstəvisində qurulur. Bu proseslərdə iştirak etmək istəyən hər bir dövlət yeni reallıqları qəbul etməlidir. Erməni diaspor təşkilatlarının əsas problemi də məhz budur. Onlar hələ də keçmiş siyasi təsəvvürlərlə hərəkət edir, regionun dəyişdiyini qəbul etmək istəmirlər. Halbuki beynəlxalq ictimaiyyət getdikcə daha aydın şəkildə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır, regionda yaranmış yeni vəziyyəti tam qəbul edir.

Deputat qeyd edib ki, son illərdə Azərbaycanın beynəlxalq nüfuzunun artması, COP29-a evsahibliyi etməsi, Avropanın enerji təhlükəsizliyində mühüm strateji tərəfdaşa çevrilməsi, Orta dəhlizin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış etməsi və türk dünyasında inteqrasiya proseslərinə verdiyi töhfələr ölkəmizin regional çəkisini əhəmiyyətli dərəcədə artırıb: "Nəticədə regionla bağlı qəbul olunan mühüm siyasi qərarlarda və strateji sənədlərdə Azərbaycanın mövqeyi həlledici amilə çevrilib. Bu baxımdan, İstanbul Bəyannaməsi ətrafında yaranan müzakirələr, əslində, daha geniş tendensiyanın tərkib hissəsidir. Söhbət təkcə bir sənəddən deyil, Cənubi Qafqazda yeni siyasi düzənin formalaşmasından gedir. Bu yeni düzənin əsas xüsusiyyəti isə ondan ibarətdir ki, regionun gələcəyi artıq işğal və separatizm üzərində deyil, beynəlxalq hüquq, dövlətlərin suverenliyi və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurulur. Regionda baş verən proseslər göstərir ki, yeni geosiyasi reallıqlar artıq keçmişin mifləri əsasında deyil, Azərbaycanın formalaşdırdığı və beynəlxalq ictimaiyyət tərəfindən getdikcə daha geniş qəbul edilən gündəm əsasında inkişaf edir".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

1993 MİLLİ QURTULUŞ 2026

QURTULUŞ MƏFKURƏSİ:
xilaskarlıq missiyasından Zəfər salnaməsinə

İyunun 10-da Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Akademik Musiqili Teatrının birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluş məfkurəsi: xilaskarlıq missiyasından Zəfər salnaməsinə" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı videoçarx nümayiş olunub.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi müasir tariximizdə silinməz iz qoymuşdur: "Bilirsiniz ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız tarixinin son dərəcədə taleyüklü bir dövrünü yaşayırdı. Gündən-günə dərinləşən ictimai-siyasi böhran, sosial-iqtisadi tənəzzül və Ermənistanın Azər-baycana qarşı hərbi təcavüzü fonunda dövlət müstəqilliyi ciddi təhlükə altında idi. Məhz belə bir mürəkkəb dönəmdə - 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə dövlətçilik tariximizdə yeni mərhələ başlandı. Xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirməklə Azərbaycanın müstəqilliyini möhkəmləndirərək hüquqi, dünyəvi və demokratik dövlət kimi möhkəm təməllər üzərində gələcəyə inamla addımlamasını təmin etdi. Digər tərəfdən, milli maraqlara əsaslanan balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın beynəlxalq münasibətlər sistemində təcrid vəziyyətindən qurtularaq etibarlı tərəfdaşa çevrilməsini şərtləndirdi".

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri də siyasi varisliyin təmin edilməsidir: "Heydər Əliyev yolunu böyük əzmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində Azərbaycan böyük nailiyyətlərə imza ataraq öz qüdrətini daha da artırdı və xalqımızın uzun illər boyu arzuladığı möhtəşəm Zəfərə - tarixi ədalətin bərpasına nail oldu. Bu gün işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, müasir infrastruktur yaradılır və soydaşlarımızın doğma yurdlarına qayıdışı təmin olunur ki, bu da Heydər Əliyev ideyalarının təntənəsi və Prezident İlham Əliyevin qətiyyətli siyasətinin real nəticəsidir".

Tahir Budaqovun sözlərinə görə, Heydər Əliyev ideyalarının yaşadılmasında, Qurtuluş məfkurəsinin gənc nəslə aşılanmasında Ulu Öndərimizin qurucusu olduğu və bu gün Prezident İlham Əliyevin liderliyi ilə öz fəaliyyətini inamla davam etdirən Yeni Azərbaycan Partiyasının müstəsna rolu var: "Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi öz sıralarında 750 mindən çox vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyası müdrik dövlət xadiminin əbədiyaşar ideyalarına yüksək sədaqət nümayiş etdirərək ölkəmizin inkişafına mühüm töhfələr verir. Partiyamız dövlət başçısının müəyyənləşdirdiyi strateji hədəfləri bundan sonra da müvəffəqiyyətlə yerinə yetirmək əzmindədir".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasını dövlət siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyənləşdirərək mədəniyyət və incəsənət sahəsinə daim yüksək diqqət göstərmişdir: "Ulu Öndərin təşəbbüsü ilə mədəniyyətimizin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, yaradıcı insanların əməyi hər zaman yüksək dəyərləndirilmişdir. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən tarixi irsimizin, o cümlədən mədəniyyətimizin qorunaraq yaşadılmasına xüsusi önəm verilir və bu istiqamətdə ardıcıl işlər görülür. Zəngin tarixi ənənələrimizin qorunmasında və Qurtuluş məfkurəsinin gənc nəslə çatdırılmasında mədəniyyət xadimlərinin də üzərinə böyük məsuliyyət düşür. Heydər Əliyev irsini yaşatmaq, Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək və dövlətçiliyimizi daha da möhkəmləndirmək üçün milli maraqları daim qorumalı və dövlətə sədaqətlə xidmət etməliyik. Bu yolda hər birinizə möhkəm cansağlığı, uzun ömür və şərəfli fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov çıxışında bildirib ki, Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin ən şərəfli və əlamətdar səhifələrindən biridir. Onun sözlərinə görə, bu gün dövlətçiliyimizin xilası, xalqımızın parçalanmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtulması, ölkəmizin sabitlik və inkişaf yoluna qədəm qoyması ilə bağlıdır: "1993-cü ildə yaranmış ağır ictimai-siyasi böhran Azərbaycan dövlətinin mövcudluğunu sual altına qoymuşdu. Məhz belə bir mürəkkəb və taleyüklü məqamda xalqın tələbi ilə Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Azərbaycan xalqı öz xilaskarına üz tutaraq ölkənin gələcəyini onun müdrik siyasi təcrübəsinə etibar etdi. Əgər Heydər Əliyevin siyasi qətiyyəti, dövlətçilik təfəkkürü və xalqına sonsuz sədaqəti olmasaydı, müstəqil Azərbaycan dövlətinin taleyi ciddi təhlükə altında qala bilərdi. Buna görə də Milli Qurtuluş Günü yalnız tarixi hadisə deyil, həm də Azərbaycan dövlətçiliyinin xilası və xalqımızın gələcəyə inamının təntənəsidir".

V.Zeynalov qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf edir, beynəlxalq nüfuzu artır, iqtisadi qüdrəti güclənir və milli maraqlarımız qətiyyətlə müdafiə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanaraq torpaqlarımızı işğaldan azad etdi. Bu şanlı qələbə Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsi, Azərbaycan xalqının milli birliyinin və dövlətimizin gücünün bariz nümunəsi oldu. 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyi tam təmin edildi. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü və suveren hüquqlarını tam bərpa etdi. Bu tarixi nailiyyətlər Prezident İlham Əliyevin qətiyyətli siyasətinin və xalq-iqtidar birliyinin nəticəsidir".

V.Zeynalov vurğulayıb ki, bu gün Azərbaycan regionun lider dövləti kimi mühüm beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Ölkəmiz siyasi sabitliyi, iqtisadi inkişafı, sosial rifahı və milli həmrəyliyi ilə seçilir. Bütün bunların əsasında isə 15 İyun - Milli Qurtuluş Günündə əsası qoyulmuş möhkəm dövlətçilik təməlləri dayanır. "Milli Qurtuluş Günü hər birimiz üçün Vətənə sədaqət, dövlətçiliyə bağlılıq və milli birlik rəmzidir. Bu əlamətdar gün bizə bir daha xatırladır ki, müstəqilliyin qorunması və dövlətçiliyimizin daha da gücləndirilməsi hər bir vətəndaşın müqəddəs borcudur", - deyə V.Zeynalov əlavə edib.

Çıxış edən Azərbaycan Dövlət Akademik Musiqili Teatrının rəhbəri Aqil Bəhramlı bildirib ki, tariximizdə elə məqamlar var ki, onlar yalnız bir günün və ya bir hadisənin deyil, bütöv bir xalqın taleyinin dəyişdiyi dönüş nöqtələri kimi yadda qalır: "Milli Qurtuluş Günü də məhz belə tarixlərdəndir. Bu gün müstəqil Azərbaycanın qorunub saxlanılması, dövlətçiliyimizin möhkəmləndirilməsi və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkədə sabitliyin bərpasına, dövlət institutlarının möhkəmləndirilməsinə və milli həmrəyliyin təmin edilməsinə şərait yaratdı. Azərbaycanın müstəqilliyinin qorunması və dövlətçiliyimizin gələcək inkişafı üçün möhkəm təməllər məhz həmin dövrdə formalaşdırıldı".

"Ulu Öndərin tarixi qayıdışından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. Dövlət idarəetmə sistemi təkmilləşdirildi, demokratik təsisatların inkişafı üçün şərait yaradıldı. 1995-ci ildə qəbul edilən Konstitusiya isə müasir Azərbaycan dövlətinin hüquqi əsaslarını müəyyənləşdirərək gələcək inkişafın yol xəritəsinə çevrildi. Eyni zamanda ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili qarşı-durmaların qarşısı alındı və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bütün bunlar Azərbaycanın gələcək uğurlarının əsasını təşkil etdi", - deyə A.Bəhramlı bildirdi.

O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mühüm nailiyyətlər əldə edib: "Xüsusilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması xalqımızın çoxəsrlik dövlətçilik tarixində ən şərəfli səhifələrdən biridir. Milli Qurtuluş Gününün əhəmiyyəti həm də ondan ibarətdir ki, bu tarix gənc nəslə dövlət müstəqilliyinin necə böyük dəyər olduğunu xatırladır. Gənclərimiz xalqımızın keçdiyi mürəkkəb və şərəfli yolu öyrənərək dövlətçilik ənənələrinə sadiqlik, vətənpərvərlik və milli birlik kimi dəyərləri daha dərindən mənimsəyirlər".

YAP Veteranlar Şurasının üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik olan bir gündür: "Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa-dayaq olan Heydər Əliyevdir. 1993-cü il iyunun 15-də siyasi rəhbərliyə qayıdan Ulu Öndərin gərgin əməyi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində qısa zaman kəsiyində dövlət müstəqilliyimiz dönməz xarakter aldı, hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi sabitlik, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu".

V.Novruzov qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın yeni neft strategiyası formalaşdırılıb və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə xarici investisiyaların ölkəmizə axını üçün möhkəm zəmin yaradılıb. V.Novruzovun sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir.

YAP Veteranlar Şurasının üzvü Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Novruz Quliyev də çıxışında Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, Heydər Əliyev SSRİ dövründə həm Azərbaycana rəhbərlik edərkən, həm də Moskvada yüksək vəzifədə çalışarkən daim xalqımızın rifahı, respublikamızın inkişafı üçün böyük işlər görüb.

N.Quliyev Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişi ilə xalqımızı bir çox bəlalardan qurtarmaqla bərabər, Azərbaycanın dövlətçilik tarixində yeni səhifə açdığını bildirib. O deyib ki, bu qayıdış ölkədə sabitliyin bərqərar olması və iqtisadi-siyasi inkişafın təmin edilməsi baxımından əhəmiyyətli dönüş nöqtəsi kimi yadda qalıb: "Heydər Əliyevin liderliyi ilə Azərbaycan müstəqilliyini möhkəmləndirib, dövlət institutlarını gücləndirib və beynəlxalq aləmdə nüfuzunu artırıb".

O diqqətə çatdırıb ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan həm daxili, həm də xarici siyasətdə mühüm nailiyyətlər əldə edib. Onun sözlərinə görə, Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı zirvələrə yüksəldib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.

"Azərbaycan"

MİLLİ QURTULUŞDAN BÖYÜK QAYIDIŞA:
azad edilmiş ərazilərdə quruculuq və dayanıqlı inkişaf modeli
Yeni Azərbaycan Partiyası Zəngilan və Laçın rayon təşkilatlarının birgə təşkilatçılığı ilə konfrans keçirilib

İyunun 9-10-da Zəngilan rayonunun Ağalı kəndində və Laçın şəhərində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının Laçın və Zəngilan rayon təşkilatlarının birgə təşkilatçılığı ilə "Milli Qurtuluşdan Böyük Qayıdışa: Azad edilmiş ərazilərdə quruculuq və dayanıqlı inkişaf modeli" mövzusunda tədbir keçirilib.

Tədbirdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Mirkişili, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmisi Aqil Qurbanov, YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə, YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov, hər iki rayonun tanınmış ziyalıları, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, qazilər və partiya fəalları iştirak ediblər.

Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub. Dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib və büstün önünə gül dəstələri düzülüb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

15 İyun - Azərbaycanda Milli Qurtuluş Gününə və işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin bərpası, quruculuq işlərini əks etdirən videoçarx təqdim edilib.

Tədbirdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Mirkişili, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmisi Aqil Qurbanov, YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov, YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə, AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elm-ləri doktoru, dosent, Azər-baycan folklorşünası Hikmət Quliyev, Bakı Mühəndislik Universitetinin prorektoru, hüquq üzrə fəlsəfə doktoru Mikayıl Zeynalov, müharibə veteranı, Əməkdar müəllim Bayram Məmmədov, Bakı Mühəndislik Universitetinin Magistratura və doktorantura şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Şikar Qasımov, "Azərbaycan" qəzetinin məsul katibi, tarix üzrə fəlsəfə doktoru Elçin Vəliyev, Bakı Ali Neft Məktəbinin müəllimi, tarix elmləri namizədi, dosent Ələmdar Şahverdiyev, Azərbaycan Respublikasının Milli Qəhrəmanlar Cəmiyyətinin Laçın üzrə nümayəndəsi, şəhid Milli Qəhrəman Oqtay Güləliyevin həyat yoldaşı Afət Novruzova, Zəngilan rayon Ağsaqqallar Şurasının üzvü, "Azərbaycan Menecment və İnvestisiya Korporasiyası" QSC-nin baş direktoru Emin Əliyev, Zəngilan rayon sakini, I Qarabağ müharibəsi qazisi, Vətən müharibəsinin iştirakçısı Zakif Abbasov, Laçın rayon sakini, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları təşkilatı İctimai Birliyinin Laçın rayon təşkilatının sədri Qəzənfər Hüseynov, idman jurnalisti Sənan Məhərrəmov, Laçın şəhər sakini, rayon ziyalısı Kifayət Sadıqova, Zəngilan rayon sakini, partiya fəalı Cəfər Cabbarlı və Laçın rayon Ə.H.Məmmədov adına Zabux kənd tam orta ümumtəhsil məktəbinin hərbi rəhbəri, Vətən müharibəsi qazisi Taleh İsgəndərli çıxış edərək qeyd ediblər ki, 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyini ciddi təhlükələrdən xilas etməklə ölkədə ictimai-siyasi sabitliyin və davamlı inkişafın əsaslarını formalaşdırıb. Bildirilib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs uğurla davam etdirilir, ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam təmin olunub, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa, yenidənqurma və quruculuq işləri həyata keçirilir.

Natiqlər Milli Qurtuluş Gününün Azərbaycan tarixində müstəsna siyasi və tarixi əhəmiyyətə malik olduğunu vurğulayaraq qeyd ediblər ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyası ölkəmizin hərtərəfli tərəqqisini təmin edib. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma layihələri, müasir şəhərsalma konsepsiyalarının tətbiqi, "ağıllı kənd" və "ağıllı şəhər" modellərinin reallaşdırılması Azərbaycanın güclü iqtisadi potensialının, məqsədyönlü dövlət siyasətinin və strateji inkişaf baxışının nəticəsi kimi dəyərləndirilib.

Çıxışlarda vurğulanıb ki, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində həyata keçirilən layihələr keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışını təmin etməklə yanaşı, regionda dayanıqlı inkişafın, sosial rifahın və iqtisadi fəallığın formalaşmasına mühüm töhfə verir. Azad edilmiş ərazilərdə inşa olunan yaşayış məntəqələri, müasir yol nəqliyyat infrastrukturu, təhsil, səhiyyə və digər sosial təyinatlı obyektlər dövlətin insan kapitalına və vətəndaş rifahına verdiyi önəmin bariz göstəricisi kimi qiymətləndirilib.

Xüsusi olaraq qeyd olunub ki, Azərbaycan xalqının Milli Qurtuluşdan başlayan inkişaf yolu Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə yüksəlib. Tarixi Zəfər və dövlət suverenliyinin tam bərpası nəticəsində ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işləri isə müasir Azərbaycan dövlətinin siyasi iradəsini, iqtisadi qüdrətini və inkişaf potensialını əyani şəkildə nümayiş etdirir.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Tədbirin sonunda iştirakçılar Zəngilan rayonunda və Laçın şəhərində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ilə yaxından tanış olublar. Azad edilmiş ərazilərdə aparılan yenidənqurma layihələri "Böyük Qayıdış" Dövlət Proqramının uğurlu icrasının və Azərbaycanın dayanıqlı inkişaf modelinin parlaq təzahürünə şahidlik ediblər.

Tədbir çərçivəsində şəhid və qazi ailələri ziyarət olunub.

"Azərbaycan"

AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI

XXI əsrdə ölkələrin gücü yalnız təbii sərvətləri, hərbi gücü və ya iqtisadi imkanları ilə ölçülmür. Müasir dünyada dövlətlərin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biri həm də rəqəmsal transformasiyanın səviyyəsidir. İdarəçiliyin səmərəliyi, vətəndaş məmnunluğu, iqtisadi inkişafın sürəti və milli təhlükəsizliyin etibarlığı getdikcə daha çox rəqəmsal texnologiyaların tətbiqindən asılı olur.

Rəqəmsal Azərbaycan - yeni dövrün idarəçilik modeli

Azərbaycan da son illər bu qlobal tendensiyaları nəzərə alaraq rəqəmsal dövlət quruculuğunu milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi qəbul edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizdə rəqəmsal transformasiya texnoloji yenilənmədən daha üstün məzmun daşıyaraq dövlət idarəçiliyinin mahiyyətcə yenidən qurulması prosesinə çevrilib. Bu gün Azərbaycan regionun ən sürətlə rəqəmsallaşan ölkələrindən biri kimi yeni inkişaf mərhələsinə qədəm qoyur.

Strateji baxışdan milli prioritetə

Azərbaycanın rəqəmsal inkişaf siyasəti uzunmüddətli strateji yanaşmadan qaynaqlanır. Son illər qəbul olunmuş mühüm dövlət sənədləri rəqəmsal transformasiyanın hüquqi və institusional əsaslarını formalaşdırıb. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası", "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası", "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" və digər bir çox sənəd bu sahədə vahid dövlət siyasətinin əsas sütunlarını təşkil edir. Bu sənədlər Azərbaycan dövlətinin rəqəmsallaşmanı yalnız texnologiyaların tətbiqindən daha çox iqtisadiyyatın, dövlət idarəçiliyinin və ictimai münasibətlərin yenidən təşkili prosesi kimi qiymətləndirdiyini göstərir.

Mütəxəssislərin hesablamalarına görə, informasiya-kommunikasiya texnologiyaları sektoruna yatırılan hər 1 dollar iqtisadiyyatda təxminən 8 dollar həcmində əlavə dəyər yaradır. Bu sektorda çalışan 1 mütəxəssisin yaratdığı iqtisadi səmərə isə bir çox ənənəvi sahədəki əmək məhsuldarlığından 3-4 dəfə yüksəkdir. Məhz buna görə rəqəmsal inkişaf artıq iqtisadi və strateji təhlükəsizlik məsələsi hesab olunur.

Rəqəmsal dövlətin təməlində güclü infrastruktur dayanır. Son illər ölkəmizdə həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi bu istiqamətdə ən böyük texnoloji proqramlardan sayıla bilər. Layihə çərçivəsində köhnə mis kabel infrastrukturu tamamilə optik şəbəkə ilə əvəzlənib, müasir GPON (Gigabit Passive Optical Networks) texnologiyası tətbiq olunub və ölkənin ən ucqar yaşayış məntəqələrinə qədər yüksəksürətli internet çıxışı təmin edilib.

Son 4 ildə Azərbaycanda internet sürətinin 7 dəfə artaraq 12,81 Mbit/saniyədən 90 Mbit/saniyəyə yüksəlməsi ölkəmizin telekommunikasiya tarixində mühüm dönüş nöqtəsidir. Sabit genişzolaqlı internetə çıxışı olan təsərrüfatların sayı isə 20 dəfədən çox artaraq təxminən 4,8 milyona çatıb. Bu rəqəmlər Azərbaycanın rəqəmsal transformasiya prosesinin texniki bazasının artıq formalaşdığını göstərir. Bu gün ölkə ərazisinin tam şəkildə fiber-optik şəbəkə ilə əhatə olunması region üçün nümunə sayıla biləcək parlaq nəticədir.

"Hökumət buludu"

Müasir rəqəmsal dövlətin əsas elementlərindən biri məlumatların təhlükəsiz və mərkəzləşdirilmiş şəkildə idarə olunmasıdır. Bu baxımdan, Azərbaycanda yaradılan "Hökumət buludu" platforması xüsusi əhəmiyyət daşıyır. Bakıda və Yevlaxda fəaliyyət göstərən müasir data mərkəzləri dövlət informasiya sistemlərinin vahid məkanda idarə olunmasına imkan yaradır. Son illər bu platformaya qoşulan qurumların sayının üç dəfə artaraq 148-ə çatması dövlət sektorunda rəqəmsal inteqrasiyanın sürətləndiyini göstərir.

Hazırda mövcud mərkəzlərdən üç dəfə böyük gücə malik yeni data mərkəzlərinin tikintisi davam edir. Bu isə Azərbaycanın gələcəkdə regionun mühüm məlumat və texnologiya hablarından birinə çevrilmək niyyətindən xəbər verir.

Azərbaycanın rəqəmsal transformasiya sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri məhz elektron hökumət sisteminin inkişafıdır. Bu gün Elektron Hökumət İnformasiya Sistemi (EHİS) ölkənin əsas rəqəmsal platforması kimi fəaliyyət göstərir, dövlət informasiya sistemlərinin inteqrasiyası, xidmətlərin "bir pəncərə" prinsipi ilə təqdim olunması və məlumat mübadiləsinin vahid standartlar əsasında həyata keçirilməsi məhz bu sistem üzərindən təmin edilir.

SİMA biometrik rəqəmsal imzasının tətbiqi vətəndaşların onlayn identifikasiyasını tamamilə yeni səviyyəyə qaldırıb. Artıq 4 milyondan çox istifadəçi və 80-dən artıq təşkilat bu sistemdən istifadə edir. Yenilənmiş "Mygov" platforması isə 2,5 milyondan çox vətəndaşa xidmət göstərir. Burada şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, sürücülük vəsiqəsi və digər sənədlər daxil olmaqla 200-dən çox məlumat rəqəmsal formatda təqdim edilir.

Ən mühüm dəyişikliklərdən biri isə dövlət xidmətləri zamanı kağız sənədlərin təqdim olunması tələbinin əhəmiyyətli dərəcədə azaldılmasıdır. Artıq vətəndaşlar əksər sənədlərini müxtəlif dövlət qurumlarına fiziki formada təqdim etmədən rəqəmsal mühitdə xidmət ala bilirlər.

Bu gün təhsil, səhiyyə, məşğulluq, sosial təminat, nəqliyyat, əmlak və digər sahələr üzrə 380-dən çox xidmət tam rəqəmsallaşdırılıb. Yaxın dövrdə daha 80 yeni xidmətin istifadəyə verilməsi planlaşdırılır. Bu dəyişikliklər dövlət-vətəndaş münasibətlərində yeni fəlsəfə formalaşdırır: vətəndaş dövlət qurumlarını deyil, dövlət xidmətləri vətəndaşı tapır.

Süni intellekt dövrünə hazırlıq

Rəqəmsal inkişafın növbəti mərhələsi, təbii ki, süni intellekt texnologiyalarının geniş tətbiqidir. Azərbaycanın 2025-2028-ci illər üçün süni intellekt strategiyasının qəbul edilməsi ölkəmizin bu sahədə regional liderlik hədəfini və potensialını ortaya qoyur. Strategiya tədqiqatların inkişafını, innovativ həllərin tətbiqini və dövlət idarəçiliyində süni intellektdən istifadənin genişləndirilməsini nəzərdə tutur.

Gələcəkdə süni intellekt texnologiyalarının səhiyyədə diaqnostika, nəqliyyatda idarəetmə, kənd təsərrüfatında məhsuldarlığın artırılması və dövlət xidmətlərinin proaktiv təqdim olunması kimi istiqamətlərdə geniş istifadə ediləcəyi gözlənilir. Bu baxımdan, Azərbaycan artıq yalnız rəqəmsallaşan deyil, həm də intellektual texnologiyalara əsaslanan dövlət modelinə keçid mərhələsindədir.

Məlumdur ki, rəqəmsal dövlət təkcə dövlət proqramları hesabına qurulmur. Bunun üçün güclü innovasiya ekosistemi, startaplar, texnologiya şirkətləri və investisiya mexanizmləri də çox vacibdir. Son illərdə texnologiyalar parklarının rezidentləri üçün vergi və sosial güzəştlərin tətbiqi, innovasiya mərkəzlərinin yaradılması və vençur (investisiya yatıran) fondlarının formalaşdırılması mühüm addımlar hesab olunur.

Mütəxəssislərin fikirlərinə görə, mövcud potensial göstərir ki, Azərbaycan yaxın illər bu sahə üzrə üç əsas istiqamətdə regional liderliyini gücləndirəcək. Bu istiqamətlərdən birincisi elektron hökumət və dövlət texnologiyaları sahəsidir. "Mygov", SİMA və "Hökumət buludu" kimi platformalar artıq region üçün uğurlu model hesab olunur və gələcəkdə bu həllərin ixracı mümkündür. İkincisi, maliyyə texnologiyaları sektorudur. Güclü rəqəmsal identifikasiya sistemi və sürətlə inkişaf edən rəqəmsal bankçılıq ölkəni fintek (maliyyə texnologiyaları) mərkəzinə çevirmək potensialına malikdir. Üçüncüsü isə Azərbaycanın coğrafi mövqeyindən irəli gələn tranzit məlumat mərkəzi funksiyasıdır. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkə regional data trafiki və bulud xidmətləri bazarında mühüm oyunçuya çevrilə bilər.

Böyük hədəflər

Azərbaycanın qarşıdakı dövr üçün müəyyən etdiyi fəaliyyət istiqamətləri göstərir ki, ölkəmizdə rəqəmsal inkişafa artıq dövlət idarəçiliyinin, iqtisadi siyasətin və milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsi kimi baxılır. Ölkəmizdə rəqəmsal transformasiyanı daha yüksək mərhələyə daşımaq və Azərbaycanı regionun texnoloji liderlərindən birinə çevirmək hədəflənir.

Bu məqsədlər arasında xüsusi yer tutan məsələlərdən biri rəqəmsal idarəetmənin və iqtisadiyyatın rəqəmsal keçidinin sürətləndirilməsidir. Əslində, rəqəmsallaşma yalnız xidmətlərin elektron formaya keçirilməsindən daha çox, dövlətin və iqtisadiyyatın fəaliyyət məntiqinin dəyişdirilməsidir. Məlumat əsaslı qərarvermə, süni intellekt texnologiyalarının idarəetmədə tətbiqi, proaktiv dövlət xidmətləri və tam inteqrasiya olunmuş rəqəmsal platformalar gələcəyin idarəetmə modelini formalaşdırır. Bu baxımdan, Azərbaycan qarşısına yalnız texnoloji modernləşmə deyil, yeni idarəçilik fəlsəfəsinin qurulması vəzifəsini qoyur.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, rəqəmsal iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi dövlət deyil, innovativ biznes mühiti, startaplar və texnologiya şirkətləridir. Buna görə də innovasiyaların maliyyələşdirilməsi, vençur kapitalı bazarının inkişafı, universitet-sənaye əməkdaşlığının genişləndirilməsi və yeni texnologiyaların kommersiyalaşdırılması Azərbaycanın rəqabət qabiliyyətinin artırılması baxımından strateji əhəmiyyət daşıyır.

Müasir texnologiyalar dövründə insan kapitalının ən vacib sərvət hesab olunduğunu xüsusi qeyd etməyə, fikrimizcə, ehtiyac yoxdur. Süni intellekt, kibertəhlükəsizlik, proqram təminatı mühəndisliyi və məlumat analitikası kimi sahələr üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması Azərbaycanın da rəqəmsal gələcəyinin əsas təminatlarından biridir. Eyni zamanda xaricdə çalışan peşəkarların ölkəyə qayıdışının təşviq edilməsi və beynəlxalq texnoloji istedadların cəlb olunması rəqəmsal iqtisadiyyatın inkişafına mühüm təkan verəcək.

Dövlət informasiya sistemlərinin genişlənməsi, elektron xidmətlərin sayının artması və məlumatların rəqəmsal mühitdə saxlanılması kibertəhlükəsizlik məsələlərini milli təhlükəsizlik səviyyəsinə yüksəldir. Buna görə də qabaqcıl data mərkəzlərinin qurulması, "Hökumət buludu"nun genişləndirilməsi, milli kibertəhlükəsizlik imkanlarının gücləndirilməsi və kritik informasiya infrastrukturunun qorunması bu gün Azərbaycan dövlətinin qarşıya qoyduğu əsas vəzifələrdəndir.

Elmi tədqiqatların təşviqi və onların nəticələrinin kommersiyalaşdırılmasının sürətləndirilməsi də burada xüsusi yer tutur. Bu məsələ ölkənin yalnız texnologiya istehlakçısı deyil, həm də texnologiya yaradan dövlətə çevrilməsi baxımından böyük əhəmiyyət daşıyır. Elmi ideyanın laboratoriyadan bazara qədər keçdiyi yolun qısaldılması, tədqiqat institutları ilə biznes sektoru arasında əməkdaşlığın gücləndirilməsi və innovativ məhsulların bazara çıxarılması milli iqtisadiyyatın texnoloji əsaslar üzərində inkişafını təmin edəcək. Eyni zamanda ölkə üzrə rəqəmsal inkişafın vahid arxitektura əsasında həyata keçirilməsi dövlət idarəçiliyində parçalanmanın qarşısını alacaq. Ayrı-ayrı qurumların müstəqil informasiya sistemləri yaratdığı dövrdən fərqli olaraq, yeni yanaşma vahid standartlar, inteqrasiya olunmuş məlumat bazaları və ortaq rəqəmsal platformalar üzərində qurulmuş idarəetmə modelini nəzərdə tutur. Bu isə həm resursların daha səmərəli istifadəsinə, həm də vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinə imkan verir.

Bütün bunlarla yanaşı, müasir texnologiyaların istehsalı və tətbiqi sahəsində dövlət dəstəyinin artırılması Azərbaycanın texnoloji suverenliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qlobal rəqabətin getdikcə texnologiyalar ətrafında formalaşdığı bir dövrdə yerli texnoloji həllərin yaradılması, milli proqram məhsullarının inkişaf etdirilməsi və yüksək texnologiyalar sektorunun genişləndirilməsi ölkənin iqtisadi müstəqilliyinin yeni təminatlarından biridir.

Yeni nəsil dövlət idarəçiliyi mexanizmi

Azərbaycanın son illər rəqəmsal dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər ölkənin inkişaf tarixində yeni mərhələ açıb. Fiber-optik infrastrukturun qurulması, elektron hökumət xidmətlərinin genişləndirilməsi, rəqəmsal identifikasiya sisteminin yaradılması, süni intellekt strategiyasının qəbul edilməsi və innovasiya ekosisteminin formalaşdırılması Azərbaycanın gələcək inkişaf modelinin əsas konturlarını müəyyənləşdirir.

Bu gün artıq söhbət sadəcə xidmətlərin elektronlaşdırılmasından getmir. Məqsəd vətəndaş mərkəzli, məlumat əsaslı qərarlar qəbul edən, süni intellekt imkanlarından istifadə edən, təhlükəsiz və çevik idarəetmə sisteminə malik yeni nəsil dövlət idarəçiliyi mexanizmi qurmaqdır.

Rəqəmsal Azərbaycan ideyası məhz bu məqsədə xidmət edir. Qarşıdakı illər bu istiqamətdə atılacaq addımlar ölkənin yalnız regionda deyil, daha geniş coğrafiyada rəqəmsal transformasiya nümunəsinə çevrilməsini təmin edəcək.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Uşaqların sosial şəbəkə platformalarında qeydiyyatı qanunvericiliyə uyğun tənzimlənəcək

Bəşərriyyət yarandığından yaşadığımız müasir dövrə kimi informasiya heç vaxt bugünkü qədər sürətlə yayılmayıb. Bir zamanlar kitabların, qəzetlərin və televiziya ekranlarının daşıdığı məlumat yükünü indi cibimizdə gəzdirdiyimiz kiçik bir smartfon, yaxud istifadəmizdə olan müasir kompüterlər həyata keçirir. İnternet və sosial şəbəkələr sərhədləri aradan qaldıraraq dünyanı bir düymənin məsafəsinə gətirib. Sözsüz ki, bunun yaxşı tərəfi ilə yanaşı, pis tərəfləri də var.

Əgər dünənin uşaqları məhəllələrdə, məktəb həyətlərində və kitabxanalarda formalaşırdısa, bu günün uşaqları rəqəmsal dünyada böyüyürlər. Onlar sosial şəbəkələrdə ünsiyyət qurur, məlumat əldə edir, əylənir, öyrənir və həyatlarını bu platformalar vasitəsilə paylaşırlar. Məhz buna görə də rəqəmsal məkan artıq sadəcə texnologiya məsələsi deyil, milli təhlükəsizlikdən tutmuş ailə institutuna qədər bir çox sahəni əhatə edən mühüm ictimai məsələdir.

Təəssüf ki, sosial media platformaları geniş imkanları ilə yanaşı, eyni zamanda ciddi risklər və arzuolunmaz hadisələrlə müşahidə olunur. Son illər dünyanın müxtəlif ölkələrində uşaqların kibertəzyiqə məruz qalması, təhlükəli çağırışların qurbanına çevrilməsi, onlayn oyun və sosial şəbəkə asılılığı səbəbindən psixoloji problemlər yaşaması ilə bağlı yüzlərlə fakt qeydə alınıb. Bəzən bu hallar ailə faciələrinə, hətta insan həyatının itirilməsi ilə nəticələnən hadisələrə səbəb olur.

Müasir dövrdə valideynlərin ən böyük narahatlıqlarından biri də məhz övladlarını görünməyən, lakin hər an onların qarşısına çıxa bilən rəqəmsal təhlükələrdən necə qorumaları düşündürür. Məhz bu baxımdan Milli Məclisdə müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara dəyişiklikləri nəzərdə tutan qanun layihəsi xüsusi aktuallıq kəsb edir.

Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında və ictimai dinləmələrdə müzakirə olunan bu sənəd, əslində, dövrün tələblərindən yaranan mühüm hüquqi təşəbbüsdür. Layihənin əsas məqsədi uşaqların rəqəmsal mühitdə hüquqlarının daha etibarlı qorunmasını təmin etmək, onların zərərli informasiya axınının təsirindən müdafiəsini gücləndirmək və sosial şəbəkələrin fəaliyyətində məsuliyyət mexanizmlərini təkmilləşdirməkdir.

Bu məqamda qeyd edək ki, məsələnin aktuallığını beynəlxalq statistika da təsdiqləyir. Dünya Səhiyyə Təşkilatının məlumatlarına görə, yeniyetmələrin təxminən 35 faizi gün ərzində 5 saatdan artıq vaxtını smartfon və rəqəmsal platformalarda keçirir. Təsadüfi deyil ki, təşkilat hələ 2019-cu ildə oyun asılılığını rəsmi xəstəliklər siyahısına daxil edib. Fikrimizcə, bu faktın özü problemin miqyasını göstərmək üçün kifayətdir.

Ölkəmizdə aparılan araşdırmalar da oxşar mənzərə ortaya qoyur: 10-17 yaş arasında olan uşaqların əksəriyyəti smartfon istifadəçisidir və onların əhəmiyyətli hissəsi hər gün sosial şəbəkələrdən istifadə edir. Bu isə o deməkdir ki, uşaqların formalaşmasına təsir göstərən əsas mühitlərdən biri artıq rəqəmsal platformalardır.

Qanun layihəsinin mühüm yeniliklərindən biri sosial şəbəkələrdə fərdi hesabların açılması üçün minimum rəqəmsal yetkinlik yaşının müəyyənləşdirilməsidir. Layihəyə əsasən, 16 yaşadək uşaqların sosial şəbəkələrdə müstəqil hesab açması məhdudlaşdırılır. 16-18 yaşarası yeniyetmələr isə valideyn razılığı əsasında sosial platformalarda qeydiyyatdan keçə biləcəklər.

Bu yanaşmanın mahiyyəti uşaqları texnologiyadan uzaqlaşdırmaq deyil, əksinə, onların rəqəmsal mühitdən təhlükəsiz istifadə etmələrinə şərait yaratmaqdır. Çünki müasir dünyada internetdən tamamilə uzaq qalmaq mümkün olmadığı kimi, nəzarətsiz istifadə də ciddi problemlərə yol açа bilər.

Layihədə diqqətçəkən məqamlardan biri də sosial platforma provayderlərinin məsuliyyətinin artırılmasıdır. Yaşın yoxlanılması üçün bank kartı, mobil nömrə və digər texniki təsdiq mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, uşaqların şəxsi məlumatlarının qorunması, onların məlumatlarının üçüncü şəxslərə ötürülməsinin qarşısının alınması istiqamətində də əlavə hüquqi təminatlar yaradılır.

Əslində, burada söhbət yalnız sosial şəbəkələrdən getmir. Məsələ daha genişdir - rəqəmsal mühitdə uşaqlar kibertəzyiq, onlayn təqib, dezinformasiya, zorakılıq təbliğatı, təhlükəli çağırışlar, psixoloji manipulyasiya və müxtəlif asılılıq yaradan məzmunlarla qarşılaşa bilirlər. Bu təsirlər isə uşaqların emosional vəziyyətinə, təhsilinə, sosial münasibətlərinə və hətta fiziki sağlamlığına mənfi təsir göstərir. Məhz buna görə də dünyanın bir çox inkişaf etmiş ölkəsində uşaqların rəqəmsal təhlükəsizliyi artıq dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Azərbaycanda da bu sahədə həyata keçirilən islahatlar qlobal çağırışlara uyğun formalaşdırılır.

Ölkəmizdə uşaqların müdafiəsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri də uşaqların sağlam və təhlükəsiz mühitdə böyüməsinin təmin edilməsidir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və həyata keçirdiyi sosial-humanitar layihələr də bu sahəyə xüsusi diqqətin göstəricisidir.

Bir məqama da diqqət çəkək: qəbul ediləcək qanunlar nə qədər mükəmməl olsa da, problemin həlli yalnız hüquqi mexanizmlərlə məhdudlaşmır. Burada ailənin, məktəbin, müəllimlərin, psixoloqların və bütövlükdə cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. Uşağın ilk rəqəmsal təhlükəsizlik müəllimi valideyn, ilk maarifləndiricisi isə ailə olmalıdır.

Nəzərə alaq ki, qarşımızda duran əsas vəzifə uşaqları texnologiyadan yox, texnologiyanın təhlükələrindən qorumaqdır. Çünki dünyanın gələcəyi rəqəmsal texnologiyadan asılı olacaq. Bu dünyada uğur qazanmaq üçün uşaqlar texnologiyalardan istifadə etməyi bacarmalı, eyni zamanda onun risklərini də dərk etməlidirlər.

Milli Məclisdə müzakirə olunan qanun layihəsi məhz bu məqsədə xidmət edir. Sənəd uşaqların zərərli mühitdən, kibertəhdidlərdən, onlayn asılılıqdan, psixoloji manipulyasiyalardan və digər təhlükələrdən qorunmasına yönəlmiş müasir hüquqi mexanizmlərin formalaşdırılmasına imkan yaradır. Ən əsası isə bu təşəbbüs gələcəyimiz olan uşaqların hüquqlarının qorunmasına xidmət edir. Çünki sağlam cəmiyyət sağlam ailədən, sağlam ailə isə sağlam düşüncəli və təhlükəsiz mühitdə böyüyən uşaqlardan başlayır. Uşaqların rəqəmsal təhlükəsizliyinə yönələn hər bir addım Azərbaycanın gələcəyinə qoyulan ən dəyərli sərmayədir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Qarabağda bərqərar olan ədalət

Tarix bəzən xalqları uzunmüddətli sınaqlar, ədalətsizliklər və ağır itkilərlə dolu keşməkeşli yollarla sınağa çəkir. Lakin onun ən dəyişməz qanunu budur ki, gec-tez haqq yerini tapır, tarixi ədalət bərpa olunur. Azərbaycan xalqının son ikiəsrlik tarixi, xüsusilə də ötən əsrin sonlarında üzləşdiyi Qarabağ düyünü və bu düyünün polad iradə ilə açılması məhz bu bəşəri qanunun ən parlaq nümunəsidir.

Bu gün Azərbaycan xalqı 2020-ci ilin noyabrında qazanılan tarixi Zəfərin qürurunu yaşayır. 44 günlük Vətən müharibəsi və ardınca gələn antiterror tədbirləri ilə torpaqlarımızda separatizmin kökü birdəfəlik kəsilib, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam təmin olunub, Konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə minib. Üçrəngli bayrağımızın Xankəndidə, Şuşada, Xocalıda və digər azad olunmuş torpaqlarımızda qürurla dalğalanması dövlətimizin hərbi və diplomatik qüdrətinin ən bariz sübutudur. İndi isə Qarabağ və Şərqi Zəngəzur nəhəng quruculuq meydanına çevrilərək Böyük qayıdışla öz doğma sakinlərinə qucaq açır.

Bir sözlə, Cənubi Qafqazda Azərbaycanın səyləri ilə tamamilə yeni, ədalətli reallıq bərqərar olub.

Kütləvi qırğınlar, deportasiyalar, işğal...

Ancaq Azərbaycanı bugünkü qüdrətli günlərinə yetirmək üçün xalqımız çox ağrı-acılı dönəmlərdən keçib.

Hər şey sovet hakimiyyətinin ilk illərində, heç bir coğrafi, tarixi və siyasi əsası olmayan qərarla başladı. 1923-cü ildə Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması sözün əsl mənasında regiona saatlı bomba yerləşdirmək kimi bir şey idi. O dövrdə mərkəzi Xankəndi olan bu bölgədə ermənilərin sayı süni şəkildə artırıldı, yerli idarəetməyə rəhbərlik onlara tapşırıldı və azərbaycanlıların öz doğma yurdlarından sıxışdırılmasına başlanıldı.

Onilliklər boyu gizli-gizli alovlandırılan bu separatizm ocağı, ötən əsrin 80-ci illərinin sonunda yenidən aktivləşdi. Ermənı şovinistləri regionun guya sosial-iqtisadi baxımdan geridə qaldığı yalanını ortaya ataraq DQMV-nin Ermənistana birləşdirilməsi iddiasını qaldırdılar.

20 fevral 1988-ci ildə erməni millətçiləri DQMV-nin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq qərar qəbul etmişdilər ki, bu vilayət Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir. Separatçıların qəbul etdiyi bədnam "birləşmə" qərarına etiraz edən dinc Əsgəran və Ağdam sakinlərinə atəş açılması, iki azərbaycanlı gəncin qətlə yetirilməsi ilə proses kütləvi qırğınlar, deportasiyalar və açıq işğal mərhələsinə qədəm qoydu.

Münaqişənin alovlandığı illərdə Azərbaycanın ozamankı siyasi rəhbərliyinin qətiyyətsizliyi, milli təəssübkeşlikdən uzaq olması, siyasi iradə nümayiş etdirə bilməməsi, eyni zamanda bütün ümidlərini sovet rəhbərliyinə bağlaması hadisələrin gedişatını daha da ağırlaşdırırdı.

1990-cı il iyunun 11-də Azərbaycan SSR Ali Soveti Ermənistanla sərhəd xətti boyu fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, xüsusi milis dəstələri yaradıldı. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Odlar Yurdu Azərbaycan" elektron toplusunda bu barədə yer alan məlumatda bildirilir ki, bu zaman SSRİ silahlı qüvvələri SSRİ-nin saxlanmasına münasibət haqqında 17 mart ümumittifaq referendumunda iştirak etməyən Ermənistana "dərs vermək", habelə Azərbaycandakı kommunist rejimini dəstəkləmək üçün erməni silahlı dəstələrinə köməyi xeyli azaltdı. 1991-ci il mayın əvvəllərində Çaykənd və Martunaşendə pasport rejimi yoxlanıldı və hərbiləşdirilmiş erməni birləşmələri tərk-silah edildi. İyulun əvvəllərində Goranboy rayonunun Azadkənd, Sarısu, Manaşid, Erkeç və Buzluq kəndlərində erməni silahlı quldurlarının dayaq məntəqələri dağıdıldı. Erməni əhali öz razılığı ilə bu bölgələrdən köçüb getdi. Lakin ermənilər sərhəd zonalarındakı Azərbaycan kəndlərinə basqınlardan əl çəkmirdilər.

Qeyd olunur ki, 1991-ci il avqustun 18-22-də erməni hərbi hissələri rusların köməyi ilə, vertolyotlar və ağır texnikadan istifadə etməklə Qazax rayonuna hücuma keçdi. Bağanıs-Ayrım kəndi dağıdıldı, dinc əhaliyə işgəncələr verildi. Erməni hərbi hissələrinin Zəngilan, Qubadlı və Laçın rayonu kəndlərinə də hücumları ara vermirdi. Bu vaxt Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə erməni quldurları basqın etmişdilər. Əhali mərdliklə müqavimət göstərmiş, 20 erməni qulduru məhv edilmişdi. Burada olan sovet ordusu dəstəsi, demək olar ki, seyrçi mövqe tutmuşdu. Təkcə ukraynalı Oleq Babak əliyalın azərbaycanlılara kömək etmiş və qəhrəmanlıqla həlak olmuşdu. Ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

"Can üstündə olan imperiya milli münaqişəni daha da dərinləşdirdi. Lakin onun iflası gündən-günə yaxınlaşırdı. İmperiyanın pəncəsindən xilas olmağa çalışan xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyanatın qəbul olunması ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. Bu münaqişə Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan açıq-aşkar təcavüzkar müharibəyə çevrildi", - deyə, məlumat verilir.

Bir sözlə, Ali Sovetin 11 iyun qərarı bəzi kəndlərdə erməni quldurlarının tərk-silah edilməsi ilə nəticələnsə də, Moskvanın birmənalı şəkildə Ermənistanı müdafiə etməsi, həmçinin respublikamızın siyasi rəhbərliyinin qətiyyətsizliyi səbəbindən kağız üzərində qalır.

Vəziyyət isə getdikcə daha da pisləşir, iqtidara gələn AXC-Müsavat cütlüyü ölkəni çıxılmaz böhrana sürükləyir. Bir yandan işğal faktı ilə üz-üzə qalan Azərbaycan digər yandan daxili çəkişmələrin, hakimiyyət davasının aparıldığı, qardaş qanının axıdıldığı meydana çevrilirdi. Faktiki olaraq vətəndaş müharibəsinin astanasında olan Azərbaycanın dövlətçiliyi sual altına düşürdü.

O illərdə buraxılan səhvlər, göstərilən qətiyyətsizliklər torpaqlarımızın 20 faizinin işğalı və 1 milyon soydaşımızın qaçqın-köçkün həyatı yaşaması ilə nəticələnmişdi.

Xilaskarlıq missiyası gələcək qələbələrin təməlini qoydu

Xalqla iqtidarın bir ola bilmədiyi, vətəndaş müharibəsinin qapını kəsdiyi məqamda xalqın harayına səs verən Ulu Öndər Heydər Əliyev ölkəni xilaskarlıq missiyası ilə böyük bir fəlakətdən qurtardı və gələcək qələbələrin təməlini qoydu.

Ümummilli Lider Heydər Əliyev kağız üzərindəki müstəqilliyi real dövlətçiliyə çevirərək, sarsılmış cəmiyyətdə milli birlik hissini bərpa etdi. O çətin dövrdə daxili xaosun cilovlanmasından tutmuş qlobal neft strategiyasına qədər atılan hər bir addım parçalanma təhlükəsi yaşayan bir ölkənin qurtuluşu oldu.

Ulu Öndərin siyasi xəttini layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edərək gücünə-güc qatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci il Vətən müharibəsində ərazilərimizi işğaldan azad etdi. 2023-cü ildə həyata keçirilən və cəmi 23 saat çəkən antiterror tədbirləri ilə ölkəmizin suverenliyi tam təmin olundu .

Nümayiş etdirilən siyasi iradə və qətiyyətin nəticəsi olaraq 24 may 2024-cü ildə Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri bir güllə belə atılmadan Azərbaycana qaytarıldı.

Tarixin bəxtimizə yazdığı acı səhifələr, xalqımızın çəkdiyi müsibətlər artıq geridə qalıb. Azərbaycanın tarixə, haqqa və ədalətə dayanan böyük Zəfəri erməni şovinizminin planlarını alt-üst etdi. Sərhədlərini addım-addım bərpa edən, bayrağını vətənin hər bir guşəsində dalğalandıran Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, xalq-dövlət-ordu birliyi ədaləti əbədi bərpa etməyə qadirdir. Azərbaycanın bərpa etdiyi ədalət həm də regionun əbədi sülh təminatıdır.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Ermənistanın qarşısında duran geosiyasi çağırışlar

Bunlar Azərbaycanla sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və yeni konstitusiyanın qəbuludur

Ermənistanda formalaşan yeni siyasi mənzərə göstərir ki, Nikol Paşinyan hakimiyyətini qoruyub saxlamağa nail olsa da, onun əvvəlki dövrlərdə malik olduğu siyasi manevr imkanları müəyyən qədər məhdudlaşıb. Hökuməti formalaşdırmaq üçün kifayət qədər mandatın əldə edilməsi Paşinyanın siyasi mövqeyini qorusa da, konstitusion çoxluğa nail olmaması Ermənistanın daxili siyasi proseslərinə, xarici siyasət kursuna və xüsusilə də Azərbaycanla sülh gündəliyinə birbaşa təsir göstərə biləcək bəzi reallıqlar yaradıb.

Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ qəzetimizə açıqlamasında deyib ki, Samvel Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" və Robert Koçaryanın "Ermənistan" bloku hökumətin fəaliyyətini tam iflic etmək imkanına malik olmasalar da, onun strateji qərarlarının qəbulunu çətinləşdirə, siyasi gündəliyə təsir göstərə, xüsusilə xarici siyasət məsələlərində Paşinyanın manevr imkanlarını məhdudlaşdıra bilərlər.

E.Mirzəbəyli vurğulayıb ki, İrəvanın yaxın illərdə seçəcəyi ən real strategiya geosiyasi balanslaşdırma siyasəti olacaq: "Ermənistan həm Brüsseldən və Vaşinqtondan siyasi və maliyyə dəstəyi almağa, həm də Moskva ilə iqtisadi əlaqələri qorumağa çalışacaq. Başqa sözlə, Ermənistanın yaxın perspektivdə tam Qərbyönlü kursdan daha çox Qərblə Rusiya arasında manevr siyasəti yürütməsi ehtimalı yüksəkdir. Seçkilərin diqqətçəkən siyasi nəticəsi hakim partiyanın konstitusion çoxluğa nail ola bilməməsidir. Ermənistanın qarşısında duran əsas siyasi və geosiyasi çağırışlar, yəni Azərbaycanla sülh müqaviləsinin imzalanması, regional kommunikasiyaların açılması, dövlət idarəçiliyi sisteminin yenidən təşkili və xüsusilə də yeni konstitusiyanın qəbulu fonunda bu məsələ tamamilə fərqli məna kəsb edir".

Deputat bildirib ki, son illərdə Nikol Paşinyan dəfələrlə Ermənistanın yeni konstitusiyaya ehtiyac duyduğunu bəyan edib. Bu yanaşma yalnız daxili siyasi islahatlarla bağlı deyil. Məlumdur ki, Ermənistan konstitusiyasının preambulasında yer alan və Müstəqillik Bəyannaməsinə istinad edən müddəalar Azərbaycana qarşı ərazi iddialarının hüquqi bazası kimi qiymətləndirilir. Məhz buna görə də konstitusiya dəyişikliyi məsələsi artıq Ermənistanın daxili hüquqi proseduru çərçivəsindən çıxaraq, regional təhlükəsizlik və sülh gündəliyinin əsas elementlərindən birinə çevrilib. Mövcud nəticələr göstərir ki, Paşinyan hökuməti formalaşdırmaq üçün kifayət qədər siyasi dəstək qazansa da, konstitusiyanı istədiyi formada dəyişdirmək üçün zəruri olan institusional üstünlüyə malik deyil. Əslində, seçkilərdən sonra yaranan yeni siyasi reallıq Ermənistanın gələcək inkişaf trayektoriyasının məhz bu məsələ ətrafında müəyyənləşəcəyini göstərir. "Ermənistan konstitusiyasının 202-ci maddəsi konstitusiya dəyişikliklərinin hüquqi mexanizmini kifayət qədər aydın şəkildə müəyyən edir. Həmin maddəyə əsasən, konstitusiyanın əsas bölmələri, o cümlədən dövlət quruluşunun əsaslarını müəyyən edən birinci, ikinci və üçüncü fəsillər, habelə digər fundamental müddəalar yalnız referendum yolu ilə dəyişdirilə bilər. Belə təşəbbüs hüququ parlament üzvlərinin ən azı üçdəbirinə, hökumətə və ya seçki hüququna malik 200 min vətəndaşa məxsusdur. Lakin burada çox vaxt diqqətdən yayınan mühüm hüquqi detal var. Referendumun keçirilməsi üçün təkcə təşəbbüs hüququnun olması kifayət etmir. Layihənin referenduma çıxarılması barədə qərar parlament tərəfindən ümumi deputat sayının azı üçdəiki səsi ilə qəbul edilməlidir. Başqa sözlə, Paşinyanın qarşılaşdığı əsas problem referendum keçirmək deyil, referenduma aparan siyasi-hüquqi yolu açmaqdır. Bəzən belə fikirlər səsləndirilir ki, 200 min seçicinin təşəbbüsü parlament maneəsini aradan qaldıra bilər. Lakin konstitusiyanın mətni bunun əksini göstərir. Hətta tələb olunan sayda imza toplansa belə, referendumun keçirilməsi üçün parlamentin üçdəiki səs çoxluğu ilə qərar qəbul etməsi zərurəti qalır. Deməli, vətəndaş təşəbbüsü referendumun avtomatik elan olunması demək deyil", - deyə deputat əlavə edib.

Konstitusiyanın 202-ci maddəsinin üçüncü hissəsinin müəyyən siyasi manevr imkanları yaratdığını deyən E.Mirzəbəyli bildirib ki, fundamental müddəalara aid olmayan dəyişikliklər üçün parlament layihəni üçdəiki səs çoxluğu ilə qəbul etmədikdə, həmin layihə deputatların azı beşdəüç hissəsinin dəstəyi ilə referenduma çıxarıla bilər. Nəzəri baxımdan bu norma hakimiyyət üçün əlavə alət rolunu oynaya bilər. Lakin Azərbaycana qarşı ərazi iddialarına zəmin yaradan müddəalar Ermənistan konstitusiyasının fundamental hissələrinə aid olduğundan, bu mexanizmin praktik əhəmiyyəti kifayət qədər məhdud görünür. Beləliklə, Paşinyan bir neçə məsələdə siyasi seçim qarşısında qalır. Bunlardan birincisi, müxalifətlə siyasi konsensusun əldə edilməsidir. Lakin seçki kampaniyası dövründə müşahidə olunan sərt qarşıdurma və Ermənistan cəmiyyətindəki dərin siyasi qütbləşmə fonunda belə bir konsensusun əldə olunması asan görünmür. İkinci istiqamət yeni konstitusiya ilə bağlı geniş ictimai səfərbərlik yaratmaqdan ibarət ola bilər. Bu halda 200 min imza hüquqi mexanizmdən daha çox siyasi təzyiq alətinə çevrilə bilər. Hakimiyyət uğurlu kampaniya apararsa, parlamentdə çatışmayan səsləri ictimai rəyin təzyiqi hesabına kompensasiya edə bilər.

E.Mirzəbəyli qeyd edib ki, ən real görünən ssenari Ermənistanda konstitusiya islahatlarının Azərbaycanla sülh sazişi, Türkiyə ilə normallaşma prosesi və iqtisadi inkişaf perspektivləri ilə əlaqələndirilməsidir: "Əgər Ermənistan cəmiyyətinə yeni konstitusiyanın regional inteqrasiya, investisiya axını, nəqliyyat-kommunikasiya layihələri və uzunmüddətli təhlükəsizlik üçün zəruri olduğu izah edilərsə, bu istiqamətdə müqavimətin müəyyən qədər zəifləməsi mümkündür. Amma bu prosesin özünün də hüquqi nəticələrə gətirib çıxaracağı ehtimalı çox azdır. Bütün hallarda seçkilərin nəticələri göstərir ki, Paşinyan siyasi hakimiyyətini qoruyub saxlayıb, lakin konstitusion üstünlük əldə edə bilməyib. Bu isə o deməkdir ki, qarşıdakı dövrdə Ermənistan siyasətinin əsas mübarizə xətti hökumətin formalaşdırılması deyil, dövlətin gələcək siyasi və hüquqi istiqamətinin necə müəyyənləşdirilməsi ətrafında cərəyan etməsidir. Bu xüsusda yekun sülh sazişinin taleyi də böyük ölçüdə məhz konstitusiya məsələsinin həllindən asılı olacaq. Çünki Ermənistanın Azərbaycanla münasibətlərdə uzunmüddətli və dayanıqlı sülhə nail olması yalnız siyasi bəyanatlarla deyil, həm də öz hüquqi sistemində mövcud olan ərazi iddialarını və həmin iddialara zəmin yaradan müddəaları aradan qaldırmaq iradəsi nümayiş etdirməsindən keçir".

Deputat bildirib ki, sülh sazişinin imzalanması birbaşa regional kommunikasiyaların açılması perspektivlərinə də təsir göstərə bilər. Əgər sülh müqaviləsi imzalanmırsa və ya bu proses qeyri-müəyyən müddətə uzanırsa, regionda genişmiqyaslı nəqliyyat və iqtisadi layihələrin reallaşması da ciddi şəkildə ləngiyəcək. Xüsusilə Zəngəzur dəhlizi (TRIPP) və digər regional nəqliyyat marşrutlarının tam fəaliyyətə başlaması üçün tərəflər arasında siyasi etimadın formalaşması zəruridir. Belə etimad olmadan kommunikasiyaların açılması yalnız texniki deyil, həm də siyasi baxımdan problemli olaraq qalacaq. Bu vəziyyət ilk növbədə Ermənistanın özünə mənfi təsir göstərə bilər. Çünki Ermənistanın əsas geoiqtisadi problemi regional bağlantıların məhdud olmasıdır. Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı qalması logistika xərclərini artırır, investisiya cəlbediciliyini azaldır, tranzit imkanlarını məhdudlaşdırır və enerji təhlükəsizliyini zəiflədir. Belə şəraitdə Ermənistan, əsasən, Gürcüstan üzərindən keçən marşrutlardan və Rusiya bazarından asılı qalmağa davam edəcək. Bu isə ölkənin həm iqtisadi inkişaf tempini məhdudlaşdıracaq, həm də enerji və ticarət sahələrində mövcud asılılıqları aradan qaldırmasına imkan verməyəcək.

E.Mirzəbəyli deyib ki, yeni parlament konfiqurasiyası göstərir ki, Nikol Paşinyan, artıq əvvəlki illərdə olduğu kimi, sərbəst siyasi manevr imkanlarına malik olmayacaq. Əgər növbədənkənar parlament seçkilərinə zərurət yaranmazsa, Ermənistan Avropa İttifaqı istiqamətində səylərini davam etdirməyə çalışacaq. Lakin iqtisadi reallıqlar onu Rusiya ilə əlaqələri qorumağa məcbur edəcək. Azərbaycanla yekun sülh sazişinin perspektivi də məhz Ermənistanın üzərinə götürdüyü öhdəliklərə əməl etməsindən, ərazi iddialarından və həmin iddialara zəmin yaradan hüquqi-siyasi mexanizmlərdən birdəfəlik imtina etməsi ilə bağlıdır. Bunun alternativi yoxdur.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Uşaqların zərərli informasiyadan qorunmasına yönəlmiş normativ-hüquqi akt layihəsi müzakirə olunub

İyunun 10-da "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsinin ictimai müzakirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə müvafiq dövlət qurumları, media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlər iştirak ediblər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, İnzibati Xətalar Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda, eləcə də digər aidiyyəti normativ-hüquqi aktlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi, uşaqların virtual məkanda təhlükəsizliyinin təmin edilməsinə, bütövlükdə isə milli rəqəmsal ekosistemin hüquqi tənzimlənməsinə yönəlib. O vurğulayıb ki, həm universal etik normalara, həm milli maraqlarımıza, həm də qabaqcıl beynəlxalq hüquqi standartlara tam cavab verən bu dəyişikliklər milli informasiya mühitinin sağlamlaşdırılmasına və gələcək nəsillərin qorunmasına mühüm töhfə verəcək.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə müasir informasiya mühitində baş verən transformasiyalar, rəqəmsal platformaların cəmiyyət həyatına təsiri və bu sahədə hüquqi tənzimləmələrin əhəmiyyəti barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, informasiya təhlükəsizliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının qorunması və sağlam informasiya mühitinin formalaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov rəqəmsallaşmanın sürətlə genişləndiyi şəraitdə informasiya təhlükəsizliyi məsələlərinin aktuallığından bəhs edib. Bildirib ki, rəqəmsal mühitdə istifadəçilərin hüquqlarının qorunması, məsuliyyətli davranışın təşviqi və təhlükəsiz informasiya ekosisteminin yaradılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.

Milli Kibertəhlükəsizlik Agentliyinin sektor müdiri Həvva Hüseynli təqdimatla çıxış edərək qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verib. Vurğulanıb ki, təklif olunan yeniliklər informasiya mühitində mövcud çağırışlara uyğun hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və rəqəmsal təhlükəsizliyin daha effektiv təmin olunmasına xidmət edir.

Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdir müavini Seymur Məmmədov rəqəmsal mühitin uşaqlar üçün mühüm inkişaf imkanları yaratmaqla yanaşı, real həyatları üçün qlobal miqyasda ciddi təhlükə və risklərlə də müşayiət olunduğunu bildirib. Qeyd olunub ki, uşaqların təhlükəsiz informasiya mühitində inkişafının təmin edilməsi, onların zərərli məzmundan müdafiəsi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi xüsusi aktuallıq daşıyır.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu təhsil mühitində informasiya təhlükəsizliyi üzrə biliklərin artırılmasının, müəllim və şagirdlərdə rəqəmsal risklərə qarşı düzgün davranış vərdişlərinin formalaşdırılmasının, media və informasiya savadlılığının inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, xüsusilə gənclər arasında tənqidi düşüncə bacarıqlarının formalaşdırılması, təhlükəsiz rəqəmsal davranış vərdişlərinin aşılanması və maarifləndirici fəaliyyətlərin genişləndirilməsi bu istiqamətdə mühüm rol oynayır.

Səhiyyə Nazirliyinin sektor müdiri Aynurə Zeynalova informasiya mühitinin uşaqların və yeniyetmələrin psixoloji rifahına təsirindən bəhs edib. Vurğulanıb ki, zərərli məzmunun mümkün təsirlərinin azaldılması, profilaktik tədbirlərin gücləndirilməsi və valideynlərin məlumatlandırılması sağlam inkişaf mühitinin formalaşdırılması baxımından vacibdir.

Ədliyyə Nazirliyinin Sosial normativ aktlar idarəsinin rəisi Aytən Məmmədova çıxışında qanun layihəsinin hüquqi aspektlərinə toxunub. Qeyd edib ki, təklif olunan dəyişikliklər hüquqi tənzimləmələrin təkmilləşdirilməsinə, tətbiq mexanizmlərinin daha səmərəli qurulmasına və müasir informasiya mühitində yaranan çağırışlara adekvat cavab verilməsinə yönəlib.

İctimai müzakirə zamanı iştirakçılar tərəfindən qanun layihəsində nəzərdə tutulan dəyişikliklər ətrafında geniş və fəal fikir mübadiləsi aparılıb, müxtəlif yanaşmalar və mövqelər səsləndirilib, təkliflər irəli sürülüb. Layihənin ayrı-ayrı müddəaları üzrə aktiv diskussiyalar keçirilib, iştirakçıları maraqlandıran məsələlər ətrafında ətraflı mülahizələr təqdim olunub, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində konstruktiv yanaşmalar irəli sürülüb. Eyni zamanda dəyişikliklərin mümkün təsirləri, tətbiqi mexanizmləri və gözlənilən nəticələri ilə bağlı baxışlar bölüşülərək peşəkar və səmərəli dialoq mühiti formalaşıb.

Cənubi Qafqazda yeni dövr

Azərbaycanın sülh, təhlükəsizlik və regional bağlantılar strategiyası bölgənin inkişafının qarantıdır

Cənubi Qafqaz regionu tarixinin ən dinamik, həlledici və köklü transformasiya dövrünə qədəm qoyur. Uzun illər boyu münaqişələr, qeyri-sabitlik və geosiyasi qarşıdurmalar meydanı kimi xarakterizə olunan bu coğrafiyada indi tamamilə yeni reallıqlar bərqərar olur. Danılmaz faktdır ki, yeni dövrün memarı, regional gündəliyi müəyyən edən və gələcək inkişafın strateji xəttini cızan tərəf məhz Azərbaycandır.

Son illərdə Bakının atdığı qətiyyətli addımlar təkcə ölkəmizin öz ərazi bütövlüyünü təmin etməklə məhdudlaşmadı, həm də bütün regionun təhlükəsizlik arxitekturasını yenidən formalaşdırdı. Bu yeni reallığın bariz geosiyasi təzahürlərindən biri kimi iyunun 8-də Türkiyə, Azərbaycan və Gürcüstan xarici işlər nazirlərinin 10-cu Üçtərəfli Görüşü çərçivəsində imzalanmış İstanbul Bəyannaməsini göstərmək olar. Bu bəyannamə üç ölkə arasında dərin dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimad ənənələrinə əsaslanan mükəmməl münasibətləri özündə ehtiva edir.

Sənəddə regional və qlobal çağırışları dəf etmək üçün güclü üçtərəfli əməkdaşlığın əhəmiyyəti vurğulandı, bölgənin potensialının tam reallaşdırılması məqsədilə regional sülh, təhlükəsizlik və sabitliyin əhəmiyyəti qeyd edildi. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan boru kəməri və "Cənub qaz dəhlizi"nin regional və Avropanın enerji təhlükəsizliyinə strateji töhfəsi yüksək qiymətləndirildi. Orta dəhliz daxil olmaqla, ölkələrin tranzit potensialının gücləndirilməsi istiqamətində atılan mühüm addımlara diqqət çəkildi.

İstanbul Bəyannaməsi regional əməkdaşlığın və təhlükəsizliyin yeni hüdudlarını müəyyən edən strateji yol xəritəsidir. Eyni zamanda bu bəyannamə Azərbaycanın regionda artan çəkisini və onun təşəbbüslərinin beynəlxalq səviyyədə, xüsusilə də qardaş Türkiyə ilə müttəfiqlik müstəvisində necə güclü dəstək qazandığını nümayiş etdirir.

Regionda yaranmış yeni şərtləri anlamaq və qəbul etmək məcburiyyəti Ermənistanın daxili siyasi mənzərəsində də özünü aydın şəkildə büruzə verir. İyunun 7-də Ermənistanda keçirilən seçkilərin nəticələri və cəmiyyətin siyasi seçimi, əslində, revanşist ideyaların iflası və Azərbaycanın diktə etdiyi reallıqların qəbul edilməsi deməkdir. Erməni seçiciləri müharibə və xəyali "böyük Ermənistan" şüarları ilə çıxış edən radikal qüvvələrə "yox" deməklə, Bakının formalaşdırdığı yeni nizamla hesablaşmağın yeganə xilas yolu olduğunu təsdiqlədilər. Ermənistan xalqı, nəhayət, dərk etmək məcburiyyətində qalıb ki, ölkənin regional təcriddən xilası və qonşularla normal münasibətlər qurması üçün yeganə şansı Azərbaycanın sülh gündəliyi ilə hərəkət etməkdir.

Yeni dövrün vacib komponentlərindən biri regional təhlükəsizliyin tamamilə yerli və etibarlı mexanizmlər üzərində qurulmasıdır. Azərbaycan sübut etdi ki, Cənubi Qafqaz bölgəsinin təhlükəsizliyi kənar güclərin maraq oyunlarına alət edilməməlidir. Regional sabitlik ancaq qarşılıqlı suverenliyə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında təmin oluna bilər. Məhz Bakının təklif etdiyi sülh modeli regionu hərbi poliqon olmaqdan çıxararaq uzunmüddətli əmin-amanlıq bölgəsinə çevirməyi hədəfləyir. Bu yanaşma region dövlətlərinin daxili işlərinə "humanitar" bəhanələrlə müdaxilə etmək istəyən kənar dairələrin planlarını iflasa uğradır.

Uzun illər boyu davam edən böhranlar göstərdi ki, üçüncü tərəflərin bölgəyə gətirdiyi həll variantları sülhə yox, birbaşa gərginliyin uzanmasına xidmət edir. İndi Cənubi Qafqazın qarşısında tamamilə yeni idarəetmə və iqtisadi inteqrasiya imkanları açılır. Bu kontekstdə, regionun tranzit potensialının tam gücü ilə işə düşməsi və yeni nəqliyyat dəhlizlərinin təhlükəsizliyi birbaşa olaraq sülh modelinin uğurundan asılıdır. Təsadüfi deyil ki, Bakının formalaşdırdığı yeni reallıq həm də regionda dayanıqlı rifahın və iqtisadi tərəqqinin əsas təminatçısı rolunu oynayır. Beləliklə, kənar diktələrdən azad olan Cənubi Qafqaz, nəhayət ki, öz daxili resursları və dinc qonşuluq siyasəti sayəsində qlobal arenada etibarlı tərəfdaşa çevrilmək şansı qazanır.

Təhlükəsizliklə yanaşı, regional bağlantıların, yəni nəqliyyat və logistika xətlərinin açılması da yeni dövrün əsas hərəkətverici qüvvəsidir. Orta dəhlizin və digər kommunikasiyaların aktivləşməsi Cənubi Qafqazı qlobal ticarətin mərkəzinə çevirir. Zəngəzur dəhlizinin (TRİPP) açılması həm Şərqlə Qərbi, həm də Şimalla Cənubu birləşdirən strateji mərkəz kimi regionun iqtisadi potensialını dəfələrlə artıracaq. Bu bağlantılar təkcə iqtisadi mənfəət gətirmir, həm də region dövlətlərini bir-birindən asılı və maraqlı edərək müharibə risklərini minimuma endirir. İnteqrasiya olunmuş nəqliyyat şəbəkəsi regiona daxil olan investisiyaların həcmini artıracaq və hər bir ölkənin rifahına töhfə verəcək.

Cənubi Qafqaz artıq köhnə status-kvonun, dondurulmuş münaqişələrin təzyiqi altında qalan bölgə deyil. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, güclü diplomatiyası və uzaqgörən siyasəti sayəsində regionda tərəqqi, əməkdaşlıq və sülh prinsiplərinə söykənən tamamilə yeni eranın təməli qoyulub. Dövlətimizin başçısının nümayiş etdirdiyi sarsılmaz iradə kənar güclərin bölgəyə dair riskli təşəbbüslərini iflasa uğratdı, regionun gələcəyini yerli xalqların maraqlarına uyğun formalaşdırdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prinsipial xarici siyasət kursu regionu geopolitik rəqabət meydanı olmaqdan çıxararaq dinc-yanaşı yaşamaq modelinin tətbiq edildiyi təhlükəsiz bir məkana çevirdi. Bu qətiyyətli addımlar region ölkələri üçün kənar təsirlərdən uzaq, müstəqil inkişaf və iqtisadi tərəqqi imkanları açdı.

Rəsmi Bakının irəli sürdüyü regional bağlantılar strategiyası təkcə ənənəvi yolların açılması ilə məhdudlaşmır, həm də tamamilə yeni istiqamətləri və rəqəmsal hədəfləri əhatə edir. Müasir mərhələdə Azərbaycan nəqliyyat layihələrini ekoloji təmiz və texnoloji infrastrukturla sintez edir. Xəzər dənizindən Avropaya qədər uzanacaq "yaşıl enerji" kabeli və regionu qlobal internet şəbəkəsinə bağlayan fiber-optik magistrallar bunun bariz nümunəsidir. Bu addımlar bağlantı anlayışını fiziki yollardan çıxararaq rəqəmsal və ekoloji müstəviyə daşıyır.

Eyni zamanda Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat dəhlizində həlledici rol oynayaraq bölgəni fərqli coğrafi ox üzrə birləşdirir. Bağlantıların iqtisadi səmərəsini artırmaq üçün Ələt Azad İqtisadi Zonası kimi yeni logistik qovşaqlar və azad ticarət modelləri formalaşdırılır. Bu isə qonşu dövlətlər üçün tranzit keçid olmaqla yanaşı, birbaşa istehsal və birgə biznes imkanları da deməkdir. Bu qlobal şəbəkəyə azad olunmuş ərazilərimiz də sürətlə inteqrasiya edilir. Qarabağ və Şərqi Zəngəzurda inşa olunan beynəlxalq hava limanları, çoxşaxəli magistrallar və dəmir yolları bütövlükdə regional nəqliyyat sisteminin sürətini və səmərəliliyini artırır.

Azərbaycanın təklif etdiyi yeni model regionda qarşılıqlı faydaya əsaslanan iqtisadi bağlılıq yaradır. Layihələrdə iştirak edən hər bir dövlətin eyni dərəcədə mənfəət qazanması Cənubi Qafqazda münaqişə risklərini minimuma endirən ən etibarlı təhlükəsizlik faktorudur. İndi region xalqlarının qarşısında duran əsas vəzifə Azərbaycanın yaratdığı bu tarixi imkanlardan istifadə edərək, ortaq və təhlükəsiz gələcəyi birlikdə inşa etməkdir.

Nəticə etibarilə, kənar diktələrdən və süni gərginliklərdən azad olan Cənubi Qafqaz Bakının liderliyi ilə sabitlik və stateji tərəfdaşlıq mərkəzinə çevrilməkdədir. Məhz Bakının formalaşdırdığı bu yeni reallıq bütövlükdə regionun sülh və rifahının qarantıdır.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Milli Məclisdə kitabxana sisteminin aktual məsələlərinə həsr olunmuş ictimai müzakirə keçirilib

İyunun 10-da Milli Məclisin Mədəniyyət komitəsində "Kitabxana sisteminin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda ictimai müzakirə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri giriş sözü ilə açan Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu mövzunun aktuallığını vurğulayıb. O, kitabxana işinin təkmilləşdirilməsi ilə bağlı təşəbbüslərin əhəmiyyətini, bu istiqamətdə geniş ictimai müzakirələrin aparılmasının vacibliyini diqqətə çatdırıb, tədbir iştirakçılarını fikir və təkliflərini fəal şəkildə bölüşməyə çağırıb.

Komitə sədri bildirib ki, XXI əsrin tələbləri fonunda informasiya resursları, texnoloji imkanlar və xidmət modelləri əhəmiyyətli dərəcədə dəyişib, yeni imkanlar yaranıb. Bununla belə, kitabxanalar cəmiyyətin maariflənməsində, biliklərin qorunub saxlanılmasında və yayılmasında mühüm rol oynamaqda davam edir, öz aktuallığını və əhəmiyyətini qoruyub saxlayır.

Kitabxana sahəsində islahatların həyata keçirilməsinin vacibliyini qeyd edən Polad Bülbüloğlu deyib ki, kitabxana sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi, kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi və xidmətlərin keyfiyyətinin artırılması bu sahədə qarşıda duran əsas vəzifələrdəndir.

Komitə sədri kitabxana xidmətlərinin müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməsi, onların əlçatanlığının, səmərəliliyinin və keyfiyyətinin artırılması, bu sahədə fəaliyyət göstərən kadr potensialının gücləndirilməsi və müasir idarəetmə mexanizmlərinin tətbiqi ilə bağlı fikirlərini bölüşüb.

İclasda çıxış edən mədəniyyət naziri Adil Kərimli Mədəniyyət Nazirliyi ilə Milli Məclis arasında təşkil olunan növbəti belə tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, dialoq və fikir mübadiləsi əsasında qurulan bu cür platformalar mövcud problemlərin müəyyənləşdirilməsi, onların həlli yollarının birgə müzakirə olunması, eləcə də həyata keçirilən işlərin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Nazir ictimai müzakirələrin dövlət qurumları, mütəxəssislər və ictimaiyyət arasında əməkdaşlığın gücləndirilməsinə, daha əsaslandırılmış qərarların qəbuluna və sahənin inkişafına töhfə verdiyini bildirib. O, ictimai müzakirənin keçirilməsinə göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Dövlət başçısının Mədəniyyət Nazirliyi qarşısında qoyduğu əsas vəzifələrdən birinin mədəniyyət sahəsində, o cümlədən kitabxana sistemində fəaliyyətin təkmilləşdirilməsi olduğunu diqqətə çatdıran nazir bildirib ki, məqsəd kitabxanaların fəaliyyətini müasir tələblərə uyğunlaşdırmaq, onların idarəetmə və xidmət modelini daha səmərəli, dayanıqlı və keyfiyyətyönümlü əsaslar üzərində qurmaqdır.

Adil Kərimli qeyd edib ki, kitabxana sistemi milli bilik mənbələrinin formalaşdığı və qorunduğu mühüm təsisat olduğundan burada aparılacaq islahatlar ciddi araşdırma və əsaslandırılmış yanaşma tələb edir. Nazir Mədəniyyət Nazirliyi sistemindəki kitabxanaların mövcud vəziyyətindən söz açaraq, bu sahədə aparılan monitorinqlərin və təhlillərin nəticələrini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, kitabxanaların kompleks qiymətləndirilməsi nəticəsində toplanmış geniş məlumat bazası əsasında sahənin mövcud vəziyyəti hərtərəfli təhlil olunub. Nazir deyib ki, aparılan təhlillər əsasında kitabxana sisteminin gələcək inkişafı ilə bağlı konseptual yanaşma formalaşdırılıb.

Bu, kitabxana sisteminin yenilənməsini, beynəlxalq təcrübə və standartlara uyğun müasir kitabxana modelinin tətbiqini, rəqəmsal xidmətlərin genişləndirilməsini və vətəndaşların kitabxana resurslarına çıxış imkanlarının artırılmasını nəzərdə tutur.

Nazir bildirib ki, kitabxanalar dövlət üçün prioritet mədəniyyət təsisatlarından biridir və cəmiyyətin bilik və informasiya mədəniyyətinin formalaşmasında əvəzsiz rol oynayır. O qeyd edib ki, Mədəniyyət Nazirliyi tərəfindən kitabxana sahəsinin inkişafı üzrə beynəlxalq təcrübə və müasir standartlar nəzərə alınmaqla yeni fəaliyyət modeli hazırlanıb. Bu modelin əsas məqsədi kitabxana xidmətlərinin əlçatanlığını artırmaq və əhalinin daha geniş təbəqələrinin informasiya resurslarından istifadəsinə şərait yaratmaqdır. Adil Kərimli vurğulayıb ki, qarşıya qoyulan əsas hədəflərdən biri ölkə üzrə kitabxana xidmətləri ilə əhatə olunmanı 95 faizə çatdırmaqdır.

Sonra mədəniyyət nazirinin müavini Fərid Cəfərov kitabxana sahəsində nəzərdə tutulan islahatlara dair slaydlarla müşayiət olunan təqdimatla çıxış edib. O, Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış kitabxana sisteminin optimallaşdırılması və müasir standartlara uyğunlaşdırılması proqramının əsas istiqamətləri, tətbiq edilən beynəlxalq təcrübə və müasir idarəetmə yanaşmaları barədə məlumat verib.

Nazir müavini yeni modelin prioritetlərini təqdim edərək bildirib ki, islahatlar çərçivəsində kitabxana xidmətlərinin keyfiyyətinin və əlçatanlığının artırılması, kadr potensialının gücləndirilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, kitab fondlarının yenilənməsi və rəqəmsal transformasiyanın sürətləndirilməsi əsas hədəflər sırasındadır.

Sonra Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov çıxış ediblər.

Çıxışlarda kitabxanalardan istifadənin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, müasir oxu zallarının yaradılması və bu sahədə rəqəmsal xidmətlərin genişləndirilməsi istiqamətində görülən işlərdən danışılıb. Bildirilib ki, kitabxana infrastrukturunun inkişaf etdirilməsi oxucuların kitabxanaların informasiya resurslarına daha rahat çıxış əldə etməsinə şərait yaradır.

Bununla yanaşı, çıxışlarda xarici dillərdə nəşr olunan elmi və bədii ədəbiyyatın Azərbaycan dilinə tərcüməsinin genişləndirilməsinin, kitabxanaların elektron informasiya bazalarının zənginləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd olunub ki, zəngin və əlçatan kitabxana-informasiya resursları ölkənin elmi potensialının gücləndirilməsinə, təhsil səviyyəsinin yüksəldilməsinə mühüm töhfə verir.

Erkən yaşlardan oxu vərdişlərinin formalaşdırılmasının, uşaqlarda mütaliə mədəniyyətinin inkişaf etdirilməsinin gələcəkdə intellektual və savadlı nəslin yetişməsinə xidmət etdiyi bildirilib.

Çıxışlarda kitabxana fəaliyyətinin rəqəmsallaşdırılmasının, elektron kataloqların və elektron kitab fondlarının genişləndirilməsinin, kitabxanaların vahid elektron sistem üzərindən inteqrasiyasının əhəmiyyətindən də bəhs olunub. Vurğulanıb ki, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi kitabxana xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, oxucuların istənilən vaxt və məkandan informasiya resurslarına çıxış imkanlarını da genişləndirir.

Eyni zamanda vurğulanıb ki, müasir dövrdə kitabxanaların fəaliyyəti ənənəvi xidmətlərlə məhdudlaşmamalı, rəqəmsal transformasiya proseslərinə uyğun şəkildə inkişaf etdirilməlidir. Bu baxımdan süni intellekt texnologiyalarının və internet resurslarının imkanlarından geniş istifadə olunması xüsusi əhəmiyyət kəsb edir.

Mövzu ətrafında aparılan müzakirələrdə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, deputatlar Elnarə Akimova, Novruzəli Aslanov, Hikmət Məmmədov, Şahin Seyidzadə, Tənzilə Rüstəmxanlı, Əlibala Məhərrəmzadə, eləcə də Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin üzvü Sənan Tapdıqov, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və Azərbaycan Respublikası Prezident Kitabxanasının direktoru Afət Abbasova çıxış edərək fikirlərini və təkliflərini səsləndiriblər.

Müzakirələr zamanı mədəniyyət naziri Adil Kərimli səsləndirilən fikirlərə münasibət bildirib və suallara cavab verib.

Tədbirdə Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, Mədəniyyət komitəsinin üzvləri Aqil Abbasov, Ülviyyə Həmzəyeva, Milli Məclis Aparatı rəhbərinin müavini Şahin Həsənov, Milli Məclis Aparatının əməkdaşları, aidiyyəti dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

"Azərbaycan"

Orta dəhliz regiona yeni investisiyaların cəlb olunmasına imkan yaradacaq

Cənubi Qafqazın gələcək inkişafı baxımından Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Mövcud geosiyasi gərginliklər fonunda ölkələr alternativ ticarət marşrutları axtarırlar və bu marşrutlar arasında Orta dəhliz getdikcə daha böyük əhəmiyyət qazanır. Bu dəhlizin səmərəli fəaliyyət göstərməsi üçün regional əməkdaşlıq son dərəcə vacibdir.

Bunu AZƏRTAC-a açıqlamasında Topçubaşov Mərkəzinin Cənubi Qafqaz siyasəti və beynəlxalq siyasi iqtisadiyyat sahələri üzrə niderlandlı təcrübəçisi Maurits Rodenberq deyib.

O bildirib ki, Orta dəhliz Cənubi Qafqazda infrastrukturun inkişafı üçün yeni investisiyaların cəlb olunmasına da imkan yaradacaq: "Bundan əlavə, Azərbaycan neft və qaz hasilatında mühüm rol oynadığı üçün Gürcüstan və Türkiyə Avropaya çıxış qapısı funksiyasını yerinə yetirə bilər. Bu isə Azərbaycanın Avropa ölkələri ilə ticarət əlaqələrinin və enerji ixracının artmasına töhfə verəcək.

Ümumilikdə, Azərbaycan, Türkiyə və Gürcüstan əməkdaşlığı Cənubi Qafqazın qlobal ticarət və enerji şəbəkələrinə daha sıx inteqrasiya olunmasına və regionun Avrasiya ticarəti üçün Rusiya və İrandan yan keçən alternativ tranzit marşrutuna çevrilməsinə imkan verə bilər".

WUF13 və şəhərsalmada Azərbaycan nümunəsi

Son onillik ərzində Azərbaycan beynəlxalq tədbirlərin təşkili və keçirilməsi sahəsində mühüm təcrübə qazanmış ölkələrdən birinə çevrilmişdir. Xüsusilə Bakı müxtəlif siyasi, iqtisadi, idman, humanitar və ekoloji forumların keçirildiyi qlobal platforma kimi tanınmağa başlamışdır. Bu proses ölkənin beynəlxalq nüfuzunun artmasına, turizm potensialının genişlənməsinə və Azərbaycanın etibarlı tərəfdaş imicinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycanın uğurları təsadüfi xarakter daşımır - onların təməlində sosial-iqtisadi inkişaf strategiyası dayanır. Bu strategiyanın əsasını isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən insan kapitalının inkişafına yönəlmiş siyasət təşkil edir. Hələ 15 oktyabr 2003-cü il prezident seçkiləri zamanı bölgələrdə seçicilərlə keçirilən görüşlərdə ölkənin müxtəlif ərazilərində məhsuldar qüvvələrin yerləşdirilməsində mövcud olan disproporsiyalar problem kimi önə çəkilirdi. Bunun nəticəsi olaraq andiçmə mərasimində cənab İlham Əliyev neft gəlirlərinin insan kapitalına çevrilməsini prioritet vəzifə kimi müəyyənləşdirmiş və Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının hazırlanmasını mühüm strateji istiqamət kimi irəli sürmüşdür.

Prezidentin təşəbbüsü ilə 2004-2023-cü illəri əhatə edən və hər biri beşillik dövr üçün nəzərdə tutulan məqsədli 4 dövlət proqramı hazırlanaraq həyata keçirilmişdir. İqtisadiyyat Nazirliyinin rəhbərliyi altında ölkənin elmi-tədqiqat müəssisələri, layihə institutları və digər aidiyyəti qurumların mütəxəssislərinin iştirakı ilə hazırlanmış bu proqramların əsas məqsədi regionların tarazlı sosial-iqtisadi inkişafını təmin etmək olmuşdur.

Dövlət proqramlarının icrası çərçivəsində 2004-2023-cü illərdə ölkə üzrə əsas kapitala yönəldilən investisiyaların 60,5 faizi qeyri-neft sektorunun inkişafına sərf edilmişdir. Neft sektoru istisna olmaqla, əsas kapitala yatırılan investisiyaların 90 faizdən çoxu regionlarda istifadə olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ayrılmış güzəştli kreditlərin 80 faizi də regionların payına düşmüşdür. Bu vəsaitlər hesabına yüzlərlə müasir istehsal müəssisəsi və infrastruktur obyekti yaradılmış, sənaye və kənd təsərrüfatı müəssisələri yenidən qurulmuş, nəticədə on minlərlə yeni iş yeri açılmışdır.

Eyni zamanda regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm layihələr həyata keçirilmişdir. Müasir xəstəxanalar, məktəblər, məktəbəqədər təhsil müəssisələri, Olimpiya İdman kompleksləri, avtomobil yolları və "ASAN" xidmət mərkəzləri istifadəyə verilmiş, şəhərsalma konsepsiyasına uyğun yeni yaşayış binaları və əhalinin gündəlik tələbatlarını qarşılayan mədəni və xidmət obyektləri inşa edilmişdir.

Sosial rifah sahəsində əldə olunan nailiyyətlər bu siyasətin səmərəsini aydın nümayiş etdirir. Məsələn, Naxçıvan Muxtar Respublikasında bir nəfərə düşən yaşayış sahəsi 2005-ci ildəki 8,9 kvadratmetrdən 2010-cu ildə 24,7, 2018-ci ildə isə 28,9 kvadratmetrə yüksəlmişdir ki, bu da ölkə üzrə orta göstəricidən 1,6 dəfə çoxdur. Oxşar müsbət dinamika digər regionlarda da müşahidə olunmuşdur.

Makroiqtisadi göstəricilər də ölkənin inkişaf tempini təsdiqləyir. Ölkə üzrə ÜDM istehsalı 2025-ci ildə 2004-cü illə müqayisədə 15 dəfə artmış, adambaşına düşən mənzil sahəsi 1,7, orta aylıq nominal əməkhaqqı 10,6 dəfə yüksəlmişdir. İqtisadiyyat Nazirliyinin məlumatlarına əsasən, regionların sosial-iqtisadi inkişafına dair 4 dövlət proqramının icrasına bütün maliyyə mənbələri hesabına 100 milyard manatdan çox vəsait yönəldilmişdir. Bu vəsait hesabına regionların tarazlı sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində ölkədə güclü iqtisadi baza formalaşmış, sosial rifah yüksəlmiş və dövlətin strateji potensialı daha da artmışdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər nəticəsində doğma Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edilmiş, 2023-cü ilin 19-20 sentyabrında isə ölkəmizin dövlət suverenliyi tam bərpa olunmuşdur. Xalqımız əsrlər boyu arzuladığı tarixi ədalətə qovuşmuşdur. Möhtəşəm qələbəmiz Azərbaycanın güclü iqtisadiyyatını, qüdrətli ordusunu, gənclərin yüksək vətənpərvərlik ruhunu, uzaqgörən xarici siyasətini və xalq-dövlət birliyini bütün dünyaya nümayiş etdirmişdir. Bununla həm də Azərbaycan iqtisadiyyatının inkişafı yeni mərhələyə qədəm qoymuşdur.

2015-2026-cı illər ərzində Azərbaycanda keçirilən beynəlxalq tədbirlər göstərir ki, ölkəmiz təkcə regional deyil, eyni zamanda qlobal miqyasda mühüm tədbirlərin keçirilməsi üçün etibarlı tərəfdaş kimi qəbul olunur. İdman yarışlarından iqlim diplomatiyasına, humanitar forumlardan şəhərsalma və iqtisadi əməkdaşlıq platformalarına qədər müxtəlif sahələri əhatə edən bu tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirmiş, Bakını qlobal dialoq və əməkdaşlıq məkanına çevirmişdir.

2015-ci ildə Bakı tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarına evsahibliyi etmişdir. 2016-cı ildən etibarən Bakı "Formula-1" yarışlarının keçirildiyi mühüm məkanlardan birinə çevrilmiş, eyni zamanda Dünya Şahmat Olimpiadasına evsahibliyi etmişdir. 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunları müsəlman ölkələri arasında əməkdaşlıq və həmrəyliyin gücləndirilməsinə xidmət edən mühüm beynəlxalq tədbir olmuşdur. BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin II Bakı Sammiti kimi beynəlxalq tədbirlər sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq, beynəlxalq əməkdaşlıq məsələlərinin müzakirəsinə şərait yaratmışdır. Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü Azərbaycanın evsahibliyi etdiyi ən böyük siyasi sammitlərdən biri olmuşdur. Zirvə görüşündə 120-yə yaxın ölkə və beynəlxalq təşkilat iştirak etmiş, Azərbaycan 2019-2023-cü illərdə təşkilata sədrlik etmişdir.

2024-cü il noyabrın 11-22-də Bakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının da (COP29) ev sahibi olmuşdur. Dünyanın ən nüfuzlu qlobal iqlim platformalarından biri hesab edilən COP29-da yüzlərlə dövlət nümayəndə heyəti, beynəlxalq təşkilatlar, maliyyə institutları, qeyri-hökumət təşkilatları və ekspertlər iştirak etmişlər. Forumun əsas məqsədi qlobal iqlim dəyişikliklərinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, Paris Sazişinin hədəflərinin həyata keçirilməsi və inkişaf etməkdə olan ölkələr üçün yeni iqlim maliyyələşdirilməsi mexanizmlərinin müəyyənləşdirilməsi olmuşdur.

COP29 eyni zamanda Azərbaycanın "yaşıl enerji", dayanıqlı inkişaf və ekoloji təhlükəsizlik sahələrində həyata keçirdiyi siyasətin beynəlxalq səviyyədə təqdimatı üçün mühüm platforma idi. Bu tədbirin yüksək səviyyədə təşkili ölkənin qlobal əhəmiyyətli tədbirlərə evsahibliyi etmək potensialını bir daha nümayiş etdirmiş və Azərbaycanın beynəlxalq etimadını daha da gücləndirmişdir. Bu baxımdan, COP29 təkcə iqlim gündəliyi ilə bağlı mühüm beynəlxalq hadisə deyil, həm də Azərbaycanın son illər evsahibliyi etdiyi böyükmiqyaslı beynəlxalq tədbirlər silsiləsinin zirvə nöqtələrindən biri olmuşdur. Məhz COP29-un uğurlu təşkili Azərbaycanın qlobal forumlar üçün etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmiş və 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Bakıda keçirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Azərbaycanın şəhərsalma və dayanıqlı məskunlaşma sahəsində beynəlxalq mövqeyinin güclənməsi

ardıcıl və məqsədyönlü fəaliyyətin nəticəsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən Nyu Yorkda yerləşən mənzil-qərargahında "Yeni Şəhər Gündəliyi" sənədinin icra vəziyyəti və şəhərsalma məsələləri üzrə keçirilən yüksəksəviyyəli iclasda iştirak etməsidir. 2022-ci il iyunun 28-də Varşavada keçirilən Ümumdünya Şəhərsalma Forumunun 11-ci sessiyası çərçivəsində isə

Anar Quliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti (onun tərkibində Azərbaycan Respublikası Prezidentinin Zəngilan və Şuşa rayonları üzrə xüsusi nümayəndələri də olmuşlar) ilə UN-Habitat rəhbərliyi arasında aparılan müzakirələr zamanı işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri təqdim edilmişdir. Azərbaycan tərəfi Qarabağ və Şərqi Zəngəzurda hazırlanmış baş planlar əsasında həyata keçirilən quruculuq işləri, "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyalarının tətbiqi barədə ətraflı məlumat vermişdir. UN-Habitat nümayəndələri bu layihələri yüksək qiymətləndirmiş və gələcək əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirmişlər.

Varşava görüşündən sonra Azərbaycan ilk dəfə olaraq 2022-ci ilin oktyabr ayında Ağdam və Bakıda Azərbaycan Milli Şəhərsalma Forumuna evsahibliyi etmişdir. Regionda ilk belə platforma hesab olunan forum şəhərsalma, dayanıqlı inkişaf, müasir yaşayış məskənlərinin formalaşdırılması və postmünaqişə dövründə şəhərlərin yenidən qurulması sahəsində beynəlxalq müzakirələrin aparıldığı mühüm tədbirə çevrilmişdir. Xüsusən Ağdam şəhərinin forum məkanlarından biri kimi seçilməsi Azərbaycanın azad edilmiş ərazilərdə həyata keçirdiyi yenidənqurma siyasətinin beynəlxalq ictimaiyyətə təqdim olunması baxımından böyük əhəmiyyət daşıyırdı.

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi nailiyyətlər və qazandığı təcrübə sonrakı illərdə də beynəlxalq platformalarda nümayiş etdirilmişdir. Bu baxımdan, 2024-cü ilin noyabr ayında Misirin paytaxtı Qahirədə keçirilən 12-ci Ümumdünya Şəhərsalma Forumu xüsusi əhəmiyyət kəsb etmişdir. Foruma həmçinin Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında, Şuşa rayonunda, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarındakı xüsusi nümayəndələri də qatılmışlar. Forum çərçivəsində təşkil olunan Azərbaycan pavilyonunda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, Böyük qayıdış proqramı, dayanıqlı şəhərsalma həlləri, mədəni irsin qorunması və "yaşıl inkişaf" strategiyası beynəlxalq iştirakçılara təqdim edilmişdir.

Beləliklə, Nyu Yorkda başlanan beynəlxalq dialoq, Varşavada UN-Habitat ilə qurulan əməkdaşlıq, Ağdamda təşkil olunan Milli Şəhərsalma Forumu və Qahirədə nümayiş etdirilən uğurlu təcrübə Azərbaycanın şəhərsalma sahəsində etibarlı və fəal tərəfdaş kimi qəbul edilməsinə zəmin yaratmışdır.

XIX əsrin sonlarından etibarən Bakıda neft sənayesinin mərkəzi olmuş "Qara şəhər" adlanan ərazi uzun müddət ekoloji çirklənməyə məruz qalmışdır. Aparılan genişmiqyaslı təmizləmə və yenidənqurma işləri nəticəsində həmin ərazi müasir yaşayış, biznes və ictimai məkanları özündə birləşdirən "Ağ şəhər"ə çevrilmişdir. Bu dəyişiklik şəhər mühitinin bərpası, sənaye irsinin transformasiyası və daha keyfiyyətli urban məkanların yaradılması nümunəsi kimi təqdim olunur.

Eyni zamanda Xəzər dənizinin sahilində yerləşən "Sea Breeze" layihəsi müasir yaşayış, turizm, istirahət və ictimai xidmət funksiyalarını birləşdirən yeni şəhərsalma modelini təmsil edir. Layihə sahilyanı inkişaf, müxtəlif funksiyalı məkanlar və yeni urban həyat tərzinin formalaşdırılması baxımından Azərbaycanın son illər həyata keçirdiyi irimiqyaslı şəhərsalma təşəbbüslərindən biridir. Belə böyük layihələr yalnız tikinti və daşınmaz əmlak deyil, həm də Azərbaycanın özünü regional miqyasda müasir, dayanıqlı və gələcəyə yönəlmiş şəhərsalma modeli kimi təqdim etməsinin praktik nümunələri hesab oluna bilər.

Məhz bu ardıcıl fəaliyyətin nəticəsi olaraq BMT-nin Məskunlaşma Proqramı tərəfindən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir. Qlobal şəhərsalma platforması olan bu forumla bağlı hazırlıq tədbirləri və çoxtərəfli tərəfdaşlıq əlaqələrinin həyata keçirilməsi üçün Prezident İlham Əliyev 25 aprel 2025-ci il tarixli sərəncamı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevi WUF13-ün Milli Koordinatoru təyin etmişdir. Sessiyanın yüksək səviyyədə təşkili və keçirilməsinin təmin edilməsi məqsədi ilə Prezidentin 5 iyun 2025-ci il tarixli sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır. Bu sərəncam WUF13-ün Azərbaycanda keçirilməsinin dövlət tərəfindən strateji prioritet kimi qiymətləndirildiyini və hazırlıq prosesinin mərkəzləşdirilmiş koordinasiya mexanizmi əsasında həyata keçirildiyini göstərir.

Təşkilat Komitəsi qısa müddət ərzində forumun təşkilati, texniki, logistika, təhlükəsizlik, beynəlxalq əməkdaşlıq və protokol məsələlərinin vahid idarəetmə çərçivəsində əlaqələndirilməsini təmin etmiş, müxtəlif dövlət qurumlarının və aidiyyəti təşkilatların fəaliyyətinin uzlaşdırılması, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın qurulması və forumun məzmun hissəsinin hazırlanması baxımından mühüm institusional baza formalaşdırmışdır. Bu, Azərbaycanın beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi sahəsində topladığı təcrübənin WUF13-ün təşkilində səmərəli tətbiq olunduğunu göstərir.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) əsas platformalarından biri olan bu forum bütün dünyada dayanıqlı şəhərsalma problemlərinin həllinə həsr olunmuş, açıq, inklüziv və yüksəksəviyyəli konfransdır. Azərbaycan WUF13-ün ev sahibi kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Sessiyanın əsas ünvanı olan Bakı Olimpiya Stadionu regionun ən böyük və müasir məkanlarından biridir və Ümumdünya Şəhərsalma Forumu kimi beynəlxalq tədbirlərin təşkili üçün lazımi miqyas, çeviklik və texniki imkanlara malikdir.

Forumun rəsmi açılış mərasimi iştirakçı ölkələrin və beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələrinin çıxışları ilə başlamış, tədbirin əsas mövzusu və prioritet istiqamətləri diqqətə çatdırılmışdır. Səsləndirilən çıxışlar forumun məqsədlərini, qlobal urbanizasiya gündəliyinin əsas çağırışlarını və gələcək əməkdaşlıq perspektivlərini müəyyənləşdirən mühüm mesajlarla yadda qalmışdır.

Tədbirin açılışında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev vurğulamışdır ki, ölkəmizin dayanıqlı şəhərsalma, tarixi-mədəni irsin qorunması və müasir urbanizasiya prinsiplərinin tətbiqi sahəsində əldə etdiyi təcrübə dövlətimizin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Prezident Bakının qədim irslə müasir memarlığın vəhdətini özündə birləşdirən şəhər modeli olduğunu qeyd etmiş, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərini müasir şəhərsalmanın mühüm nümunəsi kimi təqdim etmişdir. Dövlətimizin başçısı həmçinin şəhərlərin inkişafında tarixi irsin qorunması ilə innovativ yanaşmalar arasında tarazlığın vacibliyini vurğulamış, WUF13-ün beynəlxalq təcrübə mübadiləsi və gələcək əməkdaşlıq üçün mühüm platforma olduğunu bildirmişdir. Sonda cənab İlham Əliyev forumun uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edərək iştirakçılara Bakıda səmərəli fəaliyyət və xoş səfər arzulamışdır.

Bu fikirlərin davamı olaraq BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax çıxışında qlobal miqyasda şəhərlərin üzləşdiyi əsas problemlərə - iqlim dəyişikliyi, məcburi köçkünlük, mənzil çatışmazlığı və sosial bərabərsizlik məsələlərinə diqqət çəkmişdir. Forumun nəticələrinin qlobal mənzil böhranının həllinə və New Urban Agenda ilə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edən Rossbax tədbiri rəsmi olaraq açıq elan etmişdir.

"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan forum çərçivəsində qlobal mənzil böhranından çıxış yolları, qeyri-rəsmi yaşayış məskənlərinin transformasiya imkanları, mənzil və iqlim dəyişiklikləri arasındakı əlaqə, mənzil təminatının sosial və iqtisadi aspektləri, eləcə də böhranlardan sonra bərpa və yenidənqurma proseslərində mənzil təminatının rolu təhlil olunmuşdur. "Qlobal mənzil böhranı: Çıxış yolu nədir?", "Qeyri-rəsmi yaşayış məntəqələri və gecəqonduların transformasiyası", "Böhran sonrası şəhərlərin bərpası və yenidən qurulmasında mənzil təminatı", "İqlim və mənzil siyasəti arasındakı əlaqə", "Mənzil təminatının sosial və iqtisadi təsiri", " Mənzil təminatının maliyyələşdirilməsi üzrə yeni yanaşmalar" kimi mövzularda dialoqlar aparılmışdır.

Sessiyada səsləndirilən çıxışlar forumun əsas ideya və prioritetlərini müəyyənləşdirmişdir. İştirakçıların 55 faizindən çoxunu qadınların təşkil etdiyi forum çərçivəsində "Gender bərabərliyi və qadınların gücləndirilməsi üçün adekvat mənzil" mövzusunda "dəyirmi masa" keçirilmiş, qadınların mənzil və torpaq hüquqlarının gücləndirilməsinin müzakirəsi aparılmışdır. Eyni zamanda "Münaqişədən sonrakı şəhər yenidənqurması: Humanitar minatəmizləmənin kritik rolu" mövzusunda sessiyada postmünaqişə dövründə mina təhlükəsinin bərpa və yenidənqurma prosesinə təsiri, dayanıqlı şəhər inkişafı və əhalinin təhlükəsizliyinin təmin olunması məsələləri müzakirə olunmuşdur.

"Urbisiddən dirçəlişə: Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında dayanıqlı bərpa, məskunlaşma və inkişaf" mövzusunda panel müzakirəsində işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma prosesi, dayanıqlı məskunlaşma, müasir şəhərsalma yanaşmaları və postmünaqişə dövründə şəhər inkişafı məsələləri müzakirə olunmuş, regionda həyata keçirilən layihələrin "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun icra olunması, yeni yaşayış məntəqələrində dayanıqlı infrastrukturun qurulması, "yaşıl enerji" həllərinin tətbiqi, rəqəmsal idarəetmə sistemləri, sosial obyektlərin inşası və əhalinin rahat yaşayışının təmin edilməsi istiqamətində geniş tədbirlər görülməsi qeyd edilmişdir.

WUF13 çərçivəsində yerli xalqların hüquqları ilə bağlı keçirilmiş ilk tədbirdə - "Yerli xalqların hüquqları üzrə dəyirmi masa"da yerli xalqların bəşəriyyətin mədəni yaddaşını və tarixi irsini yaşadan əsas daşıyıcıları olduğu, onların hüquqlarının müdafiəsi təkcə hüquqi və siyasi deyil, həm də mənəvi və humanitar bir öhdəlik olması vurğulanmışdır. Urbanizasiya prosesləri heç bir halda yerli xalqların və etnik icmaların öz kimliyini, dilini və mədəni yaddaşını itirməsinə səbəb olmamalıdır, əksinə, şəhərlər müxtəlif etnik və dini icmaların özlərini təhlükəsiz və bərabərhüquqlu hiss etdikləri inklüziv məkana çevrilməlidir.

Sessiyanın son günü yekun mətbuat konfransı keçirilmiş, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri və WUF13-ün milli koordinatoru Anar Quliyev rəsmi bağlanış mərasimində çıxış etmişdir. Bildirmişdir ki, Azərbaycanın ilk dəfə evsahibliyi etdiyi bu mötəbər tədbir Bakını şəhərlərin gələcəyi, mənzil siyasəti, iqlim dayanıqlılığı və inklüziv inkişaf məsələlərinin müzakirə olunduğu beynəlxalq mərkəzə çevirdi. Onun sözlərinə görə, WUF13-ün Bakıda keçirilməsi təkcə region üçün deyil, həm də qlobal urbanizasiya gündəliyi baxımından mühüm hadisə kimi qiymətləndirilir.

WUF13 rekord nəticələr və diqqətçəkən məqamlarla yaddaşlarda qaldı. Qlobal şəhərsalma gündəliyinin inkişafı, tərəfdaşlıqların genişlənməsi və gələcək əməkdaşlıq imkanlarının gücləndirilməsi baxımından forum mühüm platforma rolunu oynadı. 6 gün davam edən tədbirdə ümumi iştirakçı sayı 176 ölkədən (o cümlədən ən azı 3 000 onlayn iştirakçı olmaqla) 58000 nəfəri ötmüşdür. 60 nəfəri Azərbaycandan olmaqla müxtəlif ölkələrdən 400-dən çox spiker forumda çıxış etmişdir. Bu göstəricilər forumun 24 illik tarixində WUF13-ün ən böyük sessiya kimi yadda qalmasına səbəb olmuşdur.

Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə olaraq ev sahibi olan ölkənin təşəbbüsü ilə təşkil edilən Liderlər Sammitində 27 dövlət və hökumət başçısı iştirak etmişdir. Forum çərçivəsində 150-dən çox nazir, 130-dan artıq şəhər başçısı, BMT Baş katibinin müavini və bir sıra yüksəksəviyyəli rəsmilər təmsil olunmuşlar. WUF13-ün əsas yenilikləri sırasında Bakı Urban Mükafatı, Biznes və İnnovasiya Hub-ı, WUF Akademiyası kampusu və Təcrübələr Hub-ı xüsusi yer tutmuşdur.

Forumun əsas nəticəsi isə "Bakı Fəaliyyətə Çağırış" (Baku Call to Action) sənədinin qəbul edilməsi olmuşdur. Sözügedən sənəd qlobal mənzil böhranının aradan qaldırılması və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi istiqamətində dövlətlərin, beynəlxalq təşkilatların, şəhərlərin, vətəndaş cəmiyyətinin və ekspertlərin ortaq baxışını əks etdirir. WUF13-ün yekun nəticələrinin və "Bakı Fəaliyyətə Çağırış" sənədinin 2026-cı ilin iyul ayında Nyu Yorkda keçiriləcək BMT Baş Assambleyasının Yeni Şəhər Gündəliyinə dair yüksəksəviyyəli aralıq qiymətləndirmə iclasına da mühüm töhfə verəcəyi gözlənilir.

Mayın 22-də Bakı Olimpiya Stadionunda WUF13-ün möhtəşəm bağlanış mərasimi keçirilmişdir. Rəsmi bağlanış mərasimi çərçivəsində Ümumdünya Şəhərsalma Forumunun sədrlik funksiyası Azərbaycandan Meksikaya təhvil verilmişdir. Növbəti WUF sessiyasının 2028-ci ildə Mexiko şəhərində keçirilməsi planlaşdırılır.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi Azərbaycan üçün mühüm beynəlxalq hadisələrdən biri oldu. Bu mötəbər forum ölkənin qlobal səviyyədə tanınmasına, şəhərsalma və dayanıqlı inkişaf sahəsində təcrübə mübadiləsinin genişlənməsinə əhəmiyyətli töhfə verdi. Dünyanın müxtəlif ölkələrindən minlərlə nümayəndənin Bakıya səfəri turizm, xidmət və nəqliyyat sektorlarında iqtisadi aktivliyi artırmaqla yanaşı, Azərbaycanın mədəniyyətini və inkişaf potensialını beynəlxalq ictimaiyyətə təqdim etmək imkanı yaratdı. Forum çərçivəsində müasir şəhər idarəçiliyi, "ağıllı şəhər" konsepsiyaları, ekoloji davamlıq və yaşayış məsələləri ətrafında aparılan müzakirələr ölkənin gələcək urbanizasiya siyasəti üçün yeni perspektivlər formalaşdırdı. Eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə müsabiqə yolu ilə həyata keçirdiyi yenidənqurma və məskunlaşma layihələrinin beynəlxalq auditoriyaya təqdim olunması ölkənin bu sahədə əldə etdiyi nailiyyətlərin tanınmasına şərait yaratdı. Bir sözlə, şəhərsalma məsələləri cəmiyyətin diqqət mərkəzində, şəhərsalma termini dillər əzbəri oldu.

Sonda qeyd edək ki, WUF13-ün yaratdığı irs yeni investisiya imkanlarının formalaşmasına, qabaqcıl beynəlxalq təcrübələrin ölkəyə transferinə, şəhər idarəçiliyinin təkmilləşdirilməsinə və Azərbaycan şəhərlərinin dayanıqlı inkişaf prinsipləri əsasında modernləşdirilməsinə xidmət edərək uzunmüddətli perspektivdə ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfələr verəcək.

Eldar NURİYEV,
Azərbaycan İnşaat və Memarlıq ETİ-nin şöbə müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 29 iyun (Bazar günü) tarixli 214-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Yekşənbə, 30 ramazanül-mübarək sənə 1337. 29 haziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.

BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;
2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

T-156

MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 32 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərcirahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və həvalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

10263

EYDİ-FİTR [ORUC BAYRAMI] MÜNASİBƏTİLƏ OPERA

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü
şəvvalül-mükərrəm
ayının 1-də 1337 sənəsi
(iyun ayının 30-da 1919-cu ildə) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Zülfüqar bəyin
AŞIQ QƏRİB operası.
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 8 tamamda.

SATILIR

4 dənə gözəl xalçalar. Kamenski küçə, nömrə 197, yuxarı mərtəbə, sağ zəng. Səhər saat 9-dan 12-dək, axşam saat 3-dən 7-dək.

10261

ŞÜHƏDA RUHUNA FATİHƏ RƏSMİ

Azərbaycan əhalisini canavarlar əlindən xilas, istiqlalımızı bərpa etmək üçün fövqəladə məşəqqətlə gələn türk əsakiri-mənsurəsindən [müzəffər türk ordusundan] şəhid düşən qəhrəmanlar olmuşdur. Bu böyük şəhidləri hər daim yad etmək və ruhlarına fatihə oxumaq biz azərbaycanlıların borcudur. Binaənileyh [ona görə], bu gün saat 4-də Cəmiyyəti-Xeyriyyə tərəfindən köhnə qəbiristanda şühəda [şəhidlər] ruhuna fatihə rəsmi [mərasimi] tərtib və icra ediləcəkdir. Qəbiristanda matəm əlaməti olaraq 4 qara bayraq, bir də Azərbaycan sancağı rəkz olunacaqdır [sancılacaq]. Cəmiyyəti-Xeyriyyə böylə böyük matəmdə bütün əhalini bilümum [hamılıqla] iştiraka dəvət edir.

Cəmiyyəti-Xeyriyyə
10262

QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

Məşixət [Şeyxülislamlıq] İdarəsindən elan

İşbu 1919 sənəsi həziran bazar ertəsi günü eydi-fitr [Oruc bayramı] günü olduğu münasibətilə həman gün səhər saat 9-da Təzəpir məscidində ayini-eyd (bayram mərasimi) icra ediləcəkdir. Ümumən camaati-müslimindən və xüsusən ümərayi-hökumət və əşrafi-məmurindən [hökumət idarələrinin başçılarından və məmurların böyüklərindən] bu məclisdə isbati-vücud [iştirak] etmələri rica və təmənna edilir.

Məşixət sədri şeyxülislam:
[Axund Ağa] Ağaəlizadə
Katib: Əfəndizadə

BARIŞIQ İMZA EDİLDİ

1914-cü ildə müharibənin zühurundan [meydana gəlməsindən] üç ay sonra eşidilməsi gözlənən bir xəbər bu gün 5 il sonra eşidilir:

Barışıq imza edildi!

Sülhi-ümumidən bəhs edə-edə hərbi ümumi atəşinə tutulan aləm, nəhayət, tarixin qeyd eyləmədiyi əzim [böyük] bir fəlakətdən sonra barışıq sözü eşidir.

Barışıq!

Dünyanı söndürəcək, hər yanda fərəhlər doğuracaq bir nida!

Fəqət bu nida dünyanın hər tərəfində böylə mi tələqqi edilir [qiymətləndirilir], yoxsa sevinən yalnız qaliblər, qalib məmləkətlərdir?

Məğlublara isə daha pək əski bir zamandan bəri söylənmişdir: Vay məğlublara!

Fəqət "sülh peyğəmbəri" Vilsonun 14 maddəlik əsasatı [prinsipləri] elan olunduğu zaman bəşəriyyət, bilxassə "Vay məğlublara!" düsturi-cahangiranəsi qarşısında tiril-tiril titrəyən insaniyyət bir az sakit olmuş, barışıq xəbərini rəna [gözəl] ümidlərlə gözləməyə başlamışdı.

Halbuki nə görürüz?

Barışıq imza edildi xəbəri gəlir. Halbuki nərdə o sevinc, nərdə o qiyamət ki, təsisi-ədalət etsin. Nərdə o əsaslar ki, bizi yeni bir intiqam, binaənileyh yeni bir hərb atəşindən mühafizə eyləsin.

Hərbi-ümumiyə girişən mədəni Avropa millətləri bütün sənət, elm və idraklarına rəğmən heç bir şey öyrənmədiklərini yıxmaq-dağıtmaqdakı qansızlıqları ilə göstərdikləri kimi, beş sənəlik fəlakətəngiz bir hərbi-müdhiş nəticəsində sülhi-ümuminin nə kimi əsaslar üzərinə qurulması lüzumunu dəxi öyrənmiş olmadılar.

Barışıq imza edildi.

Fəqət Vilson prinsipləri nərdə qaldı?

Əgər birinci xəbər alındığı zaman bu ikinci – müəyyən və müsbət bir cavaba malik olmayan, beyin deşən sual olmasaydı, o zaman imza zərurətində qalan Almaniyadan Şeydemanın küfrləri, Türkiyə paytaxtındakı mitinqlərdən əyyuqa qalxan [göyə ucalan] "Allah, Allah" sədaları əvəzinə:

– Əlhəmdüllah, qurtardıq! – sədasını eşidəcəkdik.

Əgər bu cavabsız sual olmasaydı, o zaman təyini-müqəddəratlarını, milli hüquqlarının qaytarılmasını Vilson prinsiplərinin qövldən feilə [sözdən əmələ] keçməsində görən Zaqafqaziya cümhuriyyətləri kimi növzühur [yeni yaranmış] hökumətlər daha böyük bir qüvvəti-qəlblə, daha ziyadə bir mətanətlə istiqbala [gələcəyə] baxar, istiqlallarının təsdiqini, Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] qəbul olunacaqlarını daha artıq bir ümidlə gözlərlərdi.

Hər halda, bəşəriyyətin qanlı girdabdan qurtarıb da qarışmış dünya işlərinin düzəlməsinə bir səbəb təşkil edəcək barışıq imzası şayaniqeyd və təqdirdir [qeyd edilməyə və alqışlanmağa layiqdir]. Çünki məşhur məsəl fəhvasınca [mənasına uyğun olaraq]:

Fəna bir barışıq eyi döyüşdən yaxşıdır!

SAĞ AYAĞIMIZ DA KƏSİLİR

Hökumətimizin tutduğu məslək alicənabanədir. Qonşularla dostanə keçinmək, hər işi sülh ilə qurtarmaq fikri-insaniyyətpərvəranəsindədir. Hər xüsusda səbr və təənni ilə [yavaş, tələsmədən] hərəkət edib yenidən qan tökmək, yeni qaçqınlar, yeni fəlakətlər hazırlamaq arzu etməyir.

Bütün cahan sülhə doğru getdiyi halda hökumətimiz yenidən dava açmaq töhmətində bulunmaq istəməyir. Mümkün mərtəbə, hər işə müşavirə və həkəm [arbitr] vasitəsilə baxıb, qonşularla qətiyyən pozuşmaq tərəfdarı görünməyir.

Əvət! Hökumətimiz insaniyyətin, fəzilətin, ululuğun, səbr və təhəmmülün [dözümün], sükut və güzəştin bütün mənası ilə hərəkət edib millətimiz başına təzədən bir bəla və müsibət açmaq əsla istəməyir.

O istəyir ki, təzə doğan bir hökumət, doğrudan səbi [körpə uşaq] kimi pak, saf olsun. Təmiz əllərini qana bulaşdırmasın. Təzə hərəkətə gələn qollarını insaniyyətə xidmətə alışdırsın.

İlk düşüncəsi, anasına – insanlığa məhəbbət olsun.

İlk addımı ətrafındakılara şətarət [sevinc] versin. İlk hərəkəti, ilk halı gələcəyi üçün bir falixeyir və səlamət olsun [uğur və salamatlıq vəd etsin].

İştə, cavan Azərbaycan Hökuməti bu kimi insani fikirlərlə indiyədək hər cür təcavüzlərə, həqarətlərə göz yumdu və hələ yumur.

Məmləkətimizdə cavan heç bir hökumətdə görülməyən bir hürriyyət, bir azadlıq var:

Gürcüstandan, Dağıstandan, Ermənistandan, Rusistandan bilməm nə istandan qaçanlar burada səlamət bulurlar.

Hökumətlərindən, anarşiyadan, oğurluq və qarətgərlikdən, aclıqdan, firqəbazlıqdan, yolsuzluqdan... qaçanların həpsi, həpsi buraya, bu gözəl və hürr Azərbaycana, Azərbaycan paytaxtına toplanırlar.

Burası adəta bir şəhri-Babil, bir məcmeyiəzdad [ziddlərin toplaşdığı yer] olur:

Menşevik, Denikin, daşnak, imperialist, kommunist, bolşevik, anarşist, mömin, kafir, doğru, əyri, sadiq, xain, millətçi, ittihadçı, heççi... həpsi, həpsi burada mövcud, həm kamalı ilə mövcud.

Ox, nə xoşbəxtlik! Nə böyük mədənilik! Nə uca, nə ali azadlıq!

Paytaxtımız bu gün azadlıq və xoş məişətcə mərkəzimədəniyyət olan Londonu, Parisi keçməkdədir.

Oh, bizim üçün nə böyük şərəf, nə xoş səadət!

Lakin... lakin bir cəhət var, bir qanunitəbiət var.

İştə bu cəhət, bu qanun məni uzun-uzun düşündürür, qara-qara fikirlərə düşür[ür], qafama qorxunc fikirlər doldurur, qəlbimə yanıqlı hisslər buraxır, gözüm qabağına ciyərsuz [ciyər yandıran, acınacaqlı] mənzərələr, qanlı lövhələr, müdhiş [dəhşətli] səhnələr gətirir.

Həyatım qarşısına fəlakətli uçurumlar, qaranlıq gecələr açır, yolumu aydınladan "hilal"iistiqlalımı qanlı buludlarla sarır, ümidiistiqbalımı [gələcək haqqındakı ümidimi] söndürməyə çalışır...

Əvət! O cəhət, o qanun məni hər cəhətlə rahatsız edir.

Məni rahatsız edən bu qanuni-təbiət çox da məşhur deyil. Lakin, nəticəsi, təsiri məşhur qanunlardan da məşhur və qüvvətlidir.

İştə, o:

"Tədbirsiz, səy və qüvvətsiz arxayın olmaq, hər şeyə razı olmaqdır."

* * *

Vilsonun prinsiplərinə arxayın oldu[q]. Hər məmləkət kəndi müqəddəratına kəndisi sahib olacaq şüarına aldandıq. Böyük bir parça, əksəriyyət təşkil edən bir kütlə, bir millətin vücudundan qoparılıb zorla özgələrin təhtiəsarətinə [əsarəti altına] verilməz zənnində bulunduq.

Axıska, Axalkələk qan selləri axıdılaraq, yüzlərcə kəndlər xarab edilərək zorla təhti-əsarətə alındı.

Qars, Ərdahan, Oltu, Kağızman, Sürməli mahalları – erməni qaçqınlarını yerləşdirmək bəhanəsilə – güc və zülmlə müsəlmanların əlindən alınıb ermənilərə verildi.

Azərbaycanın ayrılmaz birər hissəsi olan gözəl Naxçıvan, məhsuldar Şərur yerləri, başdan-başa daşnak hökumətinin pənceyi-qəhrüintiqamına keçdi.

Türkiyə ilə rabitəmiz əbədiyyən kəsildi. Bakı-Culfa dəmiryolu planımız yırtıldı, üzümüzə çırpıldı.

Dəmiryolu çəkiləcək yerləri əlimizə gətirmədən, saxlamadan qabaq xülyalara, boş qeyrətlərə qapıldığımızın cəzası verildi. Biz hələ arxayın oturub dururuz.

Əsil məmləkətimiz, türk yerlərimiz birər-birər əlimizdən çıxır. Biz yenə soyuq qanla baxırız.

Naxçıvanın, Şərurun ah və ənini [naləsi] qulaqlarımızdan kəsilmədiyi bir dəqiqədə, özgə yerlərdən, Zəngəzur mahalından qopan fəryad və fəğanlar bizi nə cür yerimizdə rahat otu[r]tduracaq bilməyirəm.

Bu gün Zəngəzur atəş və qan içindədir. İrəvan hökumətindən kömək alan Zəngəzur erməniləri ora müsəlmanlarını yaylaqlara qətiyyən buraxmırlar.

Müsəlmanları hər yandan sarıb [mühasirəyə alıb], bütün mal və heyvanlarını vermək şərti ilə təslimə məcbur, əks halda qətliam etmək fikrindədirlər.

İştə, bu surətlə Zəngəzuru da zorla əlimizdən alıb bizi qonşumuz İrandan da qətiyyən [tamamən] ayırmaq istəyirlər və bu plan ilə ermənilər bizi həm Türkiyədən, həm də İrandan uzaqlaşdırıb, bu tərəfdən Lənkəran ilə bərabər Kaspi [Xəzər] dənizinə, digər tərəfdən Oltu səmti ilə Qara dənizə çıxmaq, aradakı böyük türk yerlərinə heçdən sahib və ağa olmaq fikrini bu gün feilən meydana çıxarırlar. Zəngəzuru almaqla bizim sağ ayağımızı da kəsirlər.

O, öylə; buradakı – Bakıdakı yəcuc-məcucların halı isə istiqlalımız üçün şəkli, qorxulu.

Əcəba bu fəlakətlərə səbr [edəcək] və bu səbrlə hər şeyə razı olacaqmıyız?

Ayağımızın sızısı bizim qəlbimizə heç bir sızı buraxmayacaqmı?

Ümidvar

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Cümə günü həziranın 27-si 1335-də [1919-cu ildə] Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası təyin edilmişdi. İclas saat 11-də açılacaqdı. Hələ 10 yarımdan məbuslar və tamaşaçılar yığılmağa başlayırlar. Fəqət 11 keçir, 12 olur, Məclis açılmayır. Nəhayət birin yarısında zəng vurulur. Bu gün məbusan demək olar ki, tam heyətlə isbati-vücud [iştirak] edir. Nazirlər və nazir müavinləri dəxi tamamilə buradadırlar. Diplomasi lojada Gürcüstan siyasi nümayəndəsi və nazirləri əyləşmişlərdir. Tamaşaçılar üçün təyin olunmuş yerlərdə ayaq üstə durmağa belə yer yox idi. Xanımlar lojaları dəxi doludurlar. Nəhayət rəis zəngi vurur. İclası şu kəlmələrlə açır:

– Əfəndilər! Bu gün Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası dəvət edilməsindən məqsəd əvvəla, Azərbaycan Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqd edilmiş [imzalanmış] olan hərbi tədafüyi əqdnaməni [müdafiə sazişini] təsdiq üçün Məclisə təqdim etməkdir. Bu əqdnamə o qədər mühümdür ki, növbəti iclasları gözləmək olmazdı. Həm də eydifitr [Oruc bayramı] münasibətilə bir neçə gün bayram edəcəyimizdən əqdnamənin təsdiqi təxirə uğrardı. Fəqət zamanın və məsələnin əhəmiyyətini nəzərə alaraq, Divanirəyasət bunu təxirə uğratmamaq üçün növbədənxaric olaraq təqdimə lüzum gördü. Bununla bərabər, Divanirəyasət yenə məsələnin mühüm olduğunu qeydlə təklif edir ki, bu məsələyə adi qayda ilə baxılmayıb müstəcəl tələqqi [təcili qiymətləndirilsin] və o surətlə də müzakirə və təsdiq edilsin.

Bugünkü iclasın müzakirəsinə vaz ediləcək [qoyulacaq] olan ikinci məsələ də Qarabağ hadiseyi-əxirəsi [son hadisələri] münasibətilə hökumət tərəfindən oraya göndərilmiş olan Parlaman Komisyonunun o xüsusdakı məruzəsi idi. Fəqət məruzə hazır olmadığından və bəzi sair səbəblərdən dolayı bu gün Qarabağ hadisatı haqqın-da məruzə təqdim edilməsi mümkün olmayacaqdır. Əgər etiraz yoxsa, ikinci məsələni növbədən götürəlim də, ancaq birinci məsələni müzakirə edəlim.

(Məclisi-Məbusan tərəfindən bu təklifə etiraz edilməyir və bu surətlə, Azərbaycan-Gürcüstan etilafnaməsinin [razılaşmasının] müzakirəsinə keçilərək katib Əhməd Cövdət [Pepinov] əfəndi əqdnaməni oxuyur. Əqdnamə eynilə qəzetəmizin neçə gün əvvəlki nömrəsində dərc edilmiş olduğundan təkrar dərcinə lüzum görməyiriz. Bundan sonra müzakirat açılır.)

Məhəmməd Yusif Cəfərov (Xariciyyə naziri) alqışlar altında kürsiyi-xitabətə çıxır və etilafnamə əqdi münasibəti ilə bərvəchiati [aşağıdakı kimi] bəyanat verir:

– Möhtərəm məbuslar! Bugünkü tarixi gündə mən istərəm Azərbaycan Hökumətinin siyasəti barəsində ümumiyyətlə sizə bir-iki söz deyəm. Ola bilər ki, bu siyasət qəbul edilsin, həmçinin ola bilər ki, qəbul edilməsin də. Bu xüsusda iki nəzər ola bilər. Fəqət bu siyasəti Azərbaycan Hökuməti özü üçün bir rəhbər qəbul etmişdir. Azərbaycan Hökuməti ümum millətlər və dövlətlərlə, xüsusən Mavərayi-Qafqaziyada [Zaqafqaziyada] yaşayan millətlər və cümhuriyyətlərlə həmrəy olmağa çalışmışdır və çalışacaqdır. Hələ oktyabr ayında hökumət mənə bu məzmunda bir məktub yazaraq, bu yolda qonşu millətlərlə müzakirata girişməyi tövsiyə etmişdi. Qonşularımız ilə siyasətimizi birləşdirmək, onlarla həmrəy olmaq həmişə bizim amalımız, idealımızdır. Ona görədir ki, noyabr ayında Qafqaziya Cümhuriyyətləri Konfransı dəvət edilmək istədikdə, hamıdan qabaq Azərbaycan Hökuməti Cənubi Qafqaziya hökumətləri siyasətlərinin birləşdirilməsini proqrama daxil etdi. İndi isə biz həman məsələni qövldən feilə [sözdən işə] çıxardıq və 16 iyun etilafnaməsini bağlamağa müvəffəq olduq. Noyabr və aprel konfranslarında həmişə gürcülər bizimlə həmrəy olmuşlar və birləşmə məsələsində daima bizə müvafiqət etmişlərdir [bizimlə uzlaşmışlar, həmrəy olmuşlar]. Azərbaycan və Gürcüstan hökumətləri həmişə bu rəydə olmuşlardır ki, bizim millətlərin mənafeyi yekdigəri [bir-biri] ilə mərbut [bağlı] olub, xeyirimiz də, fəlakətimiz də ümumidir. Bir təhlükə gələrsə, hər ikimizi eyni dərəcədə təhdid edər. Ona görədir ki, bizim çalışmamız, müdafiəmiz də ümumi, bərabər olmalıdır. Fəqət üçüncü qonşumuz bu fikirə gəlmədi. Noyabr ayında konfrans dəvət edildi. Fəqət onlar gəlmədiklərindən konfrans baş tutmadı. Son konfransda dəxi onlar min dürlü bəhanə ilə bizə yanaşmadılar. Məsələn, onlar birləşmək təklifinə cavab olaraq dedilər ki, torpaq və hüdud məsələləri həll edilmədikcə, birləşmək olmaz. Binaənileyh [ona görə], bir uzlaşma hüsul edə bilmək üçün qabaqca torpaq və hüdud məsələlərini qəti surətdə həll etmək lazımdır. Biz onların bu fikirinə şərik ola bilmədik. Çünki torpaq və hüdud məsələsi öylə böyük bir işdir ki, uzun vaxt istər və tez həlli mümkün deyildi. Halbuki, o vaxtadək gözləmək də olmazdı. Ona görədir ki, biz onları gözləyə bilmədik və ayrıca "separatno" [təkbaşına] etilafnamə bağlamağa məcbur olduq. Şübhəsizdir ki, Şimali Qafqaziya millətləri də bizim bu etilafnaməmizə şərik olar, iştirak edərlərdi. Fəqət etilafnamə əqd edilən zaman Şimali Qafqaziya Hökuməti yox idi. Çünki o zaman Denikinin qara qüvvələri Dağıstanlılar Cümhuriyyətini məhv etmişdi. *(Skamyalarda tutqun nifrət sədaları)* Lakin, biz əminik ki, bu yoxluq müvəqqətidir. Yəqin şimallı qardaşlarımız məhv olmaz, hüququ yolunda mübarizə edər, nəhayət qalib gələrlər və yenə də bizim ittifaqa daxil olarlar. *(Alqış)* O ki qaldı üçüncü qonşumuza, Azərbaycan Hökuməti yenə əmin olur ki, onlar da səhvlərini anlayaraq bizim tərəfimizə gələrlər və ittifaqa daxil olarlar.

Möhtərəm məbuslar! Bu əqdnamənin Azərbaycan və Gürcüstan üçün böyük əhəmiyyəti vardır. Çünki burası birinci özüldür ki, gələcəkdə bunun üzərində möhkəm bir bina qurulacaqdır. Bu əqdnamə biz iki millətin arasında gələcək rabitəmizi təyin edir. Bəlkə bir gün bu iki millətin ikisi də bir fəlakətə düşər, ola bilər ki, istiqlalını da qeyb edər. Amma şübhəsizdir ki, həmişə bir yerdə qonşu olaraq bahəm yaşayacaqdır. Öylə bir şey olsa da, yenə bu əqdnamənin onda da təsiri olar.

Bir də hamı bu əqidədədir ki, guya Qafqaziya millətləri bahəm yaşaya bilməzlər, onlar həmrəy olmazlar. Biz millətlər guya qurd kimi ancaq yırtmaq, dağıtmaq bilirik. Ancaq qırar, əzərik. Biri-birimizlə heç vaxt sazişə gələ bilmərik. Şimdi bu etilafnamə sübut edir ki, bu sözlər iftira, bu fikirlər yanlışdır. Biləks [əksinə], Qafqaziya millətləri yaxşı etilaf ilə dolana bilər və bu mühüm dəqiqələrdə təhlükə qarşısında bir yerdə yaşamaq, bir yerdə ölməyə də hazırız. *(Alqış)*

Bu şərtnamə göstərir ki, Azərbaycan və gürcü millətləri özlərini müdafiəyə hazırdırlar və o xüsusda lazım gələn tədbirlər görməyi bacarırlar. Bu etilafnamə sübut edir ki, biz xırda millət olduğumuz halda, hürr və müstəqil yaşamaq istəyiriz və öz hürriyyətimizi, istiqlalımızı hər növ təhlükəyə qarşı müdafiə, mühafizə etməyə və bu uğurda lazım gələrsə, qan tökməyə hazırız. Bunlardan əlavə, bir də göstərir ki, biz heç millətə, heç dövlətə təcavüz etmək fikrində deyiliz. Yalnız müdafiə vəziyyətində dururuz.

Gürcüstan ilə bağladığımız əhdnamə 3 il müddətinədir. O vaxtadək Cəmiyyəti-Əqvam təşkil olunsa və biz həman Cəmiyyəti-Əqvama daxil olsaq, o zaman bu şərtnaməmiz ləğv olacaqdır. Əgər o ali fikir əmələ gəlməsə belə, etilafnaməni pozmaq istəyən tərəf vəqtimüəyyənə [təyin edilmiş vaxta] bir il qalmış gərək xəbər versin.

Etilafnamənin bir maddəsində denilir ki, ittifaqa daxil olan tərəfeyn [hər iki tərəf] kəndilərinin və yekdigərinin [bir-birinin] hüququnu müdafiə edəcək və hər babda [hər sahədə] dostanə siyasət yürüdəcəkdir. Ona görə də, aramızda olan təyini-hüdud və vaqe ola biləcək hər növ ixtilaflı məsələlər dostanə bir surətdə etilaf, sülh təriqi [yolu] ilə həll edilməlidir. Bununla da mümkün olmazsa, hakəm (arbitraj) məhkəməsi ilə qət və fəsl ediləcəkdir [qərar veriləcək və ixtilaf sona çatdırılacaq] ki, bu məhkəmənin də qərarı hər iki tərəf üçün məcburidir.

Bir də etilafnamənin digər bir maddəsində iki dövlətin siyasətinin birləşdirilməsindən bəhs olunur. Bundan böylə, Azərbaycan Hökuməti ilə Gürcüstan Hökuməti siyasətlərini birləşdirəcək, bir siyasət aparacaqlardır. İştə, etilafnamənin əsasi maddələri. Mən bu əsasları zikr etməklə nitqimə xitam verərək Hökumət namından bəyan edirəm ki, Azərbaycan Hökuməti əmin olur ki, millət nümayəndəsi olan Məclisi-Məbusan bu etilafnaməni gülərüzlə qəbul edəcək və ona əməl edəcəyini bildirəcəkdir.

(Sürəkli alqış. Məbuslar ayağa qalxır, diplomasi lojada Gürcüstan nümayəndələrini şiddətlə gurultulu bir surətdə uzun-uzadıya alqışlayırlar. Nümayəndələr ayağa qalxaraq təzim edirlər.)

Məhəmməd Əmin Rəsulzadə - (Müsavat) Bu gün Zaqafqazya tarixində mühüm bir hadisə vaqe olmuşdur. O hadisə də burada təşəkkül etmiş milli hökumətlər arasında birinci dəfə etilafnamə əqdindən ibarətdir. Bu fəqərə [hadisə], millətlər ayılıb da hər kəs öz başına bir milli hökumət təsis etməsini tənqid edənlərə gözəl bir cavabdır.

Əfəndilər! Siz bilirsiniz ki, milli hökumət münəqqidləri [tənqidçiləri] daima deyərlər milli əsasla təşəkkül edən hökumətlər şəxsi mənfəət və qərəz üzərinə təsis olunur və böylə hökumətlərin təşkili demokratiya [xalq] üçün əsla mənfəət deyil, bəlkə zərərdir. Çünki Zaqafqaziyadakı milli hökumətlər daima biri-biri ilə vuruşar, kin və ədavətlə yaşar və heç vaxt yekdigəri ilə uzlaşammaz, hətta müşkül zamanlarda belə birləşməzlər. Böylə qərəzkaranə sözlərin cavabında həmişə milli hökumət tərəfdarları deyərlərdi ki, milli hökumət təşkil etmək demokratiyanı yekdigərinə salışdırmaq üçün deyil, biləks [əksinə], hər millət öz milli hüququnu müdafiə və özü üçün hökumət təşkil edərsə, tez tərəqqi tapar, tezliklə milli idrak hasil edər və bu surətlə də öz xeyir və şərini tez anlar. Böylə hökumətlər, şübhəsizdir ki, həmişəlik birləşməzsə də, mühüm zamanlarda öz millətlərini birləşdirərlər. Bu gün gürcü milləti ilə əqd etdiyimiz etilafnamə sübut edir ki, milli hökumətlər millətləri vuruşdurmazlar. Bəlkə bir təhlükə vaqe olarsa, həman təhlükə milli hökumətlərin və onları təsis edən millətlərin yaxlaşmasına, uzlaşmasına, birləşməsinə daha yaxşı bir vəsilə [vasitə] təşkil edər. Bugünkü müahidənamə iştə Zaqafqaziya hökumətlərinə vurulan töhmətin canlı bir təkzibidir! *(Alqışlar)*

Əfəndilər! Bu şərtnamə, bu birləşmə öylə bir zamanda əqd edilmişdir ki, xaricdən bir qara təhlükə bizi təhdid edirdi. Denikin Zaqafqaziyanın qapısına gələrək bizi əzmək istəyirdi. Fəqət farsda bir şeir var, deyir ki:

Ədu şəvəd səbəbi-xeyr, əgər Xuda xahəd.

Yəni əgər Allah istərsə, düşmən xeyirə səbəb olar. İştə Allahın istəyi! Ki bu da camaatın istəyidir. Allah istədi, camaatın istədiyi hasil oldu. Denikin düşmən ikən bu xeyirin hüsuluna səbəb oldu.

Möhtərəm məbuslar! Millətlər arasında əqd olunan hər əhdnamə xalq arasında şayani-qəbul [qəbul edilməyə layiq], təbirimaxsus ilə [necə deyərlər] "populyarnı" olammaz. Fəqət bu gün təsdiqinizə ərz olunan əqdnamə öylə bir əqdnamədir ki, o yalnız hökumət deyil, həmişə millətcə də məmul [arzuedilən] görülmüşdür. Azərbaycan milləti ilə Gürcüstan milləti daima bu müahidəni [sazişi] arzu etmişlərdir. Gürcüstan ilə bizim aramızda bəzi ixtilaflar vüqusuna [baş verməsinə] rəğmən, bu iki millət arasında həmişə dostluq hissi vardı. Ona görədir ki, bu müahidənaməni yalnız Məclisi-Məbusan deyil, bütün millət alqışlar. Çünki millətimiz həmişə gürcülərdən səmimi bir silah yoldaşlığı, səmimi bir dostluq gözləyir. *(Alqış)*

Etilafnamənin məzmunundan gördünüz ki, onun əqdindən məqsəd yalnız istiqlalımızı, tamamiyyətimülkiyyəmizi [torpaq bütövlüyümüzü] xarici qüvvələrə qarşı müdafiədir.

Müdafiə! İştə məqsəd!

Təcavüz yoxdur!

Bizim fikrimizdə heç millətə və dövlətə qarşı təcavüzkarlıq yoxdur. Çünki o millətlər ki, milli hüquq, milli istiqlal elan etmişlər və ancaq onu başqalarından müdafiə edirlər, böylə millətlər heç vaxt özgələrin milli hüququna təcavüz etməzlər. Böylə millətləri təcavüzkarlıqda ittiham edənlər ya qərəzkardırlar, ya axmaq!

Möhtərəm məbuslar! Biz arzu edirdik ki, bu etilafnamənin altında bütün Qafqaziya millətləri nümayəndələrinin imzası olaydı və bu gün gürcülərlə azəri türklər nümayəndələrindən başqalarının imzası olmadığına təəssüf ediriz. Fəqət yenə ümid ediriz ki, Zaqafqaziyanın üçüncü böyük üzvü olan erməni demokratiyası da həmişə bizimlə sülh ilə yaşamaq məcburiyyətində olduğunu anlar. Bu gün o demokratiya bəzi cərəyanlara uyaraq öz vəziyyətini, halını dərk etməmişsə də, yaxında dərk edər, o zaman onlar da bu dostluğa iştirak və müahidənaməni imza edərlər. Buna da imkan buraxılmışdır. Yenə ümidvar oluruz ki, yaxın zamanda erməni demokratiyası kəndi mənafeyini dərk edər, öz müqəddəratını, öz mənafeyini sair millətlərlə birlikdə arar və məsələni də bu yolda həllə qalxışar.

Əfəndilər! Bu gün bu etilafnamənin əqdi mənə bir şeyi xatırladır. Gürcüstan ilə etilafnaməmiz iyun ayının 16-da əqd edilmişdir. Keçən il iyun ayının 16-da Gəncədə birinci Azərbaycan Hökuməti təşəkkül etmişdir. Deməli Azərbaycan Hökumətinin ilk təşəkkülü ilə istiqlalın həqiqi müdafiəsi uğurundakı ilk təşəbbüsü eyni tarixə təsadüf etmişdir. Fəqət müsaidənizlə, əfəndilər, bu işdə yalnız bir tarixi təsadüf deyil, eyni zamanda bir falinik [uğurlu bir işarə] dəxi görmək istərəm.

Möhtərəm məbuslar! Bu gün Azərbaycan ilə gürcü milləti arasında əqd olunan etilafnamə bu iki millət demokratiyası arasında əskidən bəriyə müşahid[ə] olunan dostluq hissi və birlik amalının məhsulu olmaqla bərabər, bütün demokratiyanın arzu etdiyi dostluq bünövrəsidir ki, bunun atidə [gələcəkdə] daha da möhkəmləşməsi və genişləməsini arzu ediriz. *(Sürəkli alqış)*

Yusif Əhmədov - Möhtərəm məbuslar! Üzərimizə gələn və istiqlalımızı təhdid edən qüvvənin qarşısına çıxmaq və onu yaxşı müdafiə edə bilmək çarəsi ittifaqda görülmüşdür. Hələ ay yarım bundan əvvəl mən burada demişəm, yenə bu rəydəyəm ki, ümumiyyətlə biz istiqlalımızı müdafiə etmək və bizi təhdid edəcək olan hər dürlü təhlükənin qabağını almaq üçün Qafqaziya millətləri yığışıb birləşməlidirlər, özlərini də birlikdə müdafiə etməlidirlər. Müdafiə böylə ümumi olarsa, kənardan gələn qüvvə də görər ki, biz hüququmuzu tanıyıb bilib, mühafizəsi üçün də lazım gələn təşəbbüsatda oluruq. Əlbəttə, o halda təcavüzə cəsarət də edə bilməz. Əlhəmdüllah, ay yarım bundan əvvəl bəyan etdiyimiz arzunu indi həqiqət olaraq görürüz. Təşəbbüslərimizin nəticəsi indi göz qabağındadır. Əlbəttə aşkar, vazehdir [açıqdır] ki, böylə etilaf və ittifaqlar yalnız hərb, müdafiə və sairə məsələsində olmayıb, hər barədə, xüsusən ticarət barəsində də lazımdır. Azərbaycan istiqlalı ki, yeni elan edilmişdir, bunun təsdiqinin bir əlaməti də sair dövlətlərlə əlaqə peyda etməsidir. Gürcüstan ilə əqd etmiş olduğumuz bu şərtnamə difaidir [müdafiə xarakterlidir]. Yəni istiqlalımızı, vətənimizi təhdid edən qüvvələrə qarşı ümumi qüvvə ilə mübarizə və müdafiədə bulunmaq üçündür. Yaxşı olardı ki, bu etilafnaməni ümum Zaqafqaziya millətləri imza edəydilər. Lakin hər şeyin ibtidası naqis olar və hər şeyin yaxşılığı ondan ibarətdir gələcəkdə getgedə təkmil edilsin. Şərtnamənin yaxşılığını isbata hacət yoxdur. Ən böyük məziyyəti budur ki, hökumətimiz lazım gələn vaxtında nə etməyi və necə etməyi gözəl bilmişdir. Binaənileyh, hökumətin bu təşəbbüsünü mən özüm və mənsub olduğum firqə təbrik ediriz. Güman ediriz ki, bu etilafnamə kağız üzərində quru söz olmayıb, əməl olunacaqdır. Bundan sonra bütün Avropadan başlamış cüzi təşkilata qədər hamısı anlasın, hətta cəarət etməsin, istiqlal və hüququnu müdafiə edən bir müstəqil millətin istiqlal və hüququna təcavüz edə bilməz, etməsin də! Mən dübarə bu etilafnamənin əqdi münasibətilə firqəmizin səmimi razılığını hökumətə ərz edirəm. *(Alqış)*

(yenə var)

TELEQRAF XƏBƏRLƏRİ

Bolşeviklərin məlumatı

Moskva - Bessarabiyada fransız divani-hərbinin [hərbi məhkəməsinin] qərarına görə, fransız qitəatında [hərbi hissələrində] bolşevik qoşunlarının başçısı olan Delyameş edam edilmişdir. Fransa öz qoşunlarını götürüb, əvəzinə Afrika qoşunları qoyurlar. Fransız saldatları arasında bir çox həbs icra edilmişdir. Qarət və yağma davam edir. Cüzi bir casusluqdan ötrü əhali atılmaqla edam edilirlər. Matrosların sözünə görə, Fransanın Odessa iskələsində duran "Lisqar" nam [adlı] kruvazeri [kreyseri] digər iki paroxod əmələləri ilə bərabər üsyan etmişlərdir. Matroslar qərar qoymuşlar ki, Rusiyadan fransız əsgərlərinin dəvət edilməsini tələb eyləsinlər.

Moskva "Tayms" qəzetəsi xəbər verir ki, Hindistanda inqilab hərəkatı getdikcə artır. Bolşevizm ruhunda olan bu inqilabda səfərbərliyə alınmış hindmüsəlman əsgərləri iştirak edirlər. Təbliğat hətta hökumət qoşunları arasında qayət müvəffəqiyyətli surətdə keçir. Misir qitəsinin [ərazisinin] bir çox nöqtələrində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur.

Əfqanıstan əmiri mütarikə şəraiti [atəşkəs şərtləri] barəsində Hindistan vitskralına cavab verdi. Rovalşidə göndərilmiş olan sülh mürəxxəslərinin [nümayəndələrinin] adlarını da əmir yad etmişdir. Hindistan vitskralı bəyan eyləmişdir ki, bir əfqan saldatı Hindistan torpağında qalıncayadək mütarikə barəsində danışmaq mümkün deyildir. Əmir öz qəbilələrinə qadağan etməlidir ki, bizim qoşunlara təərrüz [hücum] etməsinlər. Saniyən [ikincisi], müharibənin dayandırılmasına əmr verməlidir.

Macarıstanın ablukası

Parisdən xəbər verilir ki, Müttəfiq və müttəfiqlərə dost olan hökumətlər qət eyləmişlər ki, Macarıstan hökuməti orada əminamanlıq olduğunu isbat edərsə, Macarıstanın ablukası [blokadası] ləğv ediləcəkdir.

İstanbul Yeni Türkiyə Kabinəsi təşkil edildi. Damad Fərid paşa sədrəzəm [Baş nazir] və Xariciyyə naziri, [Mustafa] Səbri bəy isə şeyxülislam təyin edilmişlərdir.

Kopenhaq "Lokal-Anzeyqer" qəzetəsinin Libava müxbiri yazır ki, may ayının 26-da Almaniya əsgərləri latış və Baltik qoşunları ilə birlikdə Riqanı işğal etmişlərdir.

Bolşeviklər Əfqanıstanda

Bolşeviklərin tutulmuş olan simsiz teleqraf xəbərindən anlaşılır ki, Əfqanıstanla bolşeviklər arasında sıxı bir rabitə vardır. Məşhur bolşevik Braviçin verdiyi xəbərdə denilir ki, əmir tərəfindən göndərilən heyət Türküstana varid olmuşdur [çatmışdır]. Həmin heyət özü ilə bərabər bir çox sənəd gətirib Braviçdən xahiş edir ki, Kabilə getsin. Çünki orada onu gözləyirlər. Xəbərin axırında denilir ki, Braviç təcili surətdə Kabilə azim olacaqdır [yola düşəcəkdir].

Misirdə təzə Kabinə

Londondan xəbər verirlər ki, Qahirədən verilən xəbərlərə görə, sabiq Baş nazir Məhəmməd Səid paşa təzə Kabinə təşkil etmişdir.

SÜLH ƏTRAFINDA

İngiltərənin məlumati-rəsmiyyəsi

London Almanlar sülh müahidənaməsini [sazişini] imza etməyə razılıqlarını vermişlərdir. Əğləbiehtimala [qüvvətli ehtimala] görə, iyunun 25-də imza edəcəklərdir.

Almanlar Parisdə rəsmi surətdə Müttəfiqlərə bildirmişlər ki, onlar sülh müahidənaməsini imza etmək arzusundadırlar. Müttəfiqlər iki gün möhlət verilmək barəsindəki təvəqqeni rədd etmişlərdir. Son verilən məlumatdan anlaşılır ki, Almaniya matrosları öz kruvazer [kreyser] və zirehlilərinin həpsini qərq etmişlərdir. Yalnız "Baden" və digər bir neçə yüngül kruvazer qalmışdır. Almaniya hökumətinin baş komandanı bəyan eyləmişdir ki, paroxodlar özünün əmri üzərinə qərq edilmişdir.

London Nemeslər sülh müahidənaməsini imza edəcəkləri barəsində verdikləri notada şərəfdən və sülh əqd etməkdən çox bəhs edirlər və elan edilir ki, Almaniyada şərqi əyalətlərin ayrılması ilə vaqe ola biləcək hadisələrin məsuliyyətini Almaniya öhdəsinə götürə bilməyəcəkdir. Hətta Almaniya var qüvvəsi ilə çalışsa belə, öhdəsinə aldığı iltizamlara əməl edəmməz.

QƏZETƏLƏRDƏN

Türkiyədə

Bursada olan yunan əhalisi Sülh Konfransına müraciətlə Bursanın Yunanıstana ilhaqını [birləşdirilməsini] xahiş edirlər.

- Venizelos Yunanıstanın Asiyayi-suğradakı [Kiçik Asiyadakı, Anadoludakı] tələbləri haqqında Sülh Konfransına bir müxtirə [yazılı xəbərdarlıq] vermişdir.

- Türkiyə Ticarət və Ziraət [Kənd Təsərrüfatı] naziri artıq ehtiyacı olan kəndlərə müavinət göstərməkdən ötrü taxıl alınması üçün 2 milyard piastr göndərmişdir.

- "İqdam" qəzetəsi Atinada [Afinada] olan Türkiyə sabiq səfiri Qalib Kamal bəyin Hökumət Şurasında söylədiyi nitqini dərc etmişdir. Qalib Kamal bəy o cümlədən demişdir ki:

"Mən müəzzəm [böyük] dövlətlərdən sual edirəm ki, onlar Türkiyədə reforma tətbiq etdikləri zaman onlardan hansı biri bizə bu işdə kömək etmişdir. Qoy onlar səmimi olub əllərini ürəklərinə qoyaraq bizə cavab versinlər. Bizim məmləkətimizə düçar olan bədbəxtlik Rusiyanın və Avstriyanın Yaxın Şərqdə olan daimi intriqalarının nəticəsi olmuşdur. Bu axır vaxt isə İngiltərə ilə Almaniya arasında olan mənafelərin bir-birinə zidd olması səmərəsidir."

Sonra Qalib Kamal bəy deyir ki:

"Yevropa bilməlidir ki, hərgah Sülh Konfransında qəbul edilən qətnamə qeydsiz və təbəddülatsız [dəyişmədən] Türkiyə həyatına tətbiq edilərsə, bizim xalqımız bir adam kimi bu cür qərarın əleyhinə qalxacaqdır."

Misirdə üsyan

Münhendən Kiyev qəzetələrinə xəbər verirlər ki, Misirdə getdikcə inqilab şiddətlənməkdədir. Məhəlli [yerli] komanda heyəti öz vəzifəsi ifasından imtina etmişdir. Məmurlar hamısı tətil elan edib, İngiltərə hökumətini çıxılmaz bir hala qoymuşlardır. Qahirədə tətil hərəkatını idarə edən məhəlli məmurlar inqilab təşviqatı yapmaqdadırlar. Başqa şəhərlərdə olan tətillər də hökumət işlərini dayandırmışdır. Bir çox mitinq tərtib edənlər əhalini idarə edir. Bolşevizm şüarı altında hərəkat genişlənməkdədir.

Hindistan Konfransının müraciəti

İyunun 4-də verilən teleqraf xəbərlərinə görə, ümumi Hindistan Konqresi namından [adından] Lloyd Corca, Monteqyoya və lord Sinxə bir teleqraf göndərilmişdir. Teleqrafda Hindistan əhvalının fövqəladə bir surətdə ciddi və Hindistana nisbət siyasət kursunun dəyişilməsi lazım olduğu göstərilmişdir. Teleqrafda deyilir ki, mütarikə əqdi [atəşkəs imzalanması] zamanından Hindistan arzularına olan nisbət ümumən və tərziidarə reformaları artıq dərəcədə təbəddülata [dəyişikliyə] uğramışdır. Bununla belə, bu reformalar lazımdır.

Kolçak hökumətində təbəddülat

Omskdan xəbər verirlər ki, amiral [admiral] Kolçak Nazirlər Şurasında bir qədər təbəddülat [dəyişiklik] yapmışdır. Vükəla Şurası [Nazirlər Soveti] rəisi [Pyotr Vasilyeviç] Voloqodski qalmışdır. Qattenberger Daxiliyyə naziri təyin edilmişdir. Vükəla Şurası katibi Aberq Maarif naziri portfelini almışdır. Starınkeviç Ədliyyə naziri təyin edilmişdir. Şukin müvəqqəti olaraq Ticarət və Sənaət [Sənaye] naziri vəzifəsini ifa edəcəkdir.

Belçika və Amerika

Nauendən verilən simsiz teleqrafda deyilir ki, Belçika mətbuatı Almaniyanın bir para oblastlarının [əyalətlərinin] işğalı münasibətilə narazılıq izhar edir. Belçika qəzetələri yazırlar ki, biz istəyirik, almanlar bizə vurduqları zərərlərin əvəzini versinlər. Fəqət biz onları heç vaxt sıxmaq arzusunda deyiliz.

Arvadların konqresi

Sürixdə vaqe olan Beynəlmiləl Arvad Konqresi Sülh Konfransında iştirak etməkdən ötrü bir heyət intixab etmişdir [seçmişdir]. Bu heyətə Amerikadan, İngiltərədən, Fransadan, İtaliyadan və İsveçrədən xanımlar intixab edilmişdir. Həmin heyət general Pişon tərəfindən qəbul edilmişdir.

Çində

İyunun 13-də Tokiodan xəbər verirlər ki, hərbi gəmilər təcili surətdə Kantona azim olmuşlar [yollanmışlar]. Yaponlar əleyhinə təşviqat aparılması müşahidə edilir. Ələlxüsus Şanxay, Hankou və Kantonda olan təşviqat bütün əcnəbilər əleyhinə döndərilmişdir. Boykot münasibətilə Çin limanlarında gəmilər hərəkatı dayandırılmışdır.

- Sülh Konfransının Şantunq haqqındakı qərarına görə, Şantunqda böyük nizamsızlıq başlanıb, hətta əcnəbi polis üzərinə hücum olmuşdur.

Müttəfiqlərin əmri

Müttəfiqlər Macarıstana, Romaniyaya və çexslavlara əmr etmişlər ki, müharibə hərəkatını qət edib [kəsib], Sülh Konfransında göstərilən əvvəlki sərhədərə qayıtsınlar.

Kommunistlərin qətli

İyunun 22-də Staraya Russadan xəbər verirlər ki, ağ qvardiya əsgərləri Hamburqa gələn kimi şəhər komendantı podpolkovnik Bibik 39 nəfər kommunisti asdırmışdır.

Fərari kazaklar

Saratovdan xəbər verirlər ki, bu axır vaxtlar AleksandrovQay tərəfində dinc əhalidən başqa 123 nəfər kazak bolşeviklər tərəfinə keçmişdir.

Hindenburqun hərəkəti

Nauendən verilən simsiz teleqrafda deyilir ki, Dördlər Şurası Almaniya əsgərlərinin Kurlandiyaya hərəkət etmələri məsələsi ilə məşğuldur. Bu hərəkət estonları təhdid edir.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 29 iyun (Bazar günü) tarixli 214-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Beynəlmüttəfiq [Müttəfiqlərarası] Hərbi Şura müharibə hərəkatını dayandırmaqdan ötrü müdaxilə edilməsi təklifində bulunmuşdur. Çünki Hindenburq əsgərləri Estoniyanı özlərinə tabe etmək istəyirlər.

Pul tutulması

Yekaterinodardan xəbər verirlər ki, Moskvadan Kiyevə göndərilən 200 milyon manat Qomel rayonunda üsyançılar tərəfindən dərdəst edilmişdir [tutulmuşdur].

Qriqoryev dəstəsinin hərəkəti

Kremençuqda [Nikifor Aleksandroviç] Qriqoryev dəstəsi bir atanı, iki qardaşı və Kremençuq Şurası sədrinin arvadını güllələmişlər. Qriqoryev dəstəsi hər yerdə yəhudiləri və kommunistləri qırmaqdadır. Yelizavetqradda Qriqoryev adamları İcraiyyə Komitəsi ilə Fövqəladə Komitə üzvlərinin hamısını güllələmişlər. Hər yerdə ki, hökumət Qriqoryev adamları əlinə keçir, bu cür müamilədə [rəftarda] bulunurlar. Znamenka mövqifində [stansiyasında] qatar dayandırılıb 300 nəfər yəhudi və yəhudiyə oxşayan adamlar oradaca güllələnmişdir. Kremençuqda Şura hökumətində iştirak edən 500 yəhudi güllələnmişlər.

Rusiyada dəmiryol tətilləri

"Y. V." qəzetəsi xəbər verir ki, Kazan, Nijeqorod, Murom və Şimali dəmiryollar tətil elan etmişlərdir. Tətilçilər siyasi əfviümumi, vətəndaş müharibəsinin dayandırılması ilə hökumət təşkil edilməsini tələb edirlər. Dəmiryol mövqifləri [stansiyaları] Çin və latışlar tərəfindən işğal edilmişdir.

Finlandiya və bolşeviklər

Moskvada olan bütün bolşevik mətbuatı Finlandiyanın axırıncı notasını Petroqrad üzərinə şiddətli surətdə hazırlanmaqdan ibarətədd [hesab] edirlər. Bolşevik mətbuatı Finlandiyanın bu çıxışını fitnə adlandırır. Bolşevik qəzetələrindən birisi yazır ki, Rusiya bolşevik hökuməti Finlandiyaya istiqlaliyyət vermişdir. Lakin Finlandiya burjuaziyası onun əleyhinə getməkdədir. General Mannerheym əcnəbi ağ qvardiya əsgərləri başında Petroqrada hücum etməkdədir. Bolşevik hökuməti üzərinə düşmən hamı cəbhədən hücum edir. Bolşevik hökumətinin əhvalı xeyli ciddidir.

Petroqrada ərzaq

İngiltərəni ərzaqla təchiz edən nazir müavini Petroqrada ərzaq gətirilməsindən ötrü təcili tədbirlər görməkdədir.

Petroqradda hazırlıq

General Yudeniç Petroqradın siyasi təşkilatını çıxış zamanı üçün hazırlamışdır. Bolşevik əsgərləri Krasnoye Selo yanında öz qüvvələrini cəm etməkdədirlər.

İngilislərin Şimali Rusiyada tələfatı

İyunun 4-də "Tayms" qəzetəsi yazır ki, lord Çörçill Avamlar Kamerasında suala cavab verərək xəbər vermişdir ki, Şimali Rusiyada ingilislərin tələfatı bu qərar üzrədir: aprelin 28nə qədər 460 nəfər ölən və yaralanan vardır. Bunların 35 nəfəri zabitdir.

İngiltərə silahı

İngiltərə Hərbiyyə nazirinin verdiyi məlumata görə, bolşeviklərlə mübarizə etməkdən ötrü Rusiyaya 300 min təzə rus beşatılan tüfəngi və yarım milyard patron göndərilmişdir.

Kopenhaqda tətil

Kopenhaqda port fəhlələrinin tətili başlanmışdır. Məlum olmuşdur ki, bu tətil Almaniya hökuməti xidmətində olan rus bolşeviki Vançem tərəfindən tərtib edilmişdir. Məhəlli [yerli] fəhlə təşkilatları başçıları bolşevik tərzi-hərəkətinə iştirak etməyib, işlərin başlanması üçün tədbirlər görməkdədirlər.

Bolşevizm əleyhinə

İstanbuldan verilən məlumata görə, Take İonesku Şərqi Avropada bolşevizm əleyhinə bir cəmiyyət vücuda gətirmək layihəsini hazırlayır. Bu cəmiyyətə Ukrayna, Bessarabiyadan əl çəkmək şərti ilə Çex, Polşa, Serbiya və Romaniya daxil olmalıdırlar.

Bolqariyada

İyunun 14-də Odessadan xəbər verirlər ki, Bolqariya qəzetələrinin verdikləri məlumata görə, Müttəfiqlərin Bolqariyadan çıxmış olacağını hiss edib bütün Balkanı atəşə tutdurmaqla Bolqariyanı hər tərəfdən mühasirə edəcəklərdir. Makedoniya üsyanını yatırmaq üçün Səlanikdə fransız əsgərləri paroxodlara yüklənməkdədir. Fransızlar Bolqariya əleyhinə və Ukraynanın Bolqariya inqilabına kömək etmək arzusu əleyhinə hərəkatda bulunmaqdan ötrü Vanı (?)işğal etmişlərdir.

İtalyanlar Rodostokaya gəlmişlərdir. Bunlar Bolqariya kommunistlərinin arzusuna hüsntəvəccöh göstərirlər.

Fin xəlicində müharibə

İngiltərə simsiz teleqrafı xəbər verir ki, Fin Baş ərkanihərbinin [Baş hərbi qərargahının] məlumatına görə, rus kommunistləri qəflətən Fin xəlicində [körfəzində] duran saldatlara şiddətli atəş açmışlardır. Ağır toplardan güllələr atılmışdır.

VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

Tiflisdən Rəisi-vükəla [Baş nazir] namına işbu məzmunda bir teleqram alınmışdır:

"Alınan məlumata görə, Naxçıvan, Şərur, Ordubadda Ermənistan hökuməti tərəfindən müsəlman camaat xadimləri və fəallarını təqib etməklə bərabər, müsəlmanların malları həcz [müsadirə] edilir, təftişlər yapılır. Əlbəttə ki, böylə müamilə [rəftar] müsəlmanların hüquqlarına təcavüz etməkdir. Əlavə, bu günlərdə erməni nizami qüvvələri Naxçıvanın 6 çağırımında vaqe Bulqan nam [adlı] müsəlman köyünü bombardman etmişdir. Əhali xof, dəhşət içində açıq hava altında qalmışdırlar.

Məruzəmlə rica edirəm ki, bizim etirazımızı Ermənistan hökumətinə elam etməklə [bildirməklə], İngiltərə Komandanlığına da əhvalı bildirəsiniz. Bir həftə belə təxir edilərsə, müsəlman kəndləri xarabazara dönəcəkdir."

İrəvan quberniyası Həmtorpaqlar Cəmiyyəti sədri: Şeyxov

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Məsai Nəzarətindən

"Azərbaycan" ruznaməsinin [qəzetinin] 210-cu nömrəsində Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən əsgərliyə çağırılan hökumət dairələrində bulunan məmurların ailələrinin təminiimaişətləri [dolanışıqlarının təmin edilməsi] barəsində olan məktubu mütaliə edib, bu barədə bir neçə söz yazmağı artıq görməyiriz.

Bu gün vətən və hürriyyətin ağır bir zamanında vətənin qəyur [qeyrətli] balaları istiqlaliyyətləri yolunda hər bir rahatlıqdan keçib canlarını hürriyyət və vətən uğrunda qurban etdikləri bir zamanda vətənin və vətən övladının təminiistiqbalı üçün öhdələrinə ağır vəzifələr götürüb hökumət məsnədində [işində, vəzifəsində] bulunanlar da hürriyyət və istiqlaliyyət namına əllərindən gələn xidmətləri etməkdən çəkinməyəcəklərdir. Məmurların əhvalı fəramuş edilməyərək [yaddan çıxarılmayaraq], onların və onların ailələrinin təminiistiqballarl üçün çalışırız. Bu barədə hələ bunu qeyd ediriz ki, əsgərliyə çağırılan məmurların yerləri özlərində qalır. Bu barədə təşkil olunmuş komissiya bir layihə tərtib verib, bu günlərdə hökumətə pişnihad [təqdim] edəcəkdir. Təsdiq olunduqdan sonra əhaliyə elan edəcəyiz.

Məsai naziri:
Aslan Səfikürdlü

ORDUBAD MƏKTUBLARI

Təxminən 300 min nüfusa [əhaliyə] malik olan Vedibasar, Şərur və Naxçıvan mahalı Ermənistana təslim oldular. Erməni rəyasəti altında "asudə" yaşamağa başladılar. Fəqət bir tək Ordubad şəhəri və həvalisi [ətrafı] ermənilərə tabe olmaq istəməyib, Azərbaycan Hökuməti təhtidarəsində [təbeçiliyində] yaşayacağını bütün cahana elan etdi və haqlı olaraq Ermənistan tərəfindən "təyin olunmuş" Qoxtan diktatoru Aşot Məlik Movsesyanı protesto edib, Ordubada hakim olmasından vaz keçməsini ona tövsiyə etdi. Necə ki, bu barədə "Azərbaycan"ın 211-ci nömrəsində bildirilmişdir. İştə, bu əhvalat bir çox şəxsləri heyrətdə qoyub şu suala səbəb olur:

Nə üçün böyük Şərur və Naxçıvan mahalı təslim olub da, kiçik Ordubad təslim olmaq istəməyir?

İştə şu suala cavab olaraq deyə bilərəm ki, vətəni mühafizə etmək onun böyük, yaxud kiçik olmağı ilə deyildir. Bəlkə, camaatın hissli, düşüncəli, vətənpərəst, namuslu və qeyrətli olmağından asılıdır.

Ordubad əhalisi bunu yaxşı düşünür ki, Qoxtan ermənilərinin zülmü altında yaşaya bilməyəcəklər. Ermənilərə etdikləri yaxşılıqların əvəzində daima fənalıq və hüquqa təcavüzdən başqa bir şey görməyəcəklər. Necə ki, bildirki hazirən hadisəti [iyun hadisələri] bunu isbat edir.

Ordubad müsəlmanları öz qonşu ermənilərini mühafizə etdi, onları saxladı. Heç birinin hüququna təcavüz olunmadı. İran atlılarının onlara qarşı hücumuna və onların köylərinin İran qaçaqları tərəfindən qətl və qarət olunmasına mane oldu. Lakin müsəlmanların bu yaxşılığının mükafatı olaraq Andranik hücum etdiyi zaman həman ermənilər dəstələr düzəldib müsəlmanların köylərini dağıtdılar. Çoluqçocuğunu qırmağa iktifa [kifayət] etməyib, gözəl xanımlarımızın ismət və namusuna təcavüz etdilər. Nəhayət, təslim olmuş köyləri də yaxıb, camaatı kəsib, daxmalarını xak ilə yeksan [yerlə bir] etdilər.

O cümlədən Yaycı, Üstüpü, Tivi, Bist və sair qəryələrdə [kəndlərdə] 15 mindən ziyadə müsəlman əhalisini tələf etdilər.

Məgər Ordubad müsəlmanları bunu görüb də, bir də ermənilərə bel bağlaya bilərmi? Yox, deyə bilərəm ki, onlar heç vaxt bu işə razı olmazlar. Vətən əzizdir və onu mühafizə etmək vacibdir fikri onların qəlbində oyanmış və onları həyəcana gətirmişdir.

Ordubad şəhəri və həvalisi Ermənistana tabe olmaz və axırıncı qətrə qanlarınadək bu yolda mübarizə edər və vətənin müdafiəsi yolunda tamam var-yoxunu qoyar.

Ordubadı və həvalisini idarə edənlər Dağıstanın Xəlilovları və Naxçıvanların xanları kimi deyildirlər ki, əziz və müqəddəs vətəni satıb, ana və bacılarının namusunu dünya mənzurəfatinə [boş, mənasız dünya malına] bədəl etsinlər. Onlar vətəni yolunda öz canlarını verməyə hazırdırlar.

Qoy ermənilər bilsinlər ki, Ordubad onlara təslim olmayacaqdır. Onlar Ordubadı idarə etməkdən vaz keçsinlər. Tamamilə müsəlmanla məskun olunmuş bu ölkə Ermənistana verilə bilərmi? Hərgah Ermənistan Cümhuriyyəti filhəqiqə [doğrudan da] cümhuriyyət qanununu nəzərə alırsa, nə üçün əhalinin dörddə üç hissəsi Azərbaycana tabe olmaq istədiyi halda, belə bir ölkəni zorla özünə ilhaq etmək [birləşdirmək] istəyir?

Qoy Ermənistan Cümhuriyyəti də, Müttəfiqlər Komandanlığı da, Sülh Konfransı da bilsinlər ki, Ordubad şəhəri və həvalisi Ermənistana tabe olmayacaq və heç qüvvə də onların bu fikrini dəyişdirə bilməyəcəkdir. Ölmək var, Ermənistana tabe olmaq yoxdur.

Səttar oğlu Əliqulu

VƏTƏN MƏHƏBBƏTİ

(Bir qəhrəmanın ziyası [itkisi])

Ali Ticarət məktəbini bitirmiş Qubad Əlibəyov nam [adlı] bir igid Teymurxanşura Parlamanı tərəfindən Teymurxanşura [Buynaksk] ətrafı köylərinə əhalini parlaman məramnaməsi ilə aşina etmək və parlamana üzvlər intixabını [seçilməsini] idarə üçün təyin edilmişdi. Məzkur [adı çəkilən] Əlibəyov bir qaç köyləri dolandıqdan sonra Xunzax nam köyə yetişər-yetişməz Denikin ordusunun Teymurxanşuraya gəlməkləri xəbərini eşidir. Və vətənin qəhr edilməsini görmək istəməyərək bir qədər uzaşmış tapançasını çıxarıb öz-özünü vurur (bəzi rəvayətə görə, özünü çaya atır). Bakıya gəldiyim vaqonda mərhumun meyitini Qubaya gətirirdilər. Mərhum Əlibəyov fövqəladə millətpərəst olduğunu mən eyicə bilirəm. Fəqət mərhumun ölməsi, məncə, bicadır [boşunadır]. Zira Dağıstan qəhrəmanı Şeyx Şamil əfəndinin tarixlərdə məstur [yazılmış] igid Dağıstan camaatını məhzun və pərişan halda qoymuş nikolaypərəst, çinpərəst, pulpərəst, əziz Dağıstanı satıb igid dağıstanlıların namını söndürən, zəifləşdirən, ləkələndirən lein [lənətli] millət xainlərindən birini öldürüb sonra ölsəydi, daha eyi olmazdımı?

Ş. K. Pişnamazzadə

MƏTBUAT

Bolşevik qəzetəsi daşnaklar haqqında

Bolşeviklərin "Nabat" qəzetəsi "Qanlı əllərinizi çəkiniz" sərlövhəli məqaləsində yazır ki, xuliqanlar və qatillər firqəsi olan daşnakların murdar siyasəti bir gün, bir ay, bir il deyil, onillərdir ki, bədbəxt erməni kəndlisinin ruhunu, uşaq və qocalar ilə doluş qəbiristana döndərmişdir. Bu quldur dəstəsi erməni füqərayi-kasibəsinin [proletariatının] qanı və göz yaşı ilə özünə boş bir qüvvət düzəldib nazir məsnəbləri, nişanlar və medallar almışdır. [Sergey Dmitriyeviç] Sazonov və [İllarion İvanoviç Vorontsov]Daşkov kimi çar vəzirlərinin əli altında bu erməni dəllal və qatillər dəstəsi bütün Türkiyədə erməni kəndlilərinin qətliamına baiş olmuşdur. Günahsız arvad-uşaqların qanı ilə ruhlanmış olan [Mişa] Arzumanov kimi dolandırıcılar [fırıldaqçılar] tipindəki bu quldur dəstəsi hal-hazırda erməniz Ermənistanı idarə etməkdədir. Bu özlərini tərifləyən dəstənin əksinqilabçı olduğu hər bir dərrakəli erməni fəhlə və kəndlisinə hər şeydən aşkardır.

İndi də padşah generalları Rusiya füqərayi-kasibəsinin inqilabını yer üzündən götürməyə əbəs çalışdıqları zaman daşnak bandaları Denikinin çəkmələrini silmək üçün dəstələrlə onun yanına getməkdədirlər. Vaxtilə Nikolay Romanov qarşısında quyruq bulayan əxlaqsız lakeylər indi də Denikin və kompaniyası qarşısında diz çökməkdədirlər. Yalançı siyasət yürüdən şarlatanlar bu axır vaxt öz simalarını bütün açıqlığı ilə göstərdilər. Ərzincandan İrəvana, İrəvandan Qarabağa, Qarabağdan Şamaxıya qədər qəbiristanlar yaradan bu quldur dəstəsi indi də zabit dəstələrinin Zaqafqaziyaya hərəkət eyləmələri münasibətilə öz boş başlarını qaldırmışdır.

Erməni Milli Şurası rus zabitlərinin Zaqafqaziyaya hərəkət eyləmələrinə mümaniət [maneçilik] göstərilməməsini təhtiqərara almışdır. Dro və kompaniyası yenə də silahla iş görməyə başlamışdır.

Denikinin köməyindən ötrü Gürcüstan arxasında cürbəcür ehtiyat alayları təşkil edilməkdədir.

Bu, xəyanətdir, ya qanmamazlıqdır? Erməni daşnakları Denikin ştabında nə eyləyirlər?

Yenə dəmi onlar padşah əsgərləri və sabiq rus müstəbidlərinin üçrəngli bayraqları altında yenə təzədən öz qanlı peşələri olan milli ədavət salmaq və heç bir şeydə günahı olmayan Zaqafqaziya kəndlərini və şəhərlərini qan içində boğmaqmı istəyirlər?

Xeyr, onlar səhv edirlər. Erməni fəhlə və kəndliləri erməni millətinin bu tör-töküntüsü olan nanəciblərin qanlı əllərinin qismətini kifayət qədəri anlamışlardır. Onlar dolandırıcı dəstəsi olan daşnakların ağılsız və insafsız siyasətlərini kifayət qədər öz arxalarında daşımışlardır. Qaçqınlığın hər bir cür cəfasını dadmış olan erməni füqərayi-kasibəsi mauzerçilərin dalıca getməyib, indiki kimi onlara lə'n və nifrin [lənət və qarğış] edir. Erməni fəhlə və kəndliləri hal-hazırda mübarizə etdikləri kimi, erməni daşnaklarının içiboş başları üstündən hər növ əksinqilabla mübarizə edəcəklərdir.

Menşevik qəzetəsi bolşeviklər haqqında

Yazıq "İskra"çıların bəxti heç gətirməyir. Nə kontrrevolyusionerlər [əksinqilabçılar] onları hökumət başına buraxırlar, nə də tovarişlər. Bu yazıqların də gah nala, gah mıxa döyməkdən başqa bir çarələri qalmır. Bolşeviklər də bunları dəraðuş etmədilər [bağırlarına basmadılar]. Odur ki, indi də dünkü "tovariş"lər bu gün yaman olublar.

"İskra" qəzetəsi Müttəfiqlərin Kolçak hökumətinə kömək etdiklərini Müttəfiq hökumətlərin vəziyyətinin möhkəmləşməsi, Rusiya əksinqilabçıları əhvalının yaxşılaşması və biləks [əksinə], bolşeviklərin kəsbizəf etmələri [zəifləmələri] və nəhayət, cahan demokratiyası köməyindən də ümid kəsilməsi kimi təlaqqi edərək [qiymətləndirərək], tapır ki, böylə bir zamanda bolşeviklər də köməyi menşevik və eserlərdən gözləyib onlarla birləşməli idilər. Fəqət bununla bərabər, bolşeviklər onları qucaqlarına çəkməyirlər. Doğrudur ki, bolşeviklər cəbhəni düzəltmək və birləşdirməyə söz verirdilər.

"Amma həqiqətdə böylə olmadı. Şura hökuməti talançı Qriqoryev və Maxno kimi macəraculəarın [avantüristlərin], məslək sahibi həqiqi sosialistlərin mübarizə etdikləri çrezviçaykaların və mənsəblə cib mənfəəti axtaran on minlərcə komissarların əlində əsir oldu.

Yaqin ki, bolşevik hökuməti həqiqətihalda böylə adamların əlində olduğundan, onlar heç vaxt müxalifətgir olan [müxalifət edən] sosialist ziyalılar, kəndlilər və füqərayi-kasibənin idraklı qismi ilə birləşməzlər. Çünki həman komissarlar və çrezvıçaykalar bir çoxlarının zənn etdiyi kimi Lenin, yainki Trotskinin bir işarəsi ilə öz mövqelərindən əl çəkməzlər. Onlar kəndlərini xilas etmək üçün İctimaiyyuni-əmiyyun [Sosial-demokrat] və İnqilabiyyun firqələri müqabilinə şiddətli mübarizə açaraq, üzərlərinə körpü və zavodları partlatmaq kimi böyük töhmətlər atdılar."

Əgər bu sözləri yazanlar və onların mənsub olduqları firqə, heç olmazsa, bir ay öz sözünün üstündə duran adam olsaydılar, bəlkə biz də onların rəyinə şərik olardıq. Amma hələlik sosialistlərə tövsiyə edərdik, barı bu gün yazdıqlarını xatirlərində saxlasınlar. Çünki gündə bir dəfə Azərbaycan demokratiyasını həman bu adamların bayrağı altına çağıranda, bəlkə yadlarına düşə və utanalar.

Eyni məqaləsində "İskra" qəzetəsi kommunistlərin əksinqilabçılar bəhərkanarə [hər yerdə] sosialistlərlə necə rəftar etdiklərindən şikayətlə yazır ki:

"Alınan son məlumatdan görülür ki, yoldaşlarımız (yəni sosialistlər) qismən həbsxanalara alınmış, qismən də zirizaminlərə [yeraltına] çəkilməyə məcbur olmuşlardır."

Ona görədir ki sosialist "tovarişlər" Azərbaycanda inqilabın bütün fütuhatından [nailiyyətlərindən] istifadə etdikləri halda, namı-hürriyyətdən sui-istifadə edərək gündə bir dəfə "Yaşasın Şura hökuməti" deyə bizi də, özlərini də "talançı Qriqoryev, Maxno, çrezviçayka və on minlərlə mənsəb axtaran və mənfəətşəxsiyyə güdən komissarlar"ın əlinə vermək istəyirlər!

BAKI XƏBƏRLƏRİ

Dəvətnamə

Bakı şəhərinin sünniməzhəb qazısının sərəncamına binaən [əsasən], şəhərin prixod ruhanisi molla Əläddin əfəndi Qabilov və məscid binası üçün təşkil olunmuş komitənin heyəti-idarəsi yövmi-mübarək [mübarək gün] Oruc bayramının düxulu [daxil olması] münasibətilə Bakıda sükunət edən [yaşayan] əhaliyi-müslimina və İdilboyu [Volqaboyu] tatar camaatına elan edir ki, inşallahi-taala, səlatieydi-fitri [Oruc bayramı namazını] cəmən [hamılıqla] bir yerdə əda etmək üçün işbu iyun ayının 30-cu günündə səhər saat 9-da Balaxanski və Maqazinni küçələrin küncündə bulunan xüsusi məscid torpağının həyətində camaat hazır olacaqlar.

Komitənin sədri əvəzində katib:
[Əlæddin] Sübhanqulov

Məvərayi-Bəhri-Xəzərdə azərbaycanlılar

Məvərayi-Bəhri-Xəzərdəki [Zakaspiyskdəki] Azərbaycan konsulu orada sükunət edən Azərbaycan təbəələrinə məlum etmişdir ki, onlar siyahı edilmək üçün konsuldan şəhadətnamə almalıdırlar. Məvərayi-Bəhri-Xəzərdən Azərbaycan Cümhuriyyəti daxilinə getmək istəyənlər konsulxanadan icazə vəsiqələrini almalıdırlar. İyun ayının 14-dən etibarən Krasnovodskda konsulun naibi təyin edilib, orada sükunət edənlərə şəhadətnamə və qeyri vəsiqələr verilir.

Zakaspidə azərbaycanlılar

Zakaspi hökuməti Azərbaycan dövlətinin iqdamatı [təşəbbüsü] nəticəsi olaraq bütün azərbaycanlıları bilafərqi-dinümilliyyət [din və millət fərqi olmadan] əsgərlikdən azad etmişdir.

Azərbaycanlı qaçqınlar

Mərv, Kuşka, Bayramalıdən fərar etmiş 3 minədək azərbaycanlılar İrana getmişdilərsə də, həyatın müşkül olmasından naşi [ötrü] Aşqabada qayıtmaq məcburiyyətində qalmışlardır. Onlar Azərbaycan hökumətindən maddi müavinət istəmişlərdir.

Azərbaycanlı xanımlar

Aşqabaddakı azərbaycanlı xanımlar oradakı səfarətimizə müraciətən rica etmişlərdir ki, qadınların namından Azərbaycan Məclisi-Məbusan və faal hökuməti təbrik edilsin.

Dünəndən etibarən bu vaxtadək Tiflisdə qalmış Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov həzrətləri öz vəzifəsini ifasına şüru etmişdir [başlamışdır].

İclas

İyulun 1-i saat 5-də Fəhlə Klubu salonunda Azərbaycan İctimaiyyuni-inqilabiyyun [Sosialist-inqilabçılar] firqəsinin ümumi iclası təyin edilmişdir. İclas ikinci dəfə olduğu üçün qanuni hesab ediləcəkdir. Yoldaşlardan vaxtında gəlmələri rica olunur.

Bakı-Tazəşəhər sualtı teleqrafı

Zakaspi Hökuməti Azərbaycan Hökumətinə müraciətən rica etmişdir ki, Bakı-Tazəşəhər sualtı teleqrafını (kabel) təmir haqqında lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

Ziraət və fəllahət

İyunun 22-də Ticarət və Sənaye Nəzarətində camaat təşkilatı nümayəndələrinin iclası vaqe olaraq, 1917-ci ildən tərtib edilmiş olan ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] siyahısından istifadə etmək məsələsi müzakirə edilmişdir. Həmin siyahıda ərazi işləri, heyvanatın miqdarı, taxıl məhsulu, pambıq, yun və qeyriləri haqqında lazımi və müfəssəl məlumat verilmişdir. Bu siyahı köhnə də olsa, bizə mənfəəti vardır. Müzakirədən məlum olmuşdur ki, bu siyahıdan 300 dənə çap edildikdə bir milyon manat xərc edilməlidir. Bu siyahıdan torpaq islahatı işləri vaxtında istifadə etmək üçün Ziraət nazirinə verilir. Bundan əlavə, şəhərə mal gətirilməsi və çıxarılması məsələsi müzakirə edilərək üç maddə qəbul edilmişdir: 1) Şəhərdən aparılması qadağan edilən mallar; 2) Müəyyən şərtlər.

FƏHLƏ HƏYATI

Məsai Nəzarəti-cəliləsinin nəzəri-diqqətlərinə

23 həziran tarixində düşənbə [bazar ertəsi] günü saat 12 zəvalda [günorta] Nobel 3-cü uçastok [sahə] mədən mühəndisi ilə əmələ miyanında [arasında] nəşət etmiş [meydana gəlmiş] ixtilaf dolayısı ilə qüsur kimdə olduğunu təhqiq üzrə canibiNəzarətlərindən [Nazirlik tərəfindən] məmur edilmiş fabrika müfəttişinin təklifinə təbəən [tabe olaraq], Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi tərəfindən nümayəndə olaraq idarə üzvü Həmid Paşazadə məiyyəti ilə bəndələri dəxi [Həmid Paşazadə ilə birgə mən də] məhəlli-təhqiqatda [təhqiqat yerində] hazır olduq.

Mühəndislər İttifaqı tərəfindən: 1) "Bozin" Sabunçu dairəsi mədən müdiri; 2) Bakı Neft Cəmiyyətinin 15-ci uçastok mədən müdiri müavini; fəhlələr tərəfindən isə üç nəfər mədən komiss[iy]aları dəxi hazır idilər.

Fəhlələrin 18 maddə ilə canibi-Nəzarətlərinə təqdim etmiş olduqları şikayət vərəqəsi müfəttiş əfəndiləri tərəfindən mövqeyi-təhqiqata vəz edilib [təhqiqata qoyularaq], maddələr əksəriyyən yekdigərinə mərbut [bir-birinə bağlı] bulunduqlarından, 9 maddə intixab edildi [seçildi]. Şu maddələrdə müddəaleyh [haqqında iddia qaldırılan] və müddəilər [iddiaçılar] istintaq edilərək, tərəfeynin [hər iki tərəfin] təqriratı səbt edildikdən [ifadələri qeyd edildikdən] sonra təhqiqat dairəsindən kənar edildilər.

Şikayət maddələri və tərəfeynin təqriratı tədqiq və mühakimə edilmək üzrə müfəttiş əfəndiləri tərəfindən mövqeyimüzakirəyə vəz edilərək [müzakirəyə qoyularaq], şikayət maddələrinin hər birində mühəndis qüsurlu, yaxud şikayətçilər haqsız olduğu xüsusunda məhakimlərdən [mühakimə edənlərdən] hər kəs kəndi nəzəriyyat və düşüncəsini bəyan etməsi xahiş edildi.

Hər bir maddə xüsusunda əvvəla "Müsavat" nümayəndələrinin, mütəaqibən [onların ardınca] Mühəndislər İttifaqı nümayəndələrinin, daha sonra mədən komissiyalarının nəzəriyyatı səbt [qeyd] edilirdi.

Yüzləri mütəcaviz [keçən] əmələ bir nəfər əleyhinə izharitəzəllüm etmələri [zülmündən şikayət etmələri] həman bir nəfərin zalım olmasına bürhaniqati [şübhəsiz dəlil] olduğundan maəda [əlavə], bütün maddələrdə "Müsavat" nümayəndələri və mədən komissiyaları mühəndisi məntiqi dəlillərlə qüsurlu görürlərdi. Mühəndislər İttifaqı nümayəndələrinə gəldikdə, təbii, sənələr müqəddəmdən [əvvəldən] əmələnin başında amirimütləq [mütləq başçı] kəsilərək qatı istibdad yeridə gəldikləri halda, fəqət nüfuz nöqteyi-nəzərindən tam mənası ilə mühəndisi qüsursuz, şikayətçiləri isə haqsız göstərməyə səy edəcəklərdi. Calibi-diqqət [diqqəti çəkən] nöqtə yalnız burasıdır ki, müfəttiş cənabları hökumət tərəfindən ehqaqi-haqq və təhrriyi-həqiqət üzrə [ədaləti icra etmək və həqiqəti axtarmaq üçün] ezam edilmiş məmur deyil, mühəndisi-məzkurun [adı çəkilən mühəndisin] parası ilə əcir tutulmuş [pulla tutulmuş, günəmuzd işləyən] müdafiəçi vəkil kimi mühəndis[i] tənzih etməkdə [təmizə çıxarmaqda] ciddiyyəti-fövqəladə ilə bəzli-məsai edirdi [ciddcəhdlə səy göstərirdi].

Mədən komissiyaları müfəttiş əfəndilərinin hərəkatından dilgir [dilxor] olaraq, "Hökumət də zalımlar müdafiəyi [müdafiəçisi] olduqda, nərədən ümid gözləməliyiz?" deməslərinə qarşı, "Əfəndilər?! Fabrika müfəttişi hökumət deyil, bir nəfər məmurdur. Şikayətinizdə haqlı olduğunuz təhəqqüq edərsə [meydana çıxarsa], Məsai Nəzarəti-cəliləsində haqqınız tam mənası ilə nəzərə alınaraq, ehqaq edilməsinə [hüququnuzun təmin edilməsinə] əmin olunuz!" deyə cavab verdimsə də, fəhlə komissiyalarının kədər və infialına təxfif vermədi [kədər və qəzəbini yüngülləşdirmədi]. Binaənileyh [ona görə], fəhlələrə qənaətbəxş bir üsul ilə ixtilafın bərtərəf edilməsinə [aradan qaldırılmasına] müsaidə buyurulması rica olunur.

Balaxanı, Sabunçu mədənlər mərkəzi "Müsavat" katibi
Yusifzadə Əbdürrəhim

Balada mühərrər keyfiyyət mütabiqivaqedir [Yuxarıda yazılanlar həqiqətə uyğundur].

Məşhədi Həmid Paşazadə

AZƏRBAYCANDA

Salyandan

Bakı Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi tərəfindən təşkilat yapmaq üçün Salyana göndərilən Hacı Mirzə Səlim əfəndi [Axundzadə] işbu həziranın 20-də bütün Salyan ürəfa və gənclərini klub salonuna dəvət etmişdi.

Vaqti-müəyyənədə [müəyyən edilmiş vaxtda] dəvət edilən zəvati-möhtərəmə [möhtərəm şəxslər] salona toplandılar. İclasa bir nəfər müvəqqəti sədrlə bir nəfər katibin intixabı [seçilməsi] təklif edildi. Əksəriyyətara [səs çoxluğu] ilə İsmayıl bəy Hüseynzadə sədarətə, Rüstəm İskəndərzadə katibliyə intixab edildilər.

İbtida [əvvəla] Hacı Mirzə Səlim əfəndi firqə xüsusunda və "Müsavat"ın fəaliyyəti babında bəyanat verdi. Salyanda "Müsavat" şöbəsinin təşkili hazirun [iştirakçılar] tərəfindən təsvib edildikdən [bəyənildikdən] sonra mütəəllimlərimizdən [tələbələrimizdən] Yaqubov Əbdülhəmid əfəndi məqamixitabətə keçərək köhnə idarədə çalışmış üzvlərin fəaliyyətsizliyindən və sairədən bəyanat verdikdən sonra bu dəfəki seçkidə isə sabiqdəki vəch üzrə [keçmişdəki kimi] qəflət edilməməsini və intixab olunacaq zatın çalışqan və ləyaqətli zəvatdan olmasını hazirundan rica etdi.

Bədəhu [sonra] seçkiyə şüru edilib [başlanıb], bu adamlar seçildilər:

1) Mehdi Bədəlov;
2) Rüstəm İskəndərzadə;
3) Əbdüssalam Səmədov;
4) Müseyib Məhəmmədov;
5) Əbdülhəmid Yaqubov;
6) Mehdi Tahirov;
7) Molla Hüseyn Qasımov;
8) Əsədulla Yaqubov;
9) İsmayıl bəy Hüseynzadə;
10) Mirzə Məhəmməd Zeynalov;
11) Zabihulla Mollazadə.

Bunlardan sədr – Əbdüssalam Səmədov; katib – Rüstəm İskəndərzadə; xəzinədar – Mehdi Bədəlov əfəndiləri intixab olundular.

Bu tarixdən etibarən firqə üçün üzvlər yazılmağa başlamışdır. Firqənin gələcək fəaliyyəti babında məlumat veriləcəkdir.

[Rüstəm] İskəndərzadə

Lənkəran əhvalı

"Azərbaycan" qəzetəsinin müxbiri teleqrafla xəbər verir ki, Lənkəranda atılan top səsləri Xanqışlaqda eşidilir. Tacirlər həbsxanaya salınmışlar. Bolşeviklər onları buraxmaq üçün 8 milyon istəyirlər. Bolşeviklər 26 yaşından 45 yaşına qədər müsəlmanları güclə əsgər aparırlar. Şəhərin halı fənadır. Hər tərəfdən şəhər yandırılmışdır. Bolşeviklər ermənilərlə bərabər Sara cəzirəsinə [adasına] cəm olmuşlar. Xanqışlaq əhvalı da qorxuludur.

Parlaman üzvü:
[Hacı Mirzə Səlim] Axundzadə

Lənkəranda bolşevik hökuməti dağılmışdır

İdarəmizdə alınan mövsuq [etibarlı] xəbərlərə görə, Lənkəranda olan bolşevik hökuməti Muğan kəndliləri tərəfindən dağıdılmışdır. Əhvalat belə olmuşdur:

Bolşevik hökuməti məhəlli [yerli] dövlətlilərdən 8 milyon manat istəmişdir. Bu məbləğ verilənə kimi 60 nəfərə qədər məhəlli dövlətlilər, o cümlədən Axundov, Əliyev və Abdullayev qardaşları həbsə alınmışlar. Şimali Muğan kəndliləri bu əhvalatdan xəbərdar olub bir para adamların azad edilməsini ultimatumvari tələb etmişlərdir. Bu tələbata əməl edilməmişdir. İyunun 25-də axşam neçə min nəfərdən ibarət muğanlılar Lənkəranı mühasirə etmişlərdir. Müxtəsər bir müharibə olmuşdur. Bolşeviklərin bir hissəsi lodkalarda Sara cəzirəsinə, bir hissəsi Salyana qaçmışdır. Xəbər verirlər ki, bolşevikləri təqib eyləmək üçün adamlar göndərilmişdir. Bolşevik başçılarından 10 nəfəri muğanlılar tərəfindən tutulmuşdur.

TEATRO VƏ MUSİQİ

Eydi-fitr [Oruc bayramı] münasibətilə düşənbə [bazar ertəsi] günü şəvvalül-mükərrəmin 1-də Hökumət Teatrosunda türk aktyorları tərəfindən gündüz tamaşası olmaq üzrə məzhəkə surətində "Leyli-Məcnun", axşam isə "Aşıq Qərib" operaları mövqeyi-tamaşaya vəz ediləcəklərdir [tamaşaya qoyulacaq]. Gündüz tamaşası günorta saat 1-də, axşam tamaşası isə 8-də başlanacaqdır.

Axşam tamaşası

Bayram günü eydi-fitr münasibətilə axşam saat 8 yarımda Fəhlə Klubunda İraniyanilər Maarif Cəmiyyəti "Tərəqqi" nin nəfinə [xeyrinə] nümayiş veriləcəkdir. Nümayişdə cəmiyyətin həvəskar üzvləri iştirak edəcəklərdir. Biletlər satılır indidən "Novbahar" lokantasında və Həsən Möhsünzadənin qənnadı mağazasında. Tamaşa günü kassada cəmiyyətin üzvləri üçün biletlər pulsuz olduğuna görə, üzvlük vərəqələrini özləri ilə gətirməlidirlər.

Tiflis səyahəti

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti öz aktyorları ilə bərabər iyul ayının 1-də Bakıdan Gürcüstan paytaxtı Tiflis şəhərinə əzimət edəcəklərdir [yola düşəcəklər]. Orada Hökumət Teatro binasında Azərbaycan lisanında Azərbaycanda ən məşhur opera, operetta və drama tamaşalarını göstərəcəkdir. Bakıda isə əcalətən [təcili surətdə] axırıncı tamaşa olaraq eydi-fitr münasibətilə düşənbə günü şəvval ayının 1-də Hökumət Teatrosunda məşhur "Aşıq Qərib" operası oynanılacaqdır. Biletlər indidən teatro kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-də.

İtibdir

Mirvat Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, "Vastoçnı" Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 girvənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan saqitdir [etibarsızdır].

10260

Elan

Zaqafqazın sünniməzhəb idarəsindən 1913-cü sənədə avqustun 7-də nömrə 1317 ilə Göyçay qəzasının Şahsünni qəryəsinin [kəndinin] əhli Molla Əbdülkərim İsa əfəndi oğluna məscid mollasının ləqəbinə verilən attestatı məfqud [itirilmiş] olduğundan, ləğv və etibardan saqit hesab olunduğu ümuma elan edilir.

Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyuba-Şevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

10208

Xüsusi müsəlman təvəllüdxanası
Gövhər xanım Qazızadə

Vəzihəml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

T-321

Diş həkimi B. L. Levin

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş ıbıxğı laboratoriyası vardır. Qızıl əngəl, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

10257

Berlin Darülfünunu doktoru
S. İ. Kopeloviç

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

8765

Diş həkimi
S. M. Hamburq

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

8756

Arvad diş həkimləri
Z. A. Şexter və xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün təzliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

8753

Doktor
S. İ. Zaks

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

8776

Diş həkimi
E. S. Karşteynbaumun

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrov küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

8779

Bakı "Obşestvenni Sobraniyası"

Düşənbə [bazar ertəsi] günü həziran ayının 30-da "Obşestvenni Sobraniya"nın namizədləri siyahısı səsə qoyulacaqdır. Nizamnamənin 14[cü] maddəsinə binaən [əsasən], həmin gün namizədlərin iclasa gəlmələri qadağandır.

T-163

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

"Azərbaycan"

"29 həziran 1919 sənə": qəzetdə "29" yerinə səhvən "28" getmişdir.

Müsəlman müəllimə və müəllimləri üçün iki aylıq kurslar

Bu elandakı rəqəmlərdə yanlışlıq var; qəzetdə belə getmişdir.

Barışıq imza edildi

"qövldən feilə": qəzetdə "qüvvədən feilə" getmişdir.

Sağ ayağımız da kəsilir

"şəhri-Babil": Babil şəhəri (və xüsusilə Babil qülləsi) klassik ədəbiyyatda qarışıqlığı, hərc-mərcliyi, bir-birinə yad, bir-birini başa düşməyən müxtəlif ünsürlərin toplandığı yeri təmsil edir.

"Yəcuc-məcuc": dini əfsanələrə görə, yer üzündə fitnə və qarışıqlıq çıxaracaq, qısa boylu və çirkin görünüşlü adamlardan ibarət iki tayfa; burada məcaz kimi işlədilmişdir.

Qəzetələrdən

"piastr": İspan pulu; burada "quruş" nəzərdə tutulur; türk "quruş"una Avropada bəzən "türk piastrı" deyilirdi.

"İqdam": 1894-1928-ci illərdə İstanbulda türk dilində nəşr edilən gündəlik siyasi və elmi qəzet. 1894-1910-cu illərdə "İqdam", 1910-1912-ci illərdə "Yeni İqdam", 1912-ci ildə bir müddət "İqtiham", 1912-1928-ci illərdə yenə "İqdam" adıyla nəşr edilmişdir.

"Kanton": Çinin cənubunda yerləşən Quançjou şəhəri keçmişdə Kanton adlanmışdır.

"Staraya Russa": Rusiyanın Novqorod vilayətində şəhər; qəzetdə "Staraya Rossiya" getmişdir.

"Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

Kurlandiya: Latviyanın bir qisminin tarixi adı.

"Yelizavetqrad": Ukraynanın Kirovoqrad vilayətinin inzibati mərkəzi.

"Hər yerdə ki, hökumət Qriqoryev adamları əlinə keçir…": qəzetdə "əlinə" yerinə "işə" getmişdir.

"Znamenka mövqifində": hal-hazırda Ukraynanın Kirovoqrad vilayətində Znamenka şəhəri.

"Y. V.": "Yekaterinodarskiye vesti" qəzeti nəzərdə tutulur.

"Kazan, Nijeqorod, Murom və Şimali dəmiryollar": qəzetdə bu adlardan bəziləri təhrif edilmişdir; Moskva-Kazan dəmiryolu, Moskva-Nijeqorod dəmiryolu, Murom dəmiryolu (Vladimir quberniyası ərazisində) və Şimal dəmiryolu nəzərdə tutulur.

"Avamlar Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

"Vanı (?) işğal etmişlərdir.": qəzetdə belə getmişdir.

Ordubad məktubları

Qoxtan: Ermənilərin Ordubad rayonunun bir qisminə verdikləri ad.

"Dağıstanın Xəlilovları": Könüllü ordunun Dağıstana rəhbər təyin etdiyi general Mikayıl Xəlilov nəzərdə tutulur.

"mauzerçilər": silahlı erməni quldurları; əsasən mauzerlə silahlandıqları üçün belə adlanırdılar.

"Qriqoryev və Maxno kimi macəracuların": Nikifor Qriqoryev və Nestor Maxno nəzərdə tutulur.

"çrezvıçayka": Rusiyada "qırmızı terroru" həyata keçirən Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyaları nəzərdə tutulur.

"prixod ruhanisi" (yaxud "prixod mollası"): camaatın ianələri hesabına saxlanan ruhani.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"üç maddə qəbul edilmişdir": qəzetdə üçüncü maddə buraxılmışdır.

"Məsai Nəzarəti-cəliləsi": "böyük, uca, cəlallı" mənasına gələn "cəlilə" sözü rəsmi yazışmalarda nazirliklərin adına əlavə edilirdi.

"Fabrika müfəttişi": sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin əməkdaşı.

"Şikayətinizdə haqlı olduğunuz təhəqqüq edərsə…": qəzetdə "təhəqqüq" yerinə "təhqiq" getmişdir.

"Xanqışlaq": Salyan qəzasının kəndi.

"Sara adası" (yaxud Sarı adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

"dəmir kuporos": kimyəvi maddə; sulfat turşusunun dəmir duzu; mürəkkəb və boyaq istehsalında, kənd təsərrüfatında ağacların qorunmasında istifadə edilir. "Şahsünni" (yaxud Şahhüseynli): Zərdab rayonunun kəndi.

İqtisadiyyat və sosial həyat

Birillik əkin aparan fermerlərin kredit faizlərini dövlət ödəyəcək

Kənd Təsərrüfatı Nazirliyi birillik əkin aparan fermerlərə yeni dəstək mexanizminin tətbiqinə başlayır. Yeni dəstək aləti aqrar sahəyə özəl sektor vəsaitlərinin yönəldilməsini təşviq edəcək.

Əsas məqsəd kredit faizlərinin dövlət tərəfindən qarşılanması yolu ilə aqrotexniki xidmətlər üçün maliyyə əlçatanlığını yaxşılaşdırmaq və aqrar sahənin inkişafına töhfə verməkdir.

Aqrar Subsidiya Şurasının qərarı ilə banklar tərəfindən fermerlərə ayrılacaq əkin məqsədli kreditlərin illik faiz dərəcəsinin dövlət büdcəsi hesabına maliyyələşdirilən hissəsi 19 faizədək müəyyən edilib.

Bu kreditlər çəltik, qarğıdalı, darı, sorqo, digər dənli və dənli-paxlalı bitkilər (buğda, arpa, çovdar, vələmir, qarabaşaq, noxud, lobya, mərci və s.), həmçinin günəbaxan, kartof, tərəvəz və bostan bitkiləri, eləcə də texniki bitkilər - pambıq, şəkər çuğunduru, tütün və soya əkən fermerlərə veriləcək.

Yeni mexanizmin əsas üstünlüyü ondan ibarətdir ki, kənd təsərrüfatı istehsal vasitələrinin, o cümlədən mineral gübrələrin, biohumusun, sertifikatlı toxumların və pestisidlərin alınması, həmçinin aqrotexniki xidmətlərdən istifadə məqsədilə götürülən və müddəti 1 ili keçməyən kreditlər üzrə hesablanan faizlər Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən qarşılanacaq. Fermerlər müddətin sonunda kreditin yalnız əsas məbləğini banka geri ödəyəcəklər.

Subsidiya vəsaitlərinə ən çox əkin mövsümünün əvvəlində ehtiyac yaranır. Subsidiya ödənişləri isə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) bəyan dövrü bitdikdən və yoxlama prosesi başa çatdıqdan sonra həyata keçirilir. Məhz bu məqam nəzərə alınaraq, fermerlərə əkin mövsümündə ehtiyacları olan vəsaiti daha tez əldə etmələri üçün faizləri dövlət tərəfindən ödənilən kreditlərdən faydalanma imkanı yaradılıb. Bunun üçün onlar banklara və bank olmayan kredit təşkilatlarına müraciət edə bilərlər. Qeyd edək ki, fermerlər tərəfindən götürülən kreditlərin faizləri Azərbaycan Respublikası Prezidentinin 5 mart 2026-cı il tarixli "Kənd təsərrüfatında güzəştli maliyyələşdirmə barədə bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" fərmanına əsasən, dövlət büdcəsi hesabına AKİA tərəfindən maliyyələşdiriləcək.

Azərbaycanın statistik təcrübəsinə Belarusda maraq var

Belarusun paytaxtı Minskdə "MDB statistikasının inkişafı" layihəsi çərçivəsində "Cəmiyyətə nəsillər prizmasından statistik baxış" mövzusunda tədbir keçirilib.

Üç gün davam edən tədbirdə məlumatların toplanması və təhlili, statistik göstəricilərin müqayisəliliyinin təmin edilməsi, əhalinin müxtəlif qrupları üzrə sosial-iqtisadi proseslərin öyrənilməsi, habelə cari statistik uçotun və statistik müayinələrin aparılması ilə bağlı məsələlər müzakirə olunub. Tədbir çərçivəsində metodoloji və texnoloji yanaşmaların təkmilləşdirilməsi istiqamətində təqdimatlar dinlənilib, təcrübə mübadiləsi aparılıb.

Tədbirdə iştirak edən Dövlət Statistika Komitəsinin Sosial statistika şöbəsinin müdiri Elçin Hacı və Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev "Azərbaycanda əhalinin təhsil səviyyəsi" və "Azərbaycanda nəsillər statistikası: yaş qrupları bölgüsündə əhalinin sosial-iqtisadi göstəriciləri" mövzularında təqdimatlarla çıxış ediblər.

Təqdimatlar zamanı Azərbaycanda uşaqlar, gənclər, əmək qabiliyyətli və "yaşlı əhali" qrupları üzrə əsas demoqrafik göstəricilər, eləcə də əhalinin təhsil səviyyəsinə dair statistik məlumatlar iştirakçıların diqqətinə çatdırılıb. Tədbir çərçivəsində nəsillər statistikasının hazırlanması və təqdim edilməsi sahəsində tətbiq olunan yanaşmalar müzakirə olunub.

İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olaraq qalır

Cari ilin əvvəlindən Azərbaycan dünyanın 157 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib. Bu müddətdə 107 ölkəyə məhsul ixrac edilib, 145 ölkə ilə idxal əməliyyatları aparılıb. Ən son rəsmi göstəricilərə əsasən, ticarət dövriyyəsinin həcminə görə ölkəmizin ilk beşliyə daxil olan əsas ticarət tərəfdaşları İtaliya, Türkiyə, Çin, Rusiya və ABŞ-dir.

İlin ilk dörd ayında Azərbaycanın ən çox məhsul ixrac etdiyi Avropa İttifaqına (Aİ) üzv ölkələr İtaliya, Yunanıstan və Bolqarıstan olub. Bu müddətdə həmin ölkələrə müvafiq olaraq 3 milyard 709 milyon 589,52 min, 336 milyon 604,47 min və 335 milyon 603,44 min dollar dəyərində mal ixrac edilib.

Dövlət Statistika Komitəsinin Dövlət Gömrük Komitəsinə istinadən verdiyi bu məlumat da təsdiqləyir ki, Azərbaycanın ən çox mal ixrac etdiyi Aİ-yə üzv ölkə İtaliyadır. Yeri gəlmişkən, sözügedən dövr ərzində Azərbaycan İtaliyadan 153 milyon 889,28 min ABŞ dolları dəyərində mal idxal edib. İtaliya ilə ticarət əlaqələrinə aid bu göstəricilər Azərbaycanın ümumi ixracının 31,23, ümumi idxalının isə 2,79 faizini təşkil edib.

Ümumiyyətlə, İtaliya Azərbaycanın ən böyük xarici ticarət tərəfdaşı və Aİ məkanında əsas ixrac bazarıdır. İllik ticarət dövriyyəsi on milyardlarla dollarla ölçülür və bu ticarətin əsası enerji daşıyıcılarının (xam neft və təbii qaz) ixracıdır. 2025-ci ildə Azərbaycan və İtaliya arasında ticarət əməliyyatlarının həcmi illik müqayisədə 4,1 faiz artaraq 11,86 milyard dollar təşkil edib. Bu rəqəmin təxminən 11,3 milyard dolları Azərbaycanın bu ölkəyə olan ixracının payına düşür. 2024-cü ildə isə illik ticarət dövriyyəsi 11,39 milyard dollar olub. Bu faktlara əsasən, İtaliya Azərbaycanın ümumi ticarət dövriyyəsində təxminən 24-25 faizlik paya sahibdir.

İtaliya Azərbaycan xam neftinin ən böyük alıcısı və "Cənub qaz dəhlizi" vasitəsilə təbii qazın əsas istehlakçılarından biridir. Ötən il Azərbaycandan İtaliyaya 9,5 milyard kubmetr təbii qaz və təxminən 10 milyon ton neft tədarük olunub. Göründüyü kimi, İtaliya Azərbaycandan əsasən enerji daşıyıcıları idxal edir. Bu ölkə illərdir Azərbaycan məhsullarının, xüsusən də neft-qaz sektoru məhsullarının dünyadakı ən böyük alıcısı və əsas ticarət tərəfdaşımızdır.

İtaliya ölkəmizin ixrac etdiyi xam neftin (əsasən Azeri Light və Azeri Blend) yarıdan çoxunu alır. Azərbaycan nefti İtaliyanın ümumi neft idxalında mühüm paya malikdir. "Cənub qaz dəhlizi"nin Avropa qolu olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə nəql edilən təbii qaz İtaliyanın enerji təhlükəsizliyində əsas rol oynayır və Azərbaycan ölkənin ən böyük qaz təchizatçılarından biridir. Başqa sözlə, İtaliyaya milyardlarla kubmetr "Şahdəniz" təbii qazı nəql olunur və bu, həmin ölkənin qaz balansında ikinci yeri tutur.

Lakin bunlar o demək deyil ki, İtaliya bizdən digər məhsullar almır. İtaliyaya ixracın strukturunda qeyri-neft sektorunun məhsullarının da öz yeri var. Bu, plastik kütlələr, alüminium, meyvə-tərəvəz və toxuculuq məhsullarıdır.

İtaliyadan Azərbaycana idxalı göstərən rəqəmlərə də nəzər salaq. İdxal rəqəmləri ixracla müqayisədə xeyli kiçikdir. 2025-ci ildə Azərbaycanın İtaliyadan idxalı 518,1 milyon dollar təşkil edib. Ölkəmizə 2095 fərqli məhsul kodu üzrə müxtəlif təyinatlı mallar daxil olub. İtaliyadan əsasən nəqliyyat vasitələri, sənaye avadanlıqları, maşın və mexanizmlər gətirilir. Qeyd olunduğu kimi, illik həcmi yarım milyard dollar civarında olan bu idxal daha çox qeyri-neft sektorunu əhatə edir.

Beləliklə, İtaliyadan idxal olunan əsas məhsul qrupları: maşın və mexanizmlər - sənaye avadanlıqları, qazanlar, turbinlər və digər mexaniki qurğular. Digər bir qrup əczaçılıq məhsulları - dərman vasitələri və tibbi ləvazimatlardır. İdxalda qida və kənd təsərrüfatı məhsulları, o cümlədən müxtəlif konservləşdirilmiş ət məhsulları, zeytun yağı və içkilər də özünə yer alır. İtaliyadan eləcə də nəqliyyat vasitələri və onların hissələrini də idxal edirik. Bu qrupa avtomobillər və müxtəlif texniki nəqliyyat vasitələri daxildir. İtaliyadan alınan məhsullar arasında digər sənaye malları da var. Bunlar ən müxtəlif sahələri əhatə edir. Bu sırada kosmetika, mebel, dəri məmulatları və qara metallardan hazırlanan məmulatlar dayanır.

Flora SADIQLI,
"Azərbaycan"

● WUF13-ün iştirakçıları

Xəzərin dalğaları arasında...

"AzSafety Production" regionda ən etibarlı təhlükəsizlik şirkətlərindən sayılır

Bu gün dəniz nəqliyyatı və offşor sənayesi qlobal iqtisadiyyatın ən mühüm sütunlarından biri hesab olunur. Dünyanın enerji təchizatının, beynəlxalq ticarətin və strateji logistik əməliyyatların əhəmiyyətli hissəsi məhz dənizlər üzərindən həyata keçirilir. Bu sahədə fəaliyyətin miqyası genişləndikcə təhlükəsizlik məsələləri də daha böyük önəm qazanır. Çünki dənizdə baş verə biləcək ən kiçik nasazlıq belə insan həyatı, ətraf mühit və iri iqtisadi layihələr üçün ciddi nəticələrə səbəb ola bilər.

Bəri başdan qeyd edək ki, "offşor sənaye" dedikdə dəniz və ya okean sahillərindən uzaqda həyata keçirilən sənaye fəaliyyətləri nəzərdə tutulur. Bu termin ən çox neft-qaz hasilatı ilə əlaqələndirilsə də, dənizdə külək elektrik stansiyaları, sualtı tikinti və digər dəniz layihələrini də əhatə edə bilər. Ona görə də belə mürəkkəb və yüksək riskli sahələrdə fəaliyyət göstərərkən təhlükəsizlik hər zaman prioritet olmalıdır. Dəniz və offşor əməliyyatlarda təhlükəsizlik yalnız texniki avadanlıqla ölçülmür. Bu, insanların həyatını, maddi resursların qorunmasını və əməliyyatların fasiləsiz davam etməsini təmin edən kompleks prosesdir. Hər bir qərar, yoxlama və texniki xidmət dənizdəki riskləri minimuma endirmək məqsədilə həyata keçirilir.

Xəzər regionunda dəniz və offşor əməliyyatların mürəkkəbliyi xüsusi yanaşma tələb edir. Burada beynəlxalq standartlar, müasir texnologiyalar və qabaqcıl təhlükəsizlik prinsipləri ilə ayaqlaşmaq da vacibdir. Bu deyilənlərə uyğun fəaliyyət göstərən "AzSafety Production" şirkəti regionda etibarlı və tam əhatəli təhlükəsizlik xidmətləri təqdim edən aparıcı şirkət kimi seçilir və uzun illərdi bu tələblərə cavab verir. Gəmilərdən tutmuş offşor platformalara qədər geniş spektrdə xidmətlər göstərir. Təklif etdiyi fəaliyyət sahələri fərdi qoruyucu vasitələrdən (FQV/PPE), xilasedici sallardan və qayıqlardan yanğınsöndürmə sistemlərinə, eləcə də evakuasiya və təxliyə proseslərinə qədər uzanır. Belə kompleks yanaşma şirkəti regionda aparıcı təhlükəsizlik tərəfdaşına çevirir.

Şirkətin fəaliyyətinin əsas dayağı keyfiyyət və etibarlıqdır. Hər bir avadanlıq və xidmət beynəlxalq standartlara uyğun olaraq yoxlanılır və sertifikatlaşdırılır. SOLAS və IMO tələbləri, ISO standartları və MED (Wheelmark) sertifikatları "AzSafety Production"ın əməliyyat prinsiplərini formalaşdırır. Bu yanaşma müştərilərin əməliyyatlarının fasiləsiz və təhlükəsiz aparılmasını təmin etməklə yanaşı, auditlərdən uğurla keçməyə və beynəlxalq sertifikatlara malik olmağa imkan yaradır. Bu prinsiplər şirkətin fəaliyyətində təkcə gündəlik əməliyyatlarda deyil, həm də beynəlxalq tədbirlərdə və sənaye platformalarında özünü göstərir. Son olaraq "AzSafety Production" "Bakı-Ekspo" Mərkəzində keçirilən 31-ci Xəzər Neft və Qaz ("Caspian Oil and Gas") sərgisində də fəal şəkildə iştirak edib. Bu iştirak şirkətin sahə üzrə təcrübəsini və beynəlxalq əməkdaşlıqlara açıq olduğunu bir daha nümayiş etdirir. Sərginin keçirildiyi günlərdə Ekspo Mərkəzində olarkən şirkətin pavilyonuna yaxınlaşıb təmsilçilərlə söhbət etdik.

"AzSafety production" şirkətinin satış və əməliyyatlar üzrə meneceri Elçin Məmmədzadə qurumun fəaliyyəti ilə bağlı fikirlərini bölüşdü: "Şirkətimiz 2018-ci ildən fəaliyyət göstərir və həmin dövrdən etibarən Xəzər regionunda dəniz və offşor təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olaraq özünü tanıdıb. Başlanğıcda əsas məqsədimiz təhlükəsizlik avadanlıqlarının təchizatını və texniki xidmətini peşəkar səviyyədə təmin etmək idi, lakin zaman keçdikcə işimizin əhatə dairəsi genişləndiyi üçün tam inteqrasiya olunmuş xidmət və məhsullar təqdim etməyə başladıq. Beynəlxalq standartlara uyğunluq, sertifikatlaşdırılmış texniki heyət və müştəri məmnuniyyətinə fokuslanmaq bizim fəaliyyətimizin əsas prinsipləridir. Əməliyyatın etibarlı və fasiləsiz aparılması üçün proseslərin hər mərhələsində ciddi yoxlamalar aparılır və avadanlıqların tam işlək vəziyyətdə olması təmin edilir. Biz yalnız məhsul təqdim etmirik, həm də müştərilərimizin təhlükəsizliyini təmin edən uzunmüddətli dəstək mexanizmləri təqdim edirik".

Elçin Məmmədzadə vurğuladı ki, şirkətin əsas üstünlüklərindən biri regionda qlobal təchizatçılarla qurulan möhkəm əlaqələrdir: "Bu əməkdaşlıqlar sayəsində müştərilərimiz yüksəkkeyfiyyətli və sertifikatlaşdırılmış avadanlıqlara çıxış əldə edir, həmçinin bütün proseslər yerli və beynəlxalq tələblərə uyğun həyata keçirilir. Məqsədimiz sadəcə satış etmək deyil, dəniz və offşor əməliyyatlarda etibarlı tərəfdaş olmaqdır. Bunun üçün komandamız 24 saat xidmət göstərir və hər bir texniki məsələni operativ həll edir. Bu, təkcə avadanlığın vaxtında çatdırılması və texniki xidmətin göstərilməsi ilə məhdudlaşmır. O, fövqəladə hallarda sürətli müdaxilə, preventiv yoxlamalar və əməliyyat dəstəyi ilə müşayiət olunur. Belə yanaşma şirkəti regionda etibarlı tərəfdaş edir, çünki hər bir müştərinin ehtiyacı vaxtında və dəqiq şəkildə qarşılanır".

Təhlükəsizliyin əsasını formalaşdıran ikinci vacib komponent peşəkar komandadır. Şirkətin sertifikatlaşdırılmış texniki heyəti texniki xidmət göstərməklə yanaşı, riskləri qabaqcadan müəyyənləşdirir, problemlərin yaranmasının qarşısını alır və əməliyyatların fasiləsizliyini təmin edir. Xilasedici salların, qayıqların və davit sistemlərinin sınaq və texniki xidməti, yanğınsöndürmə avadanlıqlarının yoxlanılması və fərdi qoruyucu vasitələrin təminatı komandamızın hər gün icra etdiyi işlərin yalnız bir hissəsidir. Elə buradaca məlumat üçün bildirək ki, davit sistemi dəniz və offşor əməliyyatlarda istifadə olunan xüsusi bir qurğudur. Sadə dillə desək, davit gəmilərdə, platformalarda xilasedici qayıqları, xilasedici salları və digər ağır avadanlıqları suya endirmək, həmçinin geri qaldırmaq üçün istifadə olunan mexaniki dəstək sistemidir.

"AzSafety Production"ın uğurunun başqa bir səbəbi qlobal təchizatçılarla qurulan möhkəm əməkdaşlıqdır. Şirkət yalnız yüksəkkeyfiyyətli və sertifikatlaşdırılmış avadanlıq təklif etmir, həm də yerli qanunvericilik və regionun spesifik əməliyyat tələblərini nəzərə alaraq hər bir layihəni fərdi şəkildə idarə edir. Təhlükəsizlik təkcə avadanlığın keyfiyyəti ilə ölçülmür. O, həm də şirkətin iş prinsipləri, idarəetmə sistemi və əməliyyatların düzgün təşkil olunması ilə müəyyən edilir. Bu yanaşma şirkətin ümumi fəaliyyət fəlsəfəsini və strateji baxışını formalaşdıran əsas amillərdən biridir.

Nəticə etibarilə "AzSafety Production" offşor platformalar, kommersiya gəmiləri və sənaye obyektləri idarə edənlərin hər zaman yanındadır və təhlükəsizlik ehtiyaclarını ən yüksək səviyyədə qarşılayır. Avadanlıqdan tutmuş texniki xidmət və sertifikatlaşdırmaya qədər bütün mərhələlərdə operativlik, peşəkarlıq və etibarlılıq təmin olunur ki, bu da "AzSafety Production"ı dəniz və offşor əməliyyatların etibarlı tərəfdaşı edir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Azərbaycanın süni intellekt və rəqəmsal iqtisadiyyatı Ankarada təqdim olunub

İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov Türkiyəyə səfəri çərçivəsində Ankarada keçirilən "AI Tomorrow Summit 2026" tədbirində iştirak edib.

Türkiyənin Süni İntellekt Siyasəti Assosiasiyasının (AİPA) təşkilatçılığı ilə keçirilən tədbir süni intellekt, etik dəyərlər, qlobal məsuliyyət və texnoloji innovasiyalar sahəsində aparıcı platformalardan biri hesab olunur.

Fariz Cəfərov "Qlobal idarəetmə: ortaq inkişaf yolunun müəyyənləşdirilməsi" adlı panel sessiyada spiker qismində çıxış edərək Azərbaycanın süni intellekt və rəqəmsal iqtisadiyyat sahələrində həyata keçirdiyi təşəbbüslər, strateji prioritetlər və bu istiqamətlərdə görülən işlər barədə iştirakçılara məlumat verib.

Qeyd edək ki, 2025-ci ildə 4SİM və AİPA arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Bu əməkdaşlıq süni intellekt, innovasiya və rəqəmsal transformasiya sahələrində qarşılıqlı təcrübə mübadiləsinə töhfə verir. "AI Tomorrow Summit 2026" tədbirinə dövlət və hökumət nümayəndələri, özəl sektor, beynəlxalq təşkilatlar, elmi dairələr və texnologiya şirkətlərindən 60-dan çox spiker və 6000-dən çox iştirakçı qatılıb.

Səfər çərçivəsində, həmçinin AİPA və MEXT Texnologiya Mərkəzinin rəhbərliyi ilə görüşlər keçirilib. Görüşlərdə cari layihələr üzrə növbəti addımlar, o cümlədən MEXT ilə Yeni Nəsil Texnologiyalar Mərkəzi və müəssisələrin rəqəmsal transformasiyası istiqamətində əməkdaşlıq, AİPA ilə süni intellekt sahəsində tərəfdaşlığın genişləndirilməsi, eləcə də Türkiyə və Azərbaycan şirkətləri üçün təqdimat turlarının təşkili müzakirə olunub. Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın inkişafına dair strategiya çərçivəsində digər potensial əməkdaşlıq imkanlarına da toxunulub.

Yanvar-may aylarında 19,4 min şəxsə əlillik təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-may ayları ərzində 19,4 min şəxsə əlillik təyin edilib.

Onlardan 8,6 min şəxsə ilkin, 10,8 min şəxsə isə təkrar əlillik təyinatı aparılıb.

Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir.

Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

"AzerGold" QSC-də Kəlbəcərin Söyüdlü (Zod) qızıl yatağı layihəsinin icra vəziyyəti nəzərdən keçirilib

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev "AzerGold" QSC-də Söyüdlü (Zod) qızıl yatağı layihəsi üzrə aparılan işlərlə tanış olub.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Qafqaz regionunun ən böyük qızıl yatağı hesab edilən Zod yatağında dövlət şirkəti tərəfindən həyata keçirilən fəaliyyət barədə ətraflı məlumat verib. O bildirib ki, 2025-ci ilin avqust ayından etibarən genişmiqyaslı geoloji tədqiqat işlərinə başlanılıb, mövcud tarixi geoloji məlumatlar təhlil olunub. Eyni zamanda yatağın müasir metodlarla planlaşdırılması həyata keçirilib, topoqrafik xəritələr hazırlanıb, yataqda ümumi dərinliyi 9 min metrə çatan buruq-qazma işləri icra edilib. Zakir İbrahimov diqqətə çatdırıb ki, tədqiqat işlərinin nəticəsi olaraq Zod qızıl yatağının çıxarıla bilən qalıq ehtiyatları faydalı qazıntı yataqlarının iqtisadi qiymətləndirilməsi üçün beynəlxalq səviyyədə qəbul edilmiş JORC (Joint Ore Reserves Committee) standartlarının tələblərinə uyğun olaraq 1,03 milyon unsiya həcmində hesablanıb.

İdarə Heyətinin sədri vurğulayıb ki, yatağın resurs bazasının artırılması potensialı nəzərə alınaraq yaxın və uzaq cinahlarda intensiv kəşfiyyat işləri davam etdirilir.

Z.İbrahimov əlavə edib ki, Zod qızıl yatağının işlənməsi ölkənin dağ-mədən sənayesinin iqtisadiyyatda rolunun daha da güclənməsinə xidmət edəcək. Müasir texnologiyalar və beynəlxalq ekoloji standartlar əsasında yatağın gələcəkdə kompleks şəkildə istismara cəlb olunması regionun uzunmüddətli sosial-iqtisadi inkişafına, ölkənin qeyri-neft-qaz sektorunun tərəqqisinə müsbət təsir göstərəcək. Kəlbəcər rayonunda yeni iş yerlərinin yaradılması, peşəkar kadr hazırlığının gücləndirilməsi, xidmət və logistika sahələrinin inkişafı, eləcə də yerli sahibkarlığın genişlənməsi üçün əlavə imkanlar yaranacaq.

Bəşir Hacıyev Kəlbəcər rayonunda dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri ilə paralel olaraq regionun zəngin təbii sərvətlərinin iqtisadi dövriyyəyə cəlb olunması istiqamətində görülən işlərin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Qeyd edilib ki, bu baxımdan, Zod yatağının işlənməsi layihəsi rayonun sosial-iqtisadi inkişafına və məşğulluğun artırılmasına mühüm töhfə verəcək strateji layihə hesab olunur. Layihə işğaldan azad edilmiş ərazilərin iqtisadi reinteqrasiyası, həmin ərazilərin ölkənin ümumi iqtisadi sisteminə daha sıx inteqrasiyası və dayanıqlı məskunlaşma prosesinin dəstəklənməsi baxımından da mühüm rol oynayır. Layihənin həyata keçirilməsi Kəlbəcərin iqtisadi potensialının reallaşdırılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə əlavə imkanlar yaradacaq.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -156 (yüz əlli altı) **manat**
6 aylıq - 78 (yetmiş səkkiz) **manat**
3 aylıq - 39 (otuz doqquz) **manat**
1 aylıq - 13 (on üç) **manat**

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

DÇ-2026 FIFA-ya 9 milyard dollar gəlir gətirə bilər

FIFA-nın dünya çempionatından iqtisadi və media baxımından rekord nəticələr əldə edəcəyi proqnozlaşdırılır.

AZƏRTAC "Marca"ya istinadən xəbər verir ki, "Global Market Intelligence"in hesabatında turnirin FIFA-ya ümumilikdə təxminən 9 milyard ABŞ dolları gəlir gətirəcəyi bildirilir. Bu göstəricinin dünya çempionatları tarixində rekord olduğu qeyd olunur.

Hesabatda göstərilir ki, gəlirlərin böyük hissəsi, yəni təxminən 3,9 milyard dolları televiziya yayım hüquqlarından əldə olunacaq. 48 komandanın iştirakı ilə 104 matçın keçirilməsi turnirin həm iqtisadi, həm də media təsirini artıran əsas amillərdən biri kimi qiymətləndirilir. Turnir ərzində stadionlara ümumilikdə 5 milyonadək azarkeşin cəlb olunacağı gözlənilir. Bilet satışlarından əldə olunacaq gəlirin əvvəlki dünya çempionatları ilə müqayisədə əhəmiyyətli dərəcədə artacağı və əlavə olaraq 950 milyon ABŞ dolları həcmində daha yüksək göstərici qeydə alınacağı bildirilir.

Proqnozlara görə, 2023-2026-cı illəri əhatə edən dünya çempionatı dövrü ümumilikdə 13 milyard ABŞ dolları həcmində gəlir gətirəcək. Növbəti dövr - 2030-cu ildə İspaniya, Portuqaliya və Mərakeşdə keçiriləcək dünya çempionatına qədər olan mərhələ isə 14 milyard ABŞ dolları gəlirlə daha yüksək göstərici nümayiş etdirəcək.

Digər bir hesabata əsasən, 2026-cı il mundialının qlobal ümumi daxili məhsula (ÜDM) 40,9 milyard dollar töhfə verəcəyini və dünyada 824 min yeni iş yerinin yaradılacağını göstərir. Bununla belə, hesabatlarda ABŞ-də turnirin iqtisadi təsirinin "məhdud və qısamüddətli" olacağı da vurğulanır.

Qeyd edək ki, dünya çempionatı iyunun 11-dən iyulun 19-dək ABŞ, Kanada və Meksikada keçiriləcək.

Bu gün 33 dərəcə isti olacaq

Azərbaycanda iyunun 11-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 18-21, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 25-28 dərəcə isti olacağı ehtimal edilir.

Dərimizi günəş şüalarından necə qoruyaq?

Yay mövsümü insanların ən çox açıq havaya üz tutduğu, dəniz və hovuz istirahətinin artdığı dövrdür. Günəşli hava və isti temperatur bir çox insan üçün enerji və rahatlıq mənbəyi sayılsa da, bu mövsüm dərimiz üçün ciddi risklər də yaradır. Xüsusilə son illərdə iqlim dəyişiklikləri nəticəsində temperaturun yüksəlməsi və ultrabənövşəyi şüaların daha güclü təsiri dəri problemlərinin artmasına səbəb olur.

Mütəxəssislərin fikrincə, ultrabənövşəyi (UV) şüalar dərinin vaxtından əvvəl qocalmasına, piqment ləkələrinin yaranmasına və dəri xərçəngi riskinin artmasına səbəb olan əsas amillərdəndir. İsti hava isə tərləməni artıraraq məsamələrin tutulmasına, akne və müxtəlif infeksiyaların yaranmasına şərait yaradır. Bu səbəbdən yay aylarında dəriyə qulluq, sadəcə, estetik məsələ deyil, həm də sağlamlığın qorunmasının vacib hissəsidir.

Yayda ən çox rast gəlinən dəri problemləri

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **həkim-dermatoloq Səidə ƏSGƏROVA**nın sözlərinə görə, yay mövsümündə dəri problemlərinin sayı əhəmiyyətli dərəcədə artır və xüsusilə həssas dəriyə sahib insanlar daha diqqətli olmalıdırlar: "Yay mövsümündə ən çox rast gəlinən problemlər arasında günəş yanıqları, günəş allergiyası, istilik səpkiləri, göbələk infeksiyaları, aknenin alovlanması, həşərat dişləmələrinə bağlı reaksiyalar, piqmentasiya ləkələrinin artması və herpes infeksiyalarının aktivləşməsi yer alır. Xüsusilə açıq rəngli dəriyə sahib insanlar, həssas dəri tipi olanlar, rozasea xəstələri, melazma və piqmentasiya problemi yaşayan şəxslər, həmçinin akne meyilli dəriyə malik insanlar yayda daha yüksək risk qrupuna daxildirlər. Günəş şüaları bu insanlarda dəridə qıcıqlanmanı və iltihabı daha sürətli artırır".

Dermatoloq bildirib ki, ultrabənövşəyi şüalar dərinin dərin qatlarına təsir edərək kollagen liflərinin zədələnməsinə səbəb olur. Bu isə zamanla dəridə elastikliyin azalmasına, qırışların yaranmasına və erkən qocalma əlamətlərinin meydana çıxmasına gətirib çıxarır. Bundan başqa, uzun müddət günəş altında qalmaq dəri hüceyrələrinin zədələnməsinə və gələcəkdə xərçəng riskinin yüksəlməsinə səbəb ola bilər. Yayda geniş yayılan problemlərdən biri də günəş allergiyasıdır. Bu, dərinin günəş şüalarına qarşı həddindən artıq reaksiyası nəticəsində yaranır. Əlamətləri arasında qaşınma, qızartı, kiçik səpkilər və bəzi hallarda qabarcıqlar yer alır. Bu əlamətlər adətən günəşə məruz qaldıqdan bir neçə saat və ya bir neçə gün sonra ortaya çıxır.

"Yay aylarında ən çox rast gəlinən problemlərdən biri də günəş yanıqlarıdır. Həkimin sözlərinə görə, xüsusilə SPF istifadə edilmədən uzun müddət günəş altında qalmaq dəri yanıqlarına yol açır. Günəşin ən təhlükəli saatları hesab olunan 11:00-16:00 aralığında birbaşa şüalara məruz qalmaq riskini daha da artırır. Günəş yanıqlarının əsas əlamətləri dəridə qızartı, ağrı, yanma hissi və şişkinlikdir. Daha ağır hallarda isə dəridə su toplanması müşahidə oluna bilər. Geniş sahədə qabarcıqlar yaranarsa, güclü ağrı hiss edilərsə, qızdırma, halsızlıq və başgicəllənmə müşahidə olunarsa, mütləq həkimə müraciət edilməlidir. Xüsusilə uşaqlarda və yaşlı insanlarda günəş yanıqları daha ağır keçə bilər", - deyə mütəxəssis qeyd edib.

Yayda herpes infeksiyalarının aktivləşməsi də tez-tez müşahidə olunur. Dermatoloq deyib ki, güclü günəş şüaları və immun sisteminin zəifləməsi virusun yenidən aktivləşməsinə səbəb ola bilər. Eyni zamanda stres və yuxusuzluq da dəri problemlərini artıran əsas amillər sırasındadır. Dəri sağlamlığını qorumaq üçün düzgün həyat tərzi də mühüm rol oynayır. Yay aylarında düzgün dəri baxımı bir çox problemin qarşısını ala bilər. İlk növbədə, dərinin gündə iki dəfə yumşaq təmizləyici vasitə ilə yuyulması tövsiyə olunur. Bu həm məsamələrin təmiz qalmasına, həm də artıq yağ və tərin dəridən uzaqlaşdırılmasına kömək edir. İstifadə edilən nəmləndiricilər də dəri tipinə uyğun seçilməlidir. Yağlı və akne meyilli dərilər üçün yüngül, qeyri-komedogen, gel və ya fluid formalı məhsullar daha uyğundur. Quru dərilər üçün isə krem formalı nəmləndiricilər daha effektiv hesab edilir.

"Günəş qoruyucuları hər kəs üçün vacibdir"

İsti hava və tərləmənin artması göbələk infeksiyalarının yaranması üçün də əlverişli şərait yaradır. Səidə Əsgərova bildirib ki, xüsusilə nəm mühitdə uzun müddət qalmaq, sintetik geyimlərdən istifadə etmək və gigiyenaya diqqət etməmək bu problemlərin yaranma riskini artırır: "Buna görə də yay aylarında pambıq və nəfəs alan geyimlərə üstünlük verilməsi vacibdir. Dəniz və hovuz istifadəsi də dəriyə müxtəlif formalarda təsir edir. Duzlu dəniz suyu bəzi insanlarda psoriazis əlamətlərinin azalmasına kömək edə və dərinin səthini təmizləyə bilər. Lakin həssas və quru dəriyə sahib insanlarda quruluq yarada, ekzemanı ağırlaşdıra bilər. Hovuz suyundakı xlor isə dərinin qoruyucu baryerini zəiflədərək quruluq və qıcıqlanmaya səbəb ola bilər. Atopik dermatitdən əziyyət çəkən insanlarda hovuzdan sonra şikayətlərin artması mümkündür. Buna görə hovuzdan sonra mütləq duş qəbulu və nəmləndirici istifadəsi mütləqdir".

Yay mövsümündə ən vacib qoruyucu vasitələrdən biri SPF tərkibli günəş kremləridir. Səidə Əsgərovanın sözlərinə görə, istifadə olunan günəş qoruyucusunun ən az SPF 30, ideal olaraq isə SPF 50+ olması tövsiyə edilir. Bundan əlavə, məhsulun üzərində "Broad Spectrum" qeydinin olması vacibdir. Bu, kremin həm UVA, həm də UVB şüalarına qarşı qoruma təmin etdiyini göstərir. Suyadavamlı SPF məhsullarına üstünlük verilməsi daha məqsədəuyğundur. Lakin suyadavamlı məhsullar belə tam qoruma təmin etmir və müəyyən vaxtdan sonra yenilənməlidir. Buna görə də SPF kremlər hər iki saatdan bir yenilənməlidir. Üzgüçülükdən, tərləmədən və ya üz silindikdən sonra isə dərhal yenidən tətbiq edilməlidir.

Həkim bildirib ki, günəş qoruyucuları yalnız qadınlar üçün deyil, kişilər və uşaqlar daxil olmaqla hər kəs üçün vacibdir. Bir çox insan SPF məhsullarından yalnız yayda istifadə etsə də, əslində bu vasitələr bütün il boyu tətbiq edilməlidir. Çünki UV şüaları təkcə yayda deyil, qış mövsümündə də dəriyə təsir göstərir. Buludlu havalarda SPF istifadə etməyin vacibliyinə də diqqət çəkən dermatoloq qeyd edir ki, ultrabənövşəyi şüaların böyük hissəsi buludlardan keçə bilir. Buna görə hava günəşsiz görünsə belə, dəri yenə də zərərli təsirlərə məruz qala bilər. Mütəxəssisin sözlərinə görə, günəşdən qorunmaq üçün yalnız krem istifadəsi kifayət deyil. Günün ən isti saatlarında birbaşa günəş altında qalmamaq, papaq və gün eynəyindən istifadə etmək, qoruyucu geyimlər də vacibdir.

"Yay aylarında qidalanma və su qəbulu da dəri sağlamlığına birbaşa təsir edir. Gün ərzində orta hesabla 2-3 litr su qəbul etmək vacibdir. Kifayət qədər maye qəbul edilmədikdə dəridə quruluq, elastikliyin azalması və yorğun görünüş yarana bilər. Gündəlik qida rasionunda meyvə və tərəvəzlərə üstünlük verilməsi də tövsiyə olunur. Xüsusilə antioksidantlarla zəngin qidalar dərinin qorunmasına kömək edir. Giləmeyvələr, pomidor, kök və yaşıl yarpaqlı tərəvəzlər bu baxımdan faydalı hesab edilir. Həddindən artıq şəkərli və yüksək emal olunmuş qidaların qəbulu isə dəri problemlərini artıra bilər", - deyə dermatoloq qeyd edib.

Yay istirahəti və günəşli hava insanların sağlamlığı və psixoloji vəziyyəti üçün faydalı olsa da, bunun təhlükəsiz şəkildə həyata keçirilməsi vacibdir. Dərinin sağlam qalması üçün düzgün qulluq, balanslı qidalanma və günəşdən qorunma qaydalarına əməl etmək əsas şərtlərdən biridir. Sadə görünən profilaktik tədbirlər isə gələcəkdə daha ciddi dəri problemlərinin qarşısını almaqda mühüm rol oynayır.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3794
Sifariş 723
Qiyməti 60 qəpik